# DONOR

**Ürəkdən gələn pay…**

…

Batmaqda olan günəş binanın damından sanki yarısı yox yumurta sarısı kimi görünürdü. Həyətdə bütün bina həyətinin axşamları kimi çox gur bir qaynayış səsi gəlirdi.

Domino oynayan kişilərin səsi komanda üzvünü səhv gediş üstündə danlayan mübahisələri, uşaqların qaçaraq bir-birilərini qovmaları, qızların tum çırtlayaraq müxtəlif geyim firmalarının mallarını müqayisələndirici söhbətləri, qadınların serial və verilişlər haqqında müzakirələri və oğlanların bir-birilərinə öyünmək üçün müxtəlif qız tutma söhbətlərinin danışılması və s. bina axşamlarının ənənəvi söhbətləri və yaşayış tərzi idi. Ancaq bütün bina sakinlərini bu axşamın bir hissəsi kimi görmək olmazdı. Çünki bu axşamın iştirakçıları əsasən aşağı və orta təbəqənin adamlarından (maddi baxımdan) ibarət olur. Yüksək yaşayış imkanına malik imkanlı insanlar əlbəttə öz yaşayış meyarlarında bu insanlarla eyni ortamı paylaşmayaraq, özlərinə uyğun məkanlarda, restoranlarda, əyləncə mərkəzlərində və s. vaxt keçirməyə çalışırdılar. Çünki bu həyatın yazılmayan qanunlarından biri də hər kəsin öz dünyasının qanunlarına əməl etməyə çalışmasıdır. Buna görə də cəmiyyətdə varlı və orta (indiki dövrdə kasıb sözünü az-az insanlar özünə aid edirlər) siniflər – dünyalar deyə qəbul olunmuş sosial qruplar var. Birinci qrupda ikinci qrupun söhbəti nə qədər az gedirsə, ikinci qrupda birinci qrupun söhbəti o qədər çox gedir. Çünki birinci qrupun məqsədi ikinci qrupa düşməndirsə, ikinci qrupun məqsədi birinci qrupa qalxmaqdır. Bunlar arasında əsas fərqlərdən biri də ikinci qrupun qapılarının daim hər kəsə açıq olmasına baxmayaraq, birinci qrupun qapılarının yalnız onları güclə açan insanlara açıq olmasıdır.

Bizim hekayənin danışıldığı məhəllədə bu tip hadisələrin yaşandığı məkandır. Bakının köhnə yaşayış məkanlarından olan Əhmədli son zamanlar güclü tikinti işlərinin baş verdiyi məkanlardan birinə çevrilmişdir. Köhnə binalarla yanaşı ucadılan yeni hündür mərtəbəli binalar varlı-kasıb insanları bir-birlərinə qonşu etmiş və qarışdırmışdır.

Yaşar 25 yaşında, ancaq yetkin insan görkəmi daşıyan məhəllənin cavanlarından biri idi. Hündür sayılacaq boyu, qalın, bir-birinə bitişmək üzrə olan qaşları, qəhvəyi çalarlı iri olmayan, ancaq kiçik də sayılmayan gözləri, ensiz burnu, yastı sifəti, gələcəkdə qocalanda xeyli qırış gətirəcək enli alnı, möhkəm, nə çox kök, nə də arıq olan bədənə və inamla yerə saplanmış uzun ayaqlara sahib olan bu gənc məhəllənin ən dəliqanlı oğullarından biri idi. BDU-nun filologiya fakültəsini bitirmiş, əsgərliyə gedib qayıtmışdır. Ancaq ixtisasına uyğun özünə bir iş tapmadığı üçün böyük bazarların birində xırda mağaza açaraq alverlə öz keçimini üstləməyə çalışırdı. Ailəsinin ən böyük uşağı olan Yaşardan sonra ailənin iki qız övladı da olmuşdur.

Bacısı Nərmin məktəbi qurtarmış, ancaq çox çalışmasına baxmayaraq universitetdə daxil ola bilməmişdi. Marketlərin birincə satıcı işinə düzələrək öz gələcək ağ atlı şahzadəsini gözləyən və taleyini inun müəyyənləşdirməsini gözləyən (fəal olmayan) gənc və gözəl bir qız idi.

Lap kiçik bacısı Nəzrin 11-ci sinifdə oxuyurdu. Universitetə daxil olmaq üçün bütün günü tam gücüylə çalışaraq tələbə olmaq və bunula bağlı xəyallar qururdu.

Atası Zəfər usta işləyirdi. Evlərin və ofislərin iç təmir işlərinə baxmaqla ailəsini dolandırırdı. Anası Xavər yerli poçt idarəsində işləyərək ailə büdcəsinə yardım etməyə çalışırdı. Bu ailəni orta yaşayış səviyyəsinə malik olan ailələr qrupuna aid etmək olardı.

Yaşarın ailəsində hər kəs bir-birini dərin məhəbbət və sevgiylə sevir, bir-birlərinə dərin bağlarla bağlı olan bu ailə örnək göstərilən ailələrdən sayılırdı. Bu Yaşarın ailəsi idi. Doğulub, böyüyüb və yaşadığı ailə. Ancaq onun öz ailəsini qurmaq üçün xəyal etdiyi namizəd Dilarə idi.

Yaşarın qəlbi qonşuluqda hündürmərtəbəli binada yaşayan Dilarənin eşqiylə artıq günlərdir ki, alışıb yanırdı. Dilarə 22 yaşında ortaboylu, incə, zərif, olduqca gözəl bir qız idi. Əgər gözəl sözünün hər hansı bir düsturu, formulu olsa idi, onda inu mütləq Dilarəyə aid etmək olardı. Uzun və qapqara olan şəlaləyə bənzər saçları, saçın arxasında sanki gizlənmiş ensiz qayanı xatırladan sanki şəlalənin dayanmasını gözləyən və mənzərəni göstərmək üçün dayanan incə kürəkləri, gur şəlalənin düşdüyü ensiz axında gözləyən incə beli, yumru almacıq sümükləri, gözlərinə diklənmiş yanaqları, sanki yoxmuş kimi görünən xırda burnu və içəri doğru uzanmış çənəsi, nazik kirpiklər üstündə kəpənək oturmuş kimi sallanmış zərif otlara bənzər qaşları və şəlalə damcısına bənzər iri və qara, hökmlü məqsəddolu gözləri.

Bu incə gözəlliyin altında dərin və ağıllı qadın xarakterini daşıyan hökmlü və nə istədiyini yaxşı bilən bir qadın gizlənmişdi. Dilarənin ən böyük özəlliyi daim diqqət mərkəzində olmağı xoşlaması idi. Əlbəttə, bunu bütün insanlar, xüsusən qadınlar xoşlayır. Ancaq hər şeydə olduğu kimi bunda da bir ölçü var və bəziləri bu ölçünün həddinin ən son məqamına çatmaq üçün var qüvvələri ilə çalışırlar. Hətta bəziləri diqqətli, pis baxışları diqqətsiz baxışlardan üstün tuturlar. Dilarə evin böyük uşağı idi. Ondan kiçik qardaşı Orxan 11-ci sinifdə oxuyurdu.

Dilarənin atası Mətin əvvəllər çox kasıb olmuşdur. Yalnız kasıbların varlı olduğu bir yolla kasıblığa etdiyi nifrətlə (əlbəttə hamısını aid etmək olmaz), böyük əzmlə çalışaraq öz biznesini qurmuş və imkanlı və hörmətli bir şəxsə çevrilmişdir. Mətin müəllimin (indi cəmiyyətdə varlıları müəllim adlandırırlar) əvvəldən kasıblığa olan nifrəti indi kasıblara olan nifrətlə əvəz olunmuşdur. O, öz ətrafını (biznes dilində

- kruqunu) yalnız varlı və vəzifəli şəxslərdən olan söz sahibi olan şəxslərlə əhatə etmişdi. Cəmiyyətdə bu yanaşma təbii qarşılanırdı. Heç təsadüfi deyil ki, folklorumuzdan gələn bir söz var - "taylı-tayın, aylı-ayın". Bu sözlər təkcə bu vəziyyətin indiki dövrə deyil, tarix boyu cəmiyyət həyatının bir formulu olduğunu göstərir.

Ailənin xanımı İradə xanım Mətindən fərqli olaraq varlı ailədən çıxmışdır. Atası yüksək vəzifədə çalışmışdır. Mətindən fərqli olaraq İradə pula elə də çox önəm verən şəxs deyildi. Bəlkə də bu onun kasıblığı heç zaman görməməsi ilə əlaqəli bir şey idi. İradə mənəvi cəhətdən güclü bir xanım idi. Ancaq heç zaman kasıblığı dadmamış şəxsə varlılıq bəzən yük kimi gəlsə də o kasıblığı və kasıb insanların yaşayış tərzini ancaq xəyal edə bilər, ancaq heç vaxt fikirləşə bilməzdi.

İnsanın öz xarakter və xasiyyətinin valideynlərindən aldığını hesab etsək onda Dilarənin atasından, Orxanın da anasından aldıqlarının daha çox aldığının şahidi olarıq.

Yaşar işdən evə qayıdanda artıq saat doqquzu göstərirdi. Qanının qara olduğunu bütün ailələrdə olduğu kimi burda da anası ilk hiss etmişdi. Evə gec gəlmiş bütün övladların ilk qarşılaşdığı ənənəvi, ana sualı onu da qarşıladı

- Yaşar, acsan, bala?
- Yox, sağ ol, ana, mən işdə yemişəm.

Əlbəttə, ana müstəntiq kimidir, bir sualla kifayətlənə bilməz.

- Nə yemisən? Yaxşı dolma var, bəlkə gətirim, bir az yeyəsən?
- Yox, sağ ol, ay ana, aclığım yoxdur.
- Niyə, ay bala, bir cür görsənirsən, bəlkə naxoşlamısan?
- Yox, ay ana, bir az yorğunam. Otağıma keçirəm, uzanacağam.
- Bala, işdə bəlkə nəsə olub, niyə belə bikef görsənirsən?
- Yox ay ana, dedim axı yorğunam.

Bu ana suallarından bezmiş bir övlar əsəbi deyildi. Bu tək qalmaq, düşünmək xəyalları qurmaq istəyən aşiq övlad əsəbi idi. Belə aşiq hər kəsi günahkar sayaraq tək qalmağa çalışaraq evdə yorğanı başına çəkərək balışı da günahkar kimi kənara tullayırdı. Yaşar da bu səbəbdən otağında tək qalmaq istəyirdi. Bunu bəlkə də bütün ailə üzvləri bilsələr də sanki bir-birilərindən sirr gizlədirmiş kimi susaraq onun otağına gedişini baxışlarıyla izlədilər. Yaşarı belə gərgin, əsəbi, dilxor, kədərli edən hadisə onun binaların girişində Dilarəylə rastlaşmağı idi.

Yaşarın Dilarəni dəli kimi sevdiyini desək yalan olmaz. Əsgərlikdən gəldikdən sonra məhəllələrində təzə ucaldılan hündürmərtəbəli binaların yeni sakinlərindən biri ilə təsadüfən küçədə rastlaşan Yaşar bir anlıq içindəki həyacanı boğmağa çalışsa da, sonra həyəcanın onu boğduğunu hiss etmişdi. Ürəyi sürətlə döyünmüş, ayaqları

sürətlə hərəkət etməyə başlamış, bir anda gözləri öz müstəqilliyini elan etmiş bir orqan kimi ona olan aidiyyatını itirmiş, artıq onun əmr etdiyi yerlərə yox, Dilarənin olduğu yerlərə baxır. Sonradan Yaşar Dilarə haqqında məlumat toplamağa başladı. Öyrəndi ki, o varlı bir ailənin qızıdır. İndi varlı ailələr binalarda ev alarkən rahatlıq və imic xətrinə mərtəbədə olan o evlərin hamısını alırlar. Dilarənin ailəsi də bu qanuni varlı adətinə əməl edərək yuxarı mərtəbədə olan hər 3 evi almış və birləşdirmişlər. Dilarəyə olan sevgisi özü də istəmədən bu məlumatlardan sonra daha da artmışdı. Bunu onun maddiyyətə olan meyli ilə bağlılığı olmasa da hər bir oğlan indi özü hiss etmədən də olsa cəmiyyətdə qız seçərkən onun ailəsinin maddi vəziyyətinə fikir verir. Çünki, qızın varlı olması onu bir az da daha çox sevdirir. Çünki kasıb qızdan fərqli olaraq varlı qız daha az problem, daha yüksək ad deməkdir. Yaşar, əlbəttə, bir gün Dilarənin qarşısına çıxmağa cəsarət etmiş və etdiyi çoxlu məşqlərdən sonra xəyal etdiyi əsas qarşılaşmaya hazırlaşmışdı.

- Salam, Dilarə xanım!
- Salam. Tanımadım. Tanışıq?
- Tanımasaq da, bir müddətdir baxışırıq.
- Hiss etməmişəm. Siz yəqin mənim yerimə də baxmısız.
- Ola bilər, mən sizin yerinizə cəhənnəmə də getməyə hazıram.
- Cəhənnəmə niyə? Mən cənnətə getmək istəyirəm.
- Təəssüf edirəm, ancaq bu qədər bir oğlana zülm etdikdən sonra sizin cənnətə gedəcəyinizə hec inanmıram.
- Biz qadınlar zülm etmək üçün yaradılmış məxluqlarıq, belə olmasaydı, sizdən bir parça qopardılıb yaradılmazdıq. Yaradılışdan sizi parçalayırıq.
- Eybi yox, sonradan biz sizdən bütöv bir parça bəşər övladı olarıq.
- Ola bilər. Bu bizim yəqin ki, cənnətə getmək vəsiqəmizdir. Başqa elmi-bədii biliyinizi nümayiş etdirəcək cümləniz yoxsa, yoldan çəkilin, bəşər övladı!
- Dilarə xanım, siz məni anlamadınız, mən sizə nəsə göstərmək yox, göstərə bilməyəcək şeyləri izah etmək üçün çalışıram.
- Yəqin ki, sizin göstərilə bilinməyəcəkləri göstərməyə gücünüz yetməz.
- Əlbəttə... Bu yaradanın xüsusiyyətidir, ancaq siz bəndənin bunu anlamağa qüvvəniz yetər yəqin ki.
- Qadınlar gec anlayan məxluqlardır.
- Bunda bizdən geri qala bilərsiz, ancaq hissetmədə biz sizə çata bilmərik. Yəqin siz də bu söhbətin əvvəlində sonunu artıq hiss etmisiniz?
- Sonumuz ölümdür, bunu hiss etmək yox, dərk etmək lazımdır.
- Bəlkə əbədiyyətdən, ədəbiyyta qayıdaq, ölümdən güclü bir varlıq olan sevgidən danışaq.
- Sevgi... Bundan ancaq şairlər, bəstəkarlar danışa bilər.
- Dilarə...

Yalnız sevdiyi şəxslərə və oğlanın özünə haqq verdiyi tonla qışqıraraq deyə biləcəyi bir şəkildə Yaşar söhbətə son qoymaq qərarına gəldiyi anda bu söz onun ağzından çıxıb, qəlbindən gələn həyəcanı göstərən bir səda idi.

- Bilirsən nə var?... Mən səni bəyənirəm, xoşlayıram, sevirəm. Bilmirəm nə ad verirsən ver, bunu bilməyini istədim.
- Çox gözəl, diqqətinə görə sağ ol.
- Bəs mənə cavabin nədir?
- Siz axı sonunda sual işarəsi qoyulan bir cümlə işlətmədiniz.
- Mənim indi bütün cümlələrimin axırında qoyulan bir işarə var, o da nida... çünki səni ürəyimdə gəzdirdiyim gündən ürəyim dolmuş bardağa bənzəyir. Nə axıtsan, yerə tökülür.
- Yəqin ki, bu bir-iki internet statusları və sözləriylə məni ovlayacağını fikirləşməmisən.
- Yox. Niyə belə fikirləşirsiz? Sizi istədiyim üçün siz mənim ovum ola bilməzsiniz, əksinə sizi istədiyim üçün siz mənim ovçumsunuz.
- Yaxşı, onda bu ovun taleyini mənə buraxın, mən lazım gələndə şikarımın taleyini verəcəyəm.
- Bu bir ümiddir, yoxsa...
- Bilmirəm, adını siz qoyun. Xudahafiz.

Bu son deyilən sözdən sonra Dilarə gözlərinin ucuyla Yaşara işvə sataraq evə doğru yönəldi. Yaşar bu cavabdan bir anda beyninin dumanlandığını görərək xəyalın sürüklədiyi, ayağının apara bilmədiyi mənzərələri fikirləşərək tək qalmaq üçün sakit bir guşəyə getdi. Yaşar da hər bir insan kimi narahat olanda, darıxanda, hər kəsdən bezəndə getmək istədiyi bir yer və görmək istədiyi bir insan vardı. Bu onun anasının əmisi Şamil əmi idi.

Şamil kişi 65 yaşlarında saçı ağarmaq astanasında, saqqalı isə ağarmaq istəyində olan qoca bir kişi idi. Şamil kişi fiziki baxımdan bədəni saçları kimi dönük çıxmamış, hələ də həyatın ağrı-acısına dözməyə hazır bir görkəm almış vəziyyətdə durmuşdu. Bu da yəqin onun ağır zəhmətli iş şəraiti, çəkdiyi əmək sahəsində olmuşdu. Özünə məxsus balaca bir qaraj onun üçün neçə illərdir ki, gəlib-gedən maşınlara göstərdiyi təmir xidmətilə yanaşı kiçicik bir küncdə ayıldığı bir guşəylə Şamil kişiyə ev xidməti də göstərirdi. Hər kəsdən ayrı tək-tənha həyat keçirən Şamil kişi evində baş vermiş qaz sızması nəticəsində öz yeni evlənmiş həyat yoldaşını məzara öz əlləriylə qoymuş, bununla da öz həyatını, gəncliyini, arzularını, basdırmış və tənha həyat sürməyə qərar vermişdi. Onun bu həyatını aradabir onun ziyarətinə gələn Yaşar pozurdu. Nədənsə Yaşarla onun söhbəti alınırdı. Hər kəs özünə lazım olan mənəvi ehtiyaclarını onunla fikirləri, düşüncələri üst-üstə düşən və ya danışıqları maraqlı alındıqda həmin kəslə ödəyir. Yaşar həmişə darıxdığı bir anda qarşılaşdığı bir çətin vəziyyətdə dayanacağını Şamil kişinin qarajında edirdi. Elə bu

gündə Yaşar Dilarəylə danışdıqdan sonra özünü Şamil kişinin qarajında görmüşdü. Əlindəki çəkiclə nəyisə döyəcləyən Şamil kişi başını yelləndərək gözləriylə verdiyi salamla öz işini saxlamadan sözə başladı.

- Hə, Yaşar. Deyəsən, nəhayət nəsə eləmisən.
- Hə, əmi, nəsə eləmişəm. Ancaq özüm də nə olduğunu bilmirəm.
- Necə bəyəm. Axır qıza nəsə deyə bildin?

Bir anlıq təəccübdən donmuş sifətin müşayiətilə yavaşlamış əl kiçik bir nəfəs fasiləsindən sonra sanki hansısa ritmə, qanunauyğunluğa uyğun şəkildə yenidən aşağı-yuxarı enərək, dəmirdən nəsə istəyirmiş kimi tələbkarlıqla döyməyə başladı.

- Hə, deməyinə dedim, ancaq cavab ala bilmədim.
- Əşi, daha niyə narahatsan, əsas mərhələni keçmisən, qaldı ayaqqabılarının körpünü keçməyi.
- Başa düşmədim, əmi. Sən zarafat edirsən? Mən körpünü keçsəm, ayaqqabılarım da mənimlə birlikdə keçər də, daha niyə qalmalıdır ki...?
- Hə, oğul, bax sən sevgini hələ başa düşməmisən, daha doğrusu, qadınları.
- Bunun sevgiyə nə aidiyyatı?
- Bax, sevmiş kişi mağazada ayaqqabını bəyənmiş alıcıya bənzəyir. Sən ayaqqabını bəyənərsən, ancaq onu ayaqlarına keçirdəndə onun sənin ölçünə olub-olmadığını, ayağına yaraşdığını bilərsən.
- Başa düşmədim, əmi. İndi sən qadını ayaqqabıya bənzədirsən?
- Əlbəttə, ayağına düzgün ayaqqabı geymiş kişi, istədiyi məqsədə gedə bilər.
- Yaxud da yaxşı ayaqqabı kişini məqsədinə apara bilər.
- Hə, onda o ayaqqabı yox, çatdığın məqamda taca çevrilir və sən onu başına qoyursan.
- Onda belə çıxır ki, seçim şansı bizə məxsusdur.
- Yox, o bizə elə gəlir, əslində biz ayaqqabını yox, ayaqqabı bizim ayağımızı seçir.
- Yaxşı, bəs mən neyləməliyəm ki, bu ayaqqabı məni seçsin, körpünü keçsin?
- Heç nə, əgər o sənə uyğun olduğunu hesab etsə keçəcək.
- Onda seçmək onlara məxsusdur.
- Əlbəttə, kişi sevər, qadın seçər. Qadın sevilmədim deyə ağlar, kişi seçilmədim deyə ağlar.
- Necə bəyəm?
- Kişi onu sevməyən, ancaq onu seçmiş bir qadınla ömrünün sonuna qədər yaşaya bilər, ancaq qadın onu seçmiş, ancaq sevməmiş kişiylə yox.

- Niyə o qədər sevilmədiyi kişiylə yaşayıb ömrünü başa vurmuş qadınlar var.
- Bax, məncə bu səhv fikirdir. Səhv etmirəmsə, hardasa oxumuşdum.İtalyan alimləri sevginin ömrünü demişlər. Bu iki ildən çox, üç ildən az bir müddət olmuşdur. Bundan sonra qadın-kişi arasında münasibət başqa mərhələyə keçir – hörmət, bağlılıq və s. Əgər onlar öz həyatlarını bu mərhələyə daşıya bilirlərsə, birliyi davam edir, daşıya bilməsələr yox. Ona görə də, ola bilər bəzi insanların birliyinin əvvəlində sevgi olmasın, ancaq sonralar bu bağlılıq hissi yaranır və onlar münasibətlərinə davam edirlər.
- Ay əmi, mən sənin yanına gəlirəm ki, mənə yol göstərəsən, məsləhət verəsən, ümid verəsən. Sənsə mənim bir az da ümidimi qırırsan.
- Ay Yaşar, bütün bu məsləhətlər körpü kimidir, səni ancaq çaydan keçirər, dağları isə özün aşmalısan.
- Yaxşı, onda sən mənə bir körpü göstər, o ayaqqabını bu taya keçirim.
- Sən narahat olma, onun gözü bu tayda olsa, bir yolunu tapıb keçəcək.

Sanki bu sözdən sonra cümləyə nöqtə qoyurmuş kimi havada şığıyan çəkic bərkdən dəmirə dəydi.

- Vallah, mən sənin dediyini elədim. Qızın qarşısına çıxdım, öz hislərimi ona açdım.
- Afərin, cəsarətli iş görmüsən, ancaq mən sənə hislərini bildir, qarşısına çıx demədim.
- Ay əmi, zarafat edirsən? Qızın qarşısına çıxmadan necə hislərimi bildirə bilərəm?
- Nə bilim. Bəzi hislərin deyilməyə, göstərilməyə ehtiyacları yoxdur, onlar hər yerdə səni göstərir, sən əksini fikirləşəndə...
- Yenə də hər şeyin üz-üzə olmağının yaxşı olacağını fikirləşdim.
- Deyirəm də, cəsarətli addımdır. Nəticədə bu işin sonunda nəsibinə söyüş, başına da çanta payı düşmüş oğlan az deyil. Səndə ki belə bir şey baş verməyib.
- Mən də onu deyirəm də, mənim nəsibimə heç bir cavab düşmədi. Nə söyüş, nə də çanta. Nə hə, nə yox.
- Səbrli ol, Yaşar. Sevgi səbr işidir, yoxsa adını niyə eşq qoyurdular. Bilirsən eşq sözü sarmaşıq sözündən götürülmüşdür. Sarmaşıq yavaş-yavaş gülə sarılaraq ona sahib olur. İnsan da yavaş-yavaş, səbrlə sevgilisinə sahib olmalıdır, yetər ki, düzgün gülü seçsin.
- Bu gül deyəsən məni sardırmaq yox, süründürmək istəyir.
- Gül süründürüb sardırmasa, daha gül yox, ağac olar.
- Bilmirəm, ay əmi. Bircə bunu bilirəm, nəyinki süründürməyə, öldürülməyə də razıyam. Çox sevirəm, kaş ümidim də sevgim qədər çox olaydı.

- Ümid sevginin cücərtisidir, sevgini necə bəslərsəm, ümidin də elə böyüyər.
- Qız mənə heç bir cavab vermədi axı, nəyi ümid edim?
- Bunu deyə bilmərəm. Yaşar, ancaq bil ki, sevgidə gözlənti olmur. Gözlənti olan yerdə də sevgi olmur. Çünki, bu qarşılıq olmadan da yaşanıla bilən tək hisdir. Dostluğu, düşmənçiliyi qarşılıqsız, gözləntisiz yaşaya bilməzsən, ancaq sevgini bilərsən.
- Ancaq qarşılıqsız da sevgi sevgi deyil, əzabdır, zülmdür.
- Sevgi əzabdan yaranır. Dünyaya gələrkən ən çox əzab verdiyimiz ana ölənə qədər bizi ən çox sevən şəxs olur. Allah sənə ölümə qədər heç nəyi çox vermir, ancaq sən onu sevməyə davam edirsən.
- Beynim çox dumanlıdır. Qızın qəlbində özünə aid heç nə görməsəm də, o ürəkdə başqa bir insana aid də nəsə görmədim.
- Deməli, işin o qədər də çətin deyil. Boş ürəyi ələ keçirtmək daha asandır.
- Ay sağ ol, əmi. Bax belə ümidverici sözlər de, qoy məndə həvəslənim, ürəklənim.
- Ancaq unutma ha. Baş ürək, boş beyin  deyil ha. Boş beyni, dolu ürəyi ələ keçirmək çox asandır, ancaq boş ürək, dolu beyni ələ keçirmək daha çətindir.
- Ay əmi, yenə də məni azdırdım. Belə baxıram, qızdan ümid gözləmək qızdan ümid gözləməkdən yaxşıdır.
- Bax, Yaşar. Sənə bugünə qədər bacardığım qədər həmişə doğruları, düz bildiklərimi başa salmağa çalışmışam, bugündən sonra da bu ömrümün axırınacan belə davam edəcək.
- Əlbəttə, əmi. Mən də sənin yanına ancaq bunları eşitmək üçün gəlirəm.
- Mənə anlatdığın qədər bu qız imkanlı qızdı deyəsən?
- Bəli əmi, çox imkanlı ailəsi var.
- Bax, oğul. Belə ailələrdə böyümüş uşaqlar günün tələbinə uyğun şəkildə ailələrinin maraqlarına, öz ətrafına uyğun şəkildə hərəkət etməyə məcburdular. Bu onların yox, yaşadıqları sosial zümrənin qanunauyğunluğudur.
- Başa düşürəm, əmi. Əlbəttə mənim maddi vəziyyətim onunkundan aşağı səviyyədə olsa da, mən bunun iki sevən insan arasında problem olacağına inanmıram.
- Niyə ki?
- Çünki maddi vəziyyət keçici bir məfhumdur. Sabah mən onun atasından da imkanlı şəxs ola bilərəm.
- Amma unutma, oğul. Qadın həmişə bu anı fikirləşib qərar verir. Sənin indiki real vəziyyətin göstərir ki, sən bu ailə ilə maddi baxımdan ayaqlaşa bilməzsən.

- Nə olar, əmi. Problem təki bir o olsun. Mən onda bilərəm ki, bunu həll etmək mənim əlimdədir. Gecə-gündüz çalışıb bu məsələni həll etmək üçün əlləşəcəm. Özün bilirsən, əmi, mənim üçün pulun o qədər də dəyəri yoxdur.
- Bilirəm, oğlum. Bilirsən, pul da, sevgi də övlad kimidir. Olmayanda onsuz da yaşaya biləcəyini düşünürsən, ancaq olandan sonra onsuz yaşayacağını düşünmək belə sənə zülm olur. Amma bu sənin xarakterindi, sən belə düşünürsən, qarşı tərəfin bu haqda fikirləri fərqli ola bilər. Amma inşallah hər şey yaxşı olar. Ürəyini sıxma, qismətində varsa, alınacaq.
- İnşallah, əmi.
- Daha bəsdir səndən danışdıq. Bir az da məndən danışaq. Sənə o dediyimi tapa bilmisən?
- Ay əmi, vallah yadımdan çıxmışdı, yaxşı ki, yadıma saldın. Bir tanış var, ona demişəm, bu yaxında gətirəcək.
- Ay Yaşar, heç yalan deməyi də yaxşı bacarmırsan, yaxşı bilirəm yadından çıxıb. Eybi yox, amma o mənə vacibdi. Yadında saxla, çalış
- Oldu, əmi. Narahat olma. Səndən də bir şey gizlətmək olmur.
- Bəs nə, bəs bilmirsən ki, qəlbinə eşq düşmüş kişi bətninə körpə düşmüş qadın kimidir. İçindəkini gizlədə bilməz. Gec-tez büruzə verir hər şeyi.
- Düzdür, əmi. Sevəndə şüşə kimi olur, adam elə bil, heç nə gizlədə bilmirik, yalanı da, nifrəti də, sevgimiz də, qıcqanclığımızı da.
- Hə. Onda ay şüşə, unutma ha, dediyim yadından çıxmasın. Sənə arxayınam.
- Yaxşı. Oldu, əmi. Mən gedim evə nigaran olarlar evdə. Sağ ol. Hələlik.
- Hələlik, ay Yaşar, nə vaxt istədin, gəl. Narahat olma, qismət nədisə, o da olacaq. Xudahafiz.
-

...

Günlər keçir, ancaq Yaşarın beynindəki duman çəkilmir, qəlbindəki dağlara hey yağış yağdırardı. Sanki, insan beynində sual işarəsi gəzdirəndə, qəlbində nida işarəsi gəzdirməkdən daha çox yorulur. Yaşar da beynində gəzdirdiyi suala Dilarənin nə cavab verəcəyini düşünürdü. Dilarə sanki ona çətin bir sual vermiş müəllimin cavabını bilməyən, ancaq gözlərini müəllimin gözlərindən qaçıran şagird kimi Yaşarı görmür, qaçırdı ondan. Əlbəttə Yaşar bacardığı qədər, onu sıxmamağa çalışır, hər şeyi zamana buraxaraq Dilarənin özünün onu çağıracağı məqamı gözləyirdi. Bəzən Yaşar özü də ümidsizliyə qapılıb, üsyan etmək istəyirdi. Ancaq sevdiyi şəxsin dodaqlarında həbsə məhkum olunmuş bir cümlə nədənsə sahibi tərəfindən azadlığa buraxılmırdı.

Yaşarın iştahası azalmışdı, işə olan marağını itirmişdi. Əlbəttə, həyat davam edirdi. Yaşarın işinə olan laqeydliyi onun kiçik ticarətinə də təsir edirdi. Əlbəttə, həyat sevgiyə güzəştə gedərək öz axarını dəyişmir. Sevgini həyat maraqlandırsa da, həyatı sevgi maraqlandırmır. O, hər gün öz tələbləri qanunauyğunluqları ilə davam edir.

Yaşar bazara daxil olanda bütün mağazaların açıldığını görəndə işə gec qaldığını anladı. Astaca öz dükanına tərəf yaxınlaşaraq qapısını aramla açdı.

Bu hardasa  təqribən 30-40 kvadrat metrlik balaca bir dükan idi. Dükan balaca olsa da, çox səliqə ilə yığılmışdı. Divarlarında səliqə ilə yığılmış vitrinlər, gur işıqlandırma,səliqəli şəkildə manekenlərə keçirilmiş köynəklər və s. insana - burada səliqə, gözəllik var – dedizdirirdi. Yaşar burada kişi köynəkləri satırdı. Müxtəlif firmaların uzunqol və qısaqol mövsümə uyğun, dəblə ayaqlaşan köynəkləri vitrində yerlərini tutaraq müştəri diqqətini özünə çəkməyə çalışırdılar. Bu işə Yaşarın uşaqlıq dostu Mahirin, belə desək, yardımıyla ərsəyə gəlmişdi. Əsgərlikdən sonra uzun müddət işsiz qalan Yaşar bazarda işləyən Mahirin yanına gəlmiş və Mahir də ona yenicə üzbəüz boş olan dükanda bu işi qurmağa yardım etmişdi. Yaşar da onun dəstəyi ilə bu işi qurmuş, artıq iki ilə yaxın bir müddətdə bu iş gələcək vəd edən (əgər səylə çalışılır və maliyyə imkanları qurularsa) bir iş idi. Necəki Mahir sıfırdan başladığı bu bazar ticarətində artıq böyük uğurlar əldə edərək dükanını genişləndirərək yaşayış meyarlarını irəliləyən xətt üzrə aparırdı. Yaşar dükan açan kimi Mahir sanki kölgə kimi onun arxasında peyda oldu.

- Salam, Yaşar. Salamatçılıqdı. Niyə belə gecikmisən, evdə nəsə olmayıb?
- Salam, ay Mahir.

Yaşar sanki işin əvvəli yox, axırında yorulmuş fəhlə kimi aramla əlini Mahirə uzadaraq onunla görüşdü.

- Qardaş, nolub sənə, xəstələnmisən?
- Yox, çox sağ ol, hər şey yaxşıdır, harahat olacaq bir şey yoxdur. Yatıb qalmışam, gec qaldım.
- Narahatçılıq var, Yaşar

Sanki bu söz Yaşarın yuxulu üzünə dəymiş bir stəkan su kimi onu təəccübləndirdi.

- Nə... Nə olub ki?
- Qardaş, neçə vaxtdır fikir verirəm, işinə çox laqeyd yanaşırsan. Ətrafına qarşı soyumusan. Ətraf eybi yox, ancaq iş qadın kimidir, hər şeyi götürər, laqeydsizliyi yox.
- Yox, ay Mahir, bir az başım qarışıqdı.
- Nə ilə qarışıqdır?

Bax bu söz bir stəkan suyun ardından sifətə dəyən sillə kimiydi. İnsanı sadəcə nə deyəcəyini bilməyəcəkləri bir vəziyyətə salır. Yaşar mahnısı yaddan çıxmış ifaçı kimi yerində donaraq nəsə deməyə çalışırdı.

- Nə bilim, Mahir, qarışıqdır da. Deyirsən işə laqeydəm, dükan açılandan qalmışam başım üstə, evə gec gəlib arvadından söz yeyən kişi kimi məni saxlatmısan qabağında, sonra deyirsən işləmirsən, imkan ver işimizi görək də.
- Ay maşallah, günahkarı tapdım deyəsən. Özün bil, qardaş, məndən deməkdir. İstəyirsən qulaq as, istəyirsən yox. Ancaq bu işlər belədir.
- Yaxşı, Mahir. Bağışla xətrinə dəydimsə. Ancaq bir az mənə vaxt ver, özümə gəlim, sonra söhbət edərik.
- Yaxşı, qardaş, sənə bir çay göndərirəm, özünə gəl, sonra danışarıq.
- Oldu, sağ ol

Mahir qapıdan bayıra çıxan kimi günün ilk müştərisi qapıdan içəri daxil oldu. Yaşar üzündə gülüş ifadəsi yaradaraq müştəriyə dedi:

- Salam. Xoş gəlmisiniz.
- Sağ olun. Varam da bu satıcıların adam qarşılamağına – özündən razı qalın bir səs dilləndi.
- Nə istəyirsiniz? – Yaşar yenə də sifətindəki təbəssümü qorumağa çalışdı.
- Nə istəyəcəm ki, burdan qarpız istəcək deyiləm ki. Köynək istəyirəm.
- Başa düşürəm. Necə bir model istədiyiniz soruşuram ki, kömək edim sizə seçiminizdə.
- Modeli özüm seçərəm, sən çox istəyirsənsə pulunu ödəyəndə kömək edərsən – sanki böyük hazırcavablıq etmiş bir uşaq kimi qalib görkəmi almış vücud yavaş-yavaş vitrinlərə yaxınlaşaraq, əli ilə bircə-bircə köynəklərə toxunaraq onları yoxlamağa başladı.
- Bəyəndiyiniz olsa, göstərin, sizə uyğun ölçünü verim.
- Burda bəyəniləcək bir şey yoxdur. Hamısı zir-zibildir, köhnə modellərdir.

Sanki biri bu şəxsi qəsdən Yaşarın səbrinin sərhədini ölçmək üçün göndərilmişdi.

- Bunu düşürdün, baxım.

Yaşar dərhal yuxarı sıralarda olan həmin köynəyi aşağı endirdi.

- Yox fikrimi dəyişdim, o birini verin.

Əks vitrindəki başqa bir köynəyə uzadılan barmaq sanki Yaşara istiqamətini dəyişməyi göstərən yol işarəsi kimi uzandı.

- Yaxşı – deyib Yaşar əks vitrindəki köynəyi endirdi.

Müştəri köynəyə əlini vurub dedi:

- Yox, fikrimi dəyişdim, burda bəyənilesi bir şey yoxdur. Dükana yeni modellər gətirin.

Sanki bütün bu ədəbsizliklərin sonunda arsızcasına verilən bir məsləhət bardağı daşıran son damcı tək Yaşarın əsəblərini yerindən oynatdı.

- Qardaşım, sən mənimlə oynamağa gəlmisən?
- Yox, siz oyuncaqsınız bəyəm sizlə oynayım? Həm də mənim oyuncaqlarla oynayacaq yaşım keçib.
- Belə baxıram yaşın keçsə də, düşüncən hələ o yaşlardadır.
- Sən nə demək istəyirsən ki? Güclə mal sırımaq istəyirsən? Almıram. Nə boşboğazlıq edirsən – son cümləsindəki xüsusi qışqırıq dolu ton bir anda həyəcan siqnalı kimi bazara yayıldı və bütün bazarın diqqətini bura yönəlməsinə, bir neçə nəfərin bura yığılmasına səbəb oldu. İnsanların yığıldığını görən bu şəxs sanki Yaşarın üstünə qaldıra biləcəyi ən son tona yüksəldərək sanki bunun üçün nəinki səs tellərini, bütün orqanlarını fəaliyyətə keçirmişdi.
- Ay axmaq, səndən nəsə almağa məcburam? Bir-iki köynək saldırdım deyə, az qalır güclə malını sırıyasan mənə.
- Danışığına fikir ver. Sənin kimisinin nəsə almağına heç ehtiyacım da yoxdur, get, şərini rədd elə.
- Bir bunun danışığına bax, sanki bu bazar bunun dədəsinindir.

Artıq Yaşar da özünü saxlaya bilməyərək onun üzərinə yeridi. Elə bu vaxt bir anda peyda olan Mahir Yaşarın qolundan yapışaraq onu içəriyə doğru apararaq sakitləşdirdi:

- Yaşar, səbrli ol. Özünü şərə salma, görmürsən nahaq şərdir. Qoy rədd olub getsin.

Bayaqdan tamaşaya baxan bazar adamları Mahirin bu hərəkətindən sonra sanki ayıldılar. Onlardan bəziləri müştərini dilə tutaraq ordan uzaqlaşdırdılar. Mahir dərhal iki stəkan çayla Yaşarın qarşısına keçərək millətimizə məxsus bir adətlə təklifini etdi:

- Qardaş, çay iç, bir az əsəblərin soyusun.
- Sağ ol, qardaş. Amma gərək icazə verərdin o alçağın ağzının payını verərdim.
- Səbrli ol, hər kəsin ağzının payını yumruqla verməsə çalışsan, onda işin çətin olacaq. Ağzına pay aparmağa əlin qalmaz.
- Yox, qardaş. Bələsinin elə bil qəsdən yollayıblar insanın səbrini yoxlamağa. Vay, şərəfsiz necə gəlib səhər-səhər qanımızı qaraltdı. Elə bil mal almağa yox, qüsur axtarmağa gəlib.
- Bu bizim işimizdir, Yaşar. Biz hər cür müştəri ilə qarşılaşa bilərik. Hər kəsi səbrlə yola salmaq lazımdır. Birinci dəfədir ki, bəyəm belə müştəri ilə qarşılaşırsan?!
- Yox, ay qardaş. Beləsinə müştəri yox, əsəbyoxlayan aparatdır elə bil.
- Onda sən də bu aparatın müayinəsindən yaxşı keç.
- Niyə, məcburam bəyəm?

- Bəli, məcbursan. Çörəyin üçün məcbursan. Heç bilmirəm sənə nə olub. Əvvəllər sən bundan da betərlərini yola salmısan.
- Mənə heç nə olmayıb, Mahir. Başlama yenə.
- Deyirəm elə ona görə çayı əlində tutub soyuq suyla qəndi içirsən.

Bu sözdən təəccüblənən Mahir əlinə baxanda su əlində, qənd ağzında gülməli bir vəziyyətdə olduğunu gördü.

- Sən də, Mahir, o qədər adamın beynini yeyirsən ki, adam ağlımnı itirir.
- Yaşar, görürəm ki, yeyilən beynin yox, ürəyindir. Nə oldu o məsələ? Deyəsən qıza hələ də bir söz deyə bilməmisən.
- Bilirsən, Mahir. İçim içimi yandırır, çölüm özgəni. Səndən nə gizlədim, sözün doğrusu, o gün qarşısına çıxıb ürəyimi açdım.
- Aha..Nəhayət. Belə de... Axır ki, deyə bildin, gördünmü, o qədər də çətin deyilmiş, sənsə elə hey qorxurdun.
- Heç kəs sevdiyini deməkdən qorxmaz, qarşılıq ala bilməməsindən qorxar.
- Sən necə, ala bildin?
- Bax bu suala cavab verə bilməyəcəyəm, çünki özüm də heç nə bilmirəm.
- Necə yəni, başa düşmədim.
- Yəni ki, qardaş, qız heç nə demədi. Nə hə, nə də ki, yox.
- Belə de... deyirəm də, sənə nəsə olub. Denən elə bu vəziyyətə görə dilxorsan da.
- Bilmirəm. İnan, başımı itirmişəm. Nə yediyimi bilirəm, nə də içdiyimi. Yaşayıb-yaşamıram, heç onu bilmirəm.
- Niyə belə narahatsan, yox ki almamısan. Lap alsan da bu dünyanın sonu deyil ki. Sənə bəyəm qız yoxdu?
- O, anaların sözüdür, sən mənə elə təsəlli vermə. Yox alsam, bir dəfəlik fikrini bilib razılaşardım, ancaq indi hər zaman yoxa hazır vəziyyətdə gözləmək məni çox yorur. Hər an bunun qorxusuyla yaşayıram. Birdən yox deyər, ondan sonra son ümidim də yoxa çıxar.
- Ay qardaş, burda nə var axı. Bir qız yox deyər, o biri hə deyər. Bilmirəm, sən niyə bu qədər məsələni sentimentallaşdırırsan.
- Hər kəs yox desin, bir o hə deyən olsun, o da o olsun.
- Yox, qardaş, sən əməlli başlı Məcnun olmusan. Bu nədir? Mən səni güclü oğlan, möhkəm xarakterə, iradəyə sahib olduğunu düşünürdüm. Bir gün səndən bunları eşidəcəyimi ağlına belə gətirməzdim. Başqa biri olsaydı, gülərdim ona.
- Onsuz da özüm öz vəziyyətimə hər gün gülürəm, ancaq özümlə bacarmıram. Deyəsən, əməlli-başlı özümü zibilə saldım. Mən ki, belə istəməmişdim tanrıdan.

- Tanrı da səndən belə istəməmişdi. Yaşar, unutma, sən ailənin dirəyisən. Evə sən baxırsan, valideynlərin səndən umur, bacıların gözünü sənə dikib, dostların sənə söykənib. Sən aşsan, hamı aşacaq. Tez özünü toparla, həyatına davam et. Qismətində varsa olacaq, yoxsa sən istəsən nə olar, istəməsən nə olar.
- Yox, Mahir. Qisməti insan özü yaradır məncə. Hər kəs öz istədiyi qismətə sahib çıxır, yetər ki, istəsin. Mən də öz qismətimə sahib çıxacam. Nə yolla olur-olsun, mən o qızın könlünü alacam. Mən bu döyüşü qazanacam.
- Hər döyüşü qazana bilərsən, ancaq baxır nəyi itirərək. Hər zaman qazandığın itirdiyinə dəymir. Döyüşü qazanacam deyə, müharibəni itirmiş nə qədər döyüşçülər olub.
- Yaxşı, Mahir. Xahiş edirəm, məni bir az tək burax, yalnız qalmaq istəyirəm, öz fəlsəfəni sonraya saxla.
- Özün bil. Dost acı söylər. Kor məqsədə gedən görən adamın da sonu uçurulmuşdur. Allah yardımçın olsun.

Mahir Yaşarı tək buraxıb, öz dükanına tərəf yol aldı.

**...**

Həmin gün Yaşar işdə çox dura bilməyib hamıdan tez dükanını bağlayaraq evə yollandı. Onun məqsədi həyətdə universitetdən qayıdan Dilarənin qarşısına çıxaraq, onunla bir daha danışmaq və məsələyə bir dəfəlik aydınlıq gətirmək idi. Bakı bu gün çox küləkli idi. Artıq payız fəsli özünün ən dolğun anına qədəm qoymuş havalar tamamilə istidən qoparaq soyuqlara doğru istiqamət götürmüşdü. Havaya tutqun demək olardısa, arada bir səmada görünən günəş buna qəti əminlik yaratmırdı. Küləksə hey əsməkdə uca, uca binaların arasından keçərək küçələrdən, həyətlərdən olan zibillərin məkanlarını dəyişməklə, sanki xüsusi bir iş tapşırılmış ədasıyla ağacların budaqlarından qalan tək-tük yarpaqları da bir zaman yuxarıdan baxdıqları yerin nəsibi edirdi. Hətta bəzi budaqlar da bu tapşırığın qurbanı olaraq yerə düşürdülər. Küçələrdə az-az adam görsənirdi. Hər hansı bir məcburi işi olmayan şəxs çöldə qalmağı, bu havada yəqin ki, özünə rəva bilməzdi. Çünki Bakının küləklə gələn soyuğunun qarşısında dura bilmək böyük cəsarət tələb edirdi. Ancaq həmişə olduğu kimi bu cəsarətə sahib olan insanlar heç də az deyildi. Onlardan biri də Yaşar idi, artıq iki saata yaxın bir müddətdir ki, binaların arasında bir yerə söykənərək Dilarənin yolunu gözləyirdi. Dilarə də elə bil Bakı küləyi ilə razılaşmış kimi gəlib çıxmırdı ki, sanki külək öz soyuğunu bu biçarəyə daha da göstərsin.

Yaşar öz-özünə danışırmış kimi bir yerdə dayanmayaraq hərəkət edirdi. Birdən bu an Dilarənin maşından düşərək evə doğru getdiyini gördü. Dərhal Dilarənin qarşısına çıxaraq xüsusi çıxışa hazırlaşmış kimi dilləndi:

- Salam. Necəsiniz? Bir az vaxtınızı ala bilərəm?

- Axı mən onu satdığa çıxartmamışam.
- Sizdən nəsə almağa onsuz da mənim gücüm çatmaz. Mən sadəcə sizin qarşınıza çıxan dilənçiyəm, mənə bir az vaxtınızı sədəqə verə bilərsiniz?
- Əgər sizin bu sədəqəylə qarnınız doyacaqsa, buyurun. Sizi dinləyirəm.
- Mən qarnım yox, ürəyimi bildirmək istəyirəm. Mənim sizlə keçən səfər etdiyim söhbətə bir cavab almaq istəyirəm.
- Hansı söhbətə?
- Yaxşı, Dilarə. Yəqin ki, bilirsən nəyi nəzərdə tuturam?
- Artıq Dilarə olduq? Bəs xanımlığımız hara getdi?
- Dedim bir həftəlik söhbətini yaddan çıxardan yəqin xanım olduğunu da yadadn çıxardar.
- Qadın xanım olduğunu yaddan çıxara bilər, əsas odur ki, onun qarşısındakı kişi onun xanım olduğumu unutmasın. Özü də sizin kimi kobud kişi.
- Kobudluq etdimsə, bağışlayın.

Yaşar bir anda əlindən nəyisə yerə dağıtmış uşaq görkəmi alaraq özünü itirdi və dərhal dağıtdığını toplamağa çalışırmış kimi səylə çalışmağa başladı.

- Bilirsiniz, bu bir həftəni çox ağır keçirmişəm. Əsəblərim təmiz korlanıb. Xahiş edirəm, sevən bir insanı başa düşün. Fikir verməyin sözlərimə.
- Oldu, fikir vermərəm, nə sizə, nə sözlərinizə.

Dilarə bunu deyib getmək istəyərkən Yaşar özü də bilmədən onun qolundan yapışdı.

- Xahiş edirəm, getməyin, bir qulaq asın.
- Bu nə hərəkətdir? Siz hələ də mənə kobudluq etməyə davam edirsiniz. Bu ixtiyarı sizə kim verib?

Yaşar bir anda nə etdiyini anlamış kimi dərhal əlini çəkərək dedi:

- Çox-çox üzr istəyirəm. Mən nə etdiyimi bilmirəm, başımı itirmişəm. Xahiş edirəm, məni bu vəziyyətdən çıxardın.
- Mən nə edə bilərəm? Həkim deyiləm ki. Sizə ancaq dəlixananın nömrəsini verməklə kömək edə bilərəm. Bəlkə orda sizə yardım edə bilərlər.
- Siz axı niyə mənə belə zülm verirsiniz? Məgər bir sözü demək bu qədər çətindir?
- Qorxuram sizə dəlixanada da yardım edən olmasın. Məgər "bir söz" dediyiniz asan məsələdir? Bəzən bir sözü deməyə insana illər lazım olur.
- Axı mən sizdən sadə bir söz – bir cavab istəyirəm, niyə mənə bunu çox görürsünüz?
- Yox, məsələ sizdə deyil, sadəcə mən bu qədər məsuliyyətli bir sözü deməmişdən qabaq hər şeyi fikirləşib, ölçüb-biçib sonra danışmaq istəyirəm. Axı bu elə-belə adi söz deyil.

- Yaxşı, mən nə qədər istəsəz sizə vaxt verərəm, mənə sadəcə nə qədər gözləyəcəyimi deyin.
- Bilmirəm, mən sizə heç bir söz verə bilmərəm, ancaq istəsəz mən sizi birisi gün bir məclisə (müasir dildə partiyə) dəvət edə bilərəm. Bir yaxın rəfiqəmin doğum günüdür, istəsən sən də bizlə gələ bilərsən, bəlkə orda bir birimizi tanımaq imkanı oldu. Axı biz hələ bir-birimizi yaxşı tanımırıq (Əslində Yaşar Dilarəyə elə də pis təsir bağışlamırdı, hardasa bəyənir də. Ən azından "yaraşıqlıdır" dedirdirdi).
- Mən sizinlə hara desəniz getməyə razıyam. Sadəcə məni başa düşün...
- Yaxşı, bu söhbəti bağlayaq. İnşallah əsəbləriniz sakitləşəndə ətraflı söhbət edərik.

Bu, şirin dillə deyilmiş sakitləşdirici təsiri verən sözlər Yaşarın tamamilə əhvalını dəyişdi və sanki hansısa sevimli oyuncağı əlinə verilən bir uşaq sevinciylə dilləndi:

- Oldu, Dilarə.. eh... Dilarə xanım.
- Yaxşı, bu xanım söhbətini yığışdıraq, partidə də belə desəniz hamı bizi müdir-işçi hesab edər.
- Yox, narahat olmayın. Siz necə desəniz, mən elə də özümü apararam.
- Yox, bu olmadı. Sən hər mən deyəni eləsən, bəs onda mən səni yox, özümü görəcəyəm. Axı mən səni görüb tanımaq istəyirəm.
- Yaxşı, başa düşdüm. Dediyiniz kimi olacam.
- Bax, yenə də eyni hərəkət, necə yəni dediyiniz kimi? Sən mənim şagirdim-filan deyilsən, mən də sənin müəllimən.
- Hər kəsdən nəsə öyrənmək ayıb deyil, məncə, bəlkə mən də sizdən nəsə öyrəndim.
- Yaxşı, bu gün dəli olmaq istəsəm, sizdən yaxşı müəllim tapa bilmərəm.

Bu cümlələri deyərkən Dilarənin üzündə təbəssüm yarandı, gözləri işıldayırdı. Kənardan onun da Yaşara qarşı nəsə hiss etdiyini anlamaq olardı. Yoxsa hansı qız tanımadığı bir oğlanla soyuqda bu qədər söhbət edərdi. Özü də Dilarə kimi özündən razı qız.

- Sizə yaraşmır. Adam da dəlinin üzünə onun dəliliyini vurar?
- Qəribədir, heç kəsin üzünə ağıllığını vursan şikayət etməz, hələ üzünü bir az da önə tutar ki, daha da vurasan, ancaq dəlilikdən söhbət düşdü, hamı sanki ondan söhbət getmirmiş kimi üzünü yana çevirər.
- Sizin üzünüzə gözəlliyinizi vursalar görən nə edirsiz?
- Mən buna öyrəşmişəm.
- Deyəsən məndən başqa da dəlilər çoxdur.
- Əlbəttə. Dünyada bizim dəli hesab etdiyimiz nə çox adam, özlərinin bunun bildiyini bilən nə az adam var.
- Mən dünyada yox, sizin ətrafınızdan danışıram.

- Hər kəsin ətrafı onun dünyasıdır.

Dilarə bu sözlərdən sonra sanki mübahisədən qaçmaq istəyən insan kimi gözlərini irəliyə doğru yönəldərək irəliləlbegin istədi.

- Yaxşı, deyəsən yenə xətrinizə dəydim.

Yaşar xəndəkdən çıxmağa çalışanlar tək çabalamağa başladı.

- Yaxşı, mən yubanıram. İnşallah görüşərik. Birisi gün. Yaddan çıxarmayın ha.

- Nə danışırsan, nə yaddan çıxarmaq, harda görüşürük, bəlkə mənə bir əlaqə vasitəsi verəsiniz.

- Narahat olmayın, mən sizə xəbər verəcəm.

- Necə?

- Necə olar, evinizə xəbər göndərərəm.

- Bəlkə evdə yadlarından çıxdı. Olmaz mənə deyəsiniz?

- Niyə olmaz, özünüzə xəbər göndərərəm.

- Kimlə?

- Nə bilim, axır taparam da birini, köməkçilərdən biriylə göndərərəm.

- Olmaz özümə deyəsiz?

Yaşar özü də bilmədən artıq şıltaq-şıltaq uşaqlar tək yalvarırdı.

- Siz deyəsən gəlmək istəmirsiniz?

- Yox, yox, nə danışırsan?

- Yaxşı, onda saat 5-də Sahil metrosunun yanında olun, orda görüşüb gedərik hamımız.

- Necə yəni hamımız, məgər tək olmayacağıq?

- Əlbəttə yox, siz bəyəm tək gözləyirdiz məni?

- Nə bilim, elə bildim ikimiz olarıq.

- Nə isə, xudahafiz. İnşallah görüşərik.

- Bağışlayın, bu doğum günüdür də?

- Bəli, necə bəyəm?

- Heç, elə-belə. Dedim görüm nə alım, axı səbəbkarı tanımıram.

- Nə bilim, özünüz bazarda işləyirsiniz də bildiyim qədər, hər halda doğum günü olana nə alacağınızı yaxşı bilərsiz.

- Siz mənim bazarda işlədiyimi hardan bilirsiz? - Yaşarın gözləri az qala həlqəsindən çıxacaq qədər bərəlmişdi, sevincindən bilmirdi nə desin, özünü necə aparsın.

- Bilirəm də. Siz oğlanlar altdan-altdan bizim haqqımızda maraqlananda, biz artıq sizin haqqınızda hər məlumata sahib olmuş oluruq. Yaxşı, sağ olun. Deyəsən, çox çərənlədik, evdə nigaran qalarlar. Bizi də görməmiş tez aralansaq yaxşıdır.

- Onsuz da iki gündən sonra bizi bir yerdə görməyəcəklər ki?

- Sən deyəsən səhv başa düşdün, ora biz bir tanış, dost kimi gedəcəyik.
- İnşallah, bu yoldaşlığın axırı yaxşı qurtarar.
- Yaxşı qurtaran yoldaşlığın axırı dostluqdur.

Bu söz sözlə Dilarənin evə doğru getməsi bir oldu. Yaşar da üzündə sevinc, gözlərində maraq, qəlbində ümid, beynində fikirlə oradan ayrılarkən özü dəhiss etmədən dodağında təkrarlayırdı.

- Dostluq olmasın, sevgi olsun.

...

Yaşar evin qapısını açanda artıq ailənin axşam süfrəsinə oturmaq üçün gördüyü son hazırlıqlar getdiyini gördü. Dərs oxuyan şagirdini ancaq yemək vaxtı narahat etməyə ürək edən ana qəlbi hazır bir layla deyər kimi mətbəxdən səslənirdi:

- Qızım, saxla, gəl çörəyini ye yemək soyumamış, səhərdən oxuyursan.
- Gəldim, ana – otaqdan yorğun sanki bu səsin gəlməsini gözləyən bir səs eşidildi.
- Yaşar, gəldin? Nə əcəb bu gün yubanmamısan – evə daxil olan Yaşarı da qarşılayan ilk söz bu oldu.
- Hə, anaların gözəli, dedim bugün tez gəlib səni təəccübləndirim.
- Bala, məni daha sənin son zamanlar tez gəlməyimi görmək yox, daha çox bu gülər üzün təəccübləndirdi – bir ana atmacasıyla verilən bu cavab Yaşarı bir az güldürdü, keyfi daha da açıldı.
- Narahat olma, ay ana. Deyəsən, bu yaxınlarda tamamilə gəlib sənin yanında oturacam.
- Niyə, ay bala? Olmaya evlənib-edirsən, xəbərimiz yoxdurş Mən elə deyirdim ki, bu havalar eşqə düşmə havalarıdır. Yoxsa mənim oğlum bu qədər xəyallı-fikirli olan deyil
- Yox, nə evlənmək?!

İlk hecanı Yaşarın ağzında qoyan ana dili heç dayanamayacaqmış kimi yenə sözə başladı:

- Hə, lap əla, əsl vaxtıdır, artıq sənin tayların övlad yiyəsidir. Sənin onlardan nəyin əskikdir. Düz demirəm, a kişi? – atanı da söhbətə qatmaq istəyən bir ana fəndgirliyi ilə kişinin də fikrini öyrənmək istədi.
- Nə bilim, ay arvad, özü bilən məsləhətdir, mənim bildiyim çömçəni yemək çəkmək üçün yaradıblar, yoxsa sən onu əlində tutub danışmağın üçün yox. Nə dirijorluq çubuğu kimi onu yellərdirsən, çək bu yeməyi, yeyək də, acından öldük.

Yenə də burda ənənəvi, kişi adəti yeməyini hər söhbətdən əvvəl olduğu məsələsinin ortaya çıxması evin xanımının sevincini qurşağında qoyub, onu dilxor etdi.

- Sən elə yeməkdən başqa bir şey bilmirsən, gözlə də bir az.
- Gözləyirəm də, gətirmirsən, çənən boşalıb yenə.
- Yaxşı, yaxşı, günah səndən söz soruşardadır. Onsuz yeməkdən başqa nə bilirsən?! Qızlar, süfrəyə! Yaşar, mama qurban, sən də əl-üzünü yu, gəl otur. Bu söhbəti sonra ətraflı edərik. Bununla da, Xavər hələ bu söhbətin burda bitmədiyini və özünə lazım olan cavabları almayınca Yaşardan əl çəkməyəcəyini xatırlatdı.

Bütün ailə televizorda xəbərlərin müşayiəti ilə yedikləri bu axşam yeməyindən sonra yavaş-yavaş bir-bir süfrədən qalxdılar. Yaşar süfrədə xüsusi canfəşanlıqla yeməyə girişmişdi. Anasının bişirdiyi noxudlu bozbaş onun ən xoşladığı yeməklərdən idi. Əlinə aldığı çörəyi barmaqlarıyla kiçicik hissələrə bölərək kasasına atır, sonra qaşığı əldə külüngtutar sayağı küftələrin və kartofun üzərinə salaraq onları qisas alarcasına hissələrə parçalayırdı. Xüsusi iştahla yeyilən bu yemək Yaşardan çox onun yeməyinə gözlərinin ucuyla nəzarət edən ananı doydururdu. Çoxdandır Yaşarın iştahsız yemək yeməyi onun gözündən yayınmamışdı, indi onun iştahla yemək yeməyi ananı çox sevindirirdi. Şam yeməyindən sonra Yaşar özünü anasının suallarından yaxasını qurtarmaq üçün sakitcə otağına verdi. Qəlbi sınmış kövrək bir uşaq tək öz yatağına paltarları ilə uzanan Yaşar gözlərini tavana zillədi. Əllərini başının arxasına salaraq dərin xəyallara daldı. Sanki bu daldığı şirin xəyallar onu iştahlandıraraq yeni şirin xəyallara aparırdı. Xəyalında Dilarə ilə bulvarda əl-ələ gedirdilər. Dilarə onun barmaqlarını öz kiçik barmaqları arasına alaraq onun çiyninə çatan başını onunla gülə-gülə danışaraq bulvarda hərəkət edirdilər. Yaşar onu həm güldürməyə çalışır, həm də öz ciddiliyini qorumağa çalışırdı. Yanlarından keçən hər bir oğlana xüsusi diqqətlə baxaraq onların gözlərinin Dilarəyə tərəf baxması kimi kiçik bir cinayət tutacağını və onun cəzasının xüsusi cəsarətlə, həvəslə bütün bildiyi idman hərəkətlərinin tətbiq edərək verəcəyini xəyalında canlandırırdı. Onlar yavaş-yavaş dəmirin qırağına doğru gəlirlər, sahildə oturub bir-birini qucaqlayaraq ulduzlara baxırlar. Dilarə telefonunu çıxardaraq bu anların şəkillərini çəkərək daim bu anların xatirəsiylə yaşamaq istədiyini ona bildirir. O da şəkil bəhanəsiylə Dilarənin incə belini möhkəm tutub özünə sarı çəkir, onun nəfəsini üzünə dəyən xəfif bir külək kimi hiss edir, gah da, sinəsi üstə qoyduğu başını sığallayır, saçlarını qoxlayıb öpürdü. Dilarənin saçını oxşadıqca Dilarə gözlərinin qarasını yuxarıya doğru qaldıraraq ona oğrun baxış ataraq, gülümsəyirdi. Ətrafdan keçən insanlar onlara həsədlə baxır, özlərinə də bu xoşbəxtlikdən pay arzulayırdılar. Sanki bütün insanlar onlara baxmaq üçün bugün bulvara gəlib. Hava onlara görə bugün bu qədər ılıq, mülayimdir, külək onlara görə xəfif, səssizdir, dəniz onlara görə susqun, dalğalıdır, ləpələr onlara görə sahilə can atır, bir az aralıda gitarayla mahnı ifa edən

gənclər onlara görə belə ilhamlı və yaradıcıdır, insanlar onlara görə bugün bir-biriləriylə mehriban və səmimidir. Hər şey, hər kəs – həyat belə onlara görə gözəl və mənalıdır. Ay onlara görə bu gün belə bütöv və aydındır ki, onların yolunu işıqlandırsın və xoşbəxtliklərini ətrafa yaysın, gecə onları qorumaq üçün belə zülmət və qaranlıqdır, həyat onların bir-birlərini sevmələri üçün yaradılmışdır, zaman onların xoşbəxt anlarının əbədiləşdirməsi üçün yaranmışdır, insanlar onların xoşbəxtliklərini bölmək üçün yaradılmışdır. Bunlar hamısı sonsuz xəyal burulğanının özüylə insana gətirdiyi və insanı da özüylə alıb apardığı sonsuzluqlardır. İnsan ki bu xəyalların başlanğıcını edir, qalanı öz-özünə yaranır, Xəyal spirtin qanda yer edib özünü daha çox tələb etməsi kimidir, beyinə düşür və birini xəyal etdikcə daha çoxunu tələb edir. İnsan da bəzən özü də hiss etmədən bu burulğanda irəliləyir və birdən sanki ayılır və öz olduğu yeri görəndə özünə təəccüb edir. Gör xəyallar məni hara gətirib çıxardıb, görən mən nbə qədər vaxtdır ki, belə xəyal edirəm, ilk yaradılmış hansı xəyal gətirib məni bu xəyallara çatdırdı. Axı niyə mən bu qədər xəyal edirəm? Axı niyə xəyalları gerçək elətdirəcək sehrli bir dəyənək yoxdur? Niyə alimlər bunu kəşf etməyə çalışmırlar? Axı hər şey bizim xoşbəxtliyimiz üçün yaradılmalıdır. Bizim də xoşbəxtliyimiz xoşbəxtliyimiz xəyallarımızın gerçək olmasıdır. Xəyalların həqiqətlərdən ayrıldığı bu böyük dərədə incə sərhəd zolağına gəlib çatmaq üçün öz düşüncələriylə özünə verdiyi həzz bir anda əzaba dönür. Axı həqiqətlər acı və qəbulediləndir. Xəyallarsa şirin və istəniləndir. Yaşarın da bir anlıq öz xəyal dünyasından ayrılması və həqiqətləri dərk etməyə çalışdığı anda onun üçün həyatın hələ qarşısında duran ən çətin sınaq olduğunu anladı. Bir anlıq yatağının üstündən qalxaraq Yaşar balaca otaq pəncərəsinin qarşısında duraraq ordan həyətə boylandı. Bir az da otaqda gəzişərək onu qarşıda gözləyən bəzi çətinlikləri xatırladı. Dilarənin dediyi doğum gününə getmək üçün əməlli-başlı hazırlıq görməliydi. Bir anlıq nə geyinəcəyini, bə edəcəyini fikirləşdikcə özünü taylara hazırlaşan subay qızlar kimi təsəvvür etdi. Bir müddət sonra yerinə uzanıb çətinliklə də olsa yuxuya getdi.

**...**

Yaşar bugün bazarda satıcıdan çox, müştəri kimi göründü. Əvvəlcə bahalı bir markalı kostyum dükanına girərək özünə nəsə seçməyə başladı. Ancaq etiketlərinə baxanda qiymətləri görüb üzündə əzginlik və uzuntulu cizgilər peyda oldu. Bunu gizlətməyə çalışdı. Yaşar ürəyində nə qədər hesab aparsa da, onun cibindəki pul bu geyimlərə çatmırdı. Ona görə də, ordan çıxıb daha münasib dəst axtarmağa başladı. Onun iş yoldaşları olan bazar işçiləri ona əlindən gəldikləri qədər kömək olmağa çalışırdılar. Təbii ki, bu köməklik pula ehtiyacı olan insana, puldan başqa hər cür məsləhət verməyə qadir olan söz köməklikləri idi ki, onlar da indiki halda Yaşarın işinə yaramırdı. Lakin Yaşar nə qədər başqa mağazalar gəzdisə, gözü birinci

mağazada gördüyü dəstdə qalmışdı. Yaşarın bəyəndiyi kostyumun qiyməti 500 manat idi. Bunu mağazanın üstündə yazılmış “30% endirim” elanından sonra hesablanmış bir qiymət olduğunu düşündürkdə dəstin əsl qiyməti Yaşarın həqiqətən də bütün ailə geyimi xərclərindən üstündə olan bir qiymət olduğunu anlamaq olurdu. Ancaq  Yaşar bu dəsti almağı artıq ürəyindən gələn hissə əsasən beynin inkarına baxmayaraq qəbul etmişdi. Bu dəstin əlavəsi olaraq digər geyim aksessuarların da – ayaqqabının, kəmərin, köynəyin (yəqin ki, köynək öz dükanında olacaqdı) də alınacağını düşünəndə Yaşarın daha əlavə 100-150 manat pulu gözdən çıxartmağı lazım idi. Yaxşı ki, dostu Mahirin ona qayınatası tərəfindən hədiyyə olunmuş bahalı, gözəl saatı vardı. Bütün oğlanlara məxsus hər hansı bir ziyarətə gedəndə dostdan saat almaq hərəkətinin məqbul olduğunu fikirləşən Yaşar bu saatı asanlıqla əlinə taxa biləcəyini fikirləşmişdi. Yaşar xeyli fikirləşdi. Buna fikirləşmək də demək olmazdı. Çünki biz bəzi qərarları verməmişdən qabaq çox fikirləşdiyimiz sanırıq. Ancaq bu fikirləşmək deyil. Sadəcə bir labüdlü beyin-ürək arasında gedən mübarizədir. Çünki olay ilk baş verdiyi anda biz ürəyimizdə onun haqqında qərar veririk. Xəyalımızda olacaqları canlandırırıq, sonra beynimizin məntiq burulğanları hərəkətə keçir. Onun vəziyyətə uyğun biz göstərdiyi bütün çıxış yolları, ürəyimizin istədiyi altında toza qərq olur. Biz çox çalışırıq, bu tozu təmizləyən beynin sağlam məntiqinə uyğun qərar verək, ancaq insanın ən güclü həssas, işlək orqanı olan ürək həmişə öz istəklərini qəbul elətdirməkdə israrlıdır. Ona görə də az hallarda beyin ürəyə qalib gələ bilir. Bu mübarizəni isə insan həmişə “fikirləşmək”adlandırmışdır. Yaşar da fikirləşirmiş kimi bir vəziyyət olaraq xeyli düşündü. İki yol var idi. Birinci xəyallarındakı canlandırdığı kimi bu dəsti olaraq geyinmək və şux, yaraşıqlı, eleqant, cəlbedici görünmək, bununla qatıldığı tədbirdə insanların xüsusən Dilarənin diqqətini çəkmək, özünə əminliyini artırmaq, bununla da cibində olan bütün pulları xərcləmək (hətta borca da düşmək). İkinci yol, münasib qiymətə bir dəst alıb öz cibinə uyğun geyinmək, bununla da borca düşməmək. Hələ onun bir doğum günü hədiyyəsi almağını da düşündükdə Yaşarın əməlli-başlı borca düşəcəyi məlum olurdu. Ancaq Yaşar bu mübarizədə son hökmü ürəyin xeyrinə verərək, o bahalı dəsti aldı. Buna görə də öz cibində olanlardan əlavə dükanda mal almaq üçün ayırdığı məbləğdən də keçdi. Digər aksessuarları – ayaqqabı, kəməri və s. aldıqdan sonra, Rəşaddan saatı alaraq tam hazır oldu. Hər şey hazır olduqdan sonra Yaşar bir yoxlama səhnəsi edərək geyindi və güzgünün qabağında dayandı. Özünə xeyli diqqətlə baxdı. Onu görən onun sanki tanımadığı bir adama baxdığını düşünərdi. Diqqətlə, maraqla, bir az sevgi ilə, bir az da ürkəkliklə. Hətta özünü tam yoxlamaq üçün güzgünün qabağında bir neçə duruş almaqdan da özünü saxlaya bilmədi. Yekun qərarı əla görünməyi oldu. Bu sevincli qərardan işıldayan gözlər güzgü qarşısındakı şəxsə bir az da dik, özündənrazı duruş verdi. Yaşar həqiqətən də çox yaraşıqlı görünürdü. Özünə xeyli diqqətlə baxdıqdan sonra həqiqətən də dəstin ona çox yaraşdığını gördü və gülümsündü. Əyin-başında

xırda qüsur da tapmayan Yaşar indi yaxşı bir hədiyyə almalı idi. Yaxınlıqda olan bir hədiyyə mağazasına daxil oldu və orada olan eyni vəziyyətlə rastlaşdı, burada hər qiymətə, hər zövqə uyğun hədiyyələr var idi. Yenə də əsas məsələ qiymət məsələsi idi. Çünki Dilarənin yanında pis vəziyyətə düşməmək üçün çağrıldığı bu tədbirdə səbəbkara çox yaxşı, qiymətli hədiyyə verməli idi. Mağazada 300 manatlıq otaq saatı Yaşarın diqqətini çəkdi. Yaşar saatı çox bəyəndi, əlini cibinə saldı, cibində 100 manat qalmışdı. Yaşar tez mağazadan çıxaraq, birbaş Mahirin yanına gəldi, ondan əl borcu alıb pulun üstünü düzəldib (Yaşar ilk dəfə idi ki, belə bir addım atırdı) geriyə qayıtdı, həmin saatı aldı vəonu hədiyyə paketinə bükdürüb, arzusunu tam yerinə yetirdi. Hər şey ürəyi istəyən kimi olmuşdu. Yaşar dükanına getdi, lakin orda da çox otura bilməyib, dükanı tez bağlayıb bazardan çıxdı. Taksiyə oturub, Dilarənin dediyi yerə tərəf yola qoyuldu.

**...**

Dilarənin Yaşara dediyi kimi Sahil metrosuna təyin olunmuş vaxtdan bir az tez gəlib çatdı. Yaşar burda durub gözləməyə başladı. Artıq deyilən vaxtdan yarım saat keçirdi, ancaq heç kim yox idi. Yaşar səbrsizcəsinə hər dəqiqə saata baxır, yerinə dura bilmir, o tərəf-bu tərəfə hərəkət edirdi. Əlini bütün sifətində gəzdirir, nə edəcəyini bilməyərək başqa çıxış yolunun olmamasını anlayıb yenidən saata baxırdı. Ona əlaqə saxlamaq üçün heç bir telefon nömrəsi də verilməmişdi. Bəlkə onunla oynayıblar, zarafat ediblər, ələ salıblar. Heç belə bir tədbir yoxdur, sadəcə onu başından etmək üçün belə addım atıb. Bu anda bu fikirlər Yaşarın beynindən soyuq bir vıyıltı kimi keçdi. Onun bütün bədəni dondu. Doğrudanmı Dilarə onu bu qədər alçaldacaq bir hərəkət edə bilərdi. Yaşar bu suala cavab axtardığı müddətdə beyninə dolan şübhələr ona demək olar ki, sahib çıxmaqda idi. Yaşarın bir anda bütün vücudu, bədəni dəyişildi və bir əsəb sanki bədbinlik, məyusliq hissi onu bürüdü. Belə vəziyyətlərdə daim insan beynində gizlənmiş şeytan gölgəsi altından olan intiqam, qisas duyğuları bizi ələ salmağa çalışır, bizə müxtəlif əmr və təkliflər verər. Yaşar da artıq qisas planları quraraq özünün belə ələ salınmasının heç cür düzgün olmadığını və bunun ona yaraşmadığını düşünərək bunun əvəzinin necə çıxa biləcəyini götür-qoy edirdi. Axı doğrudanmı Dilarə bu qədər çirkin bir addım atmağı Yaşara qarşı rəva görmüşdü. Bütün intiqamlar da, pis hadisələr də, fəlakətlər də olduğu kimi, ümid cücərtiləri də Yaşarın beynində yetişməyə çalışırdı. “Yox, Dilarə belə etməz” – qulağına sanki kimsə pıçıldayırdı, yəqin yolda nəsə olub, gecikiblər. Hə, hə, belə olub yəqin ki, yoxsa Dilarə də məndən xoşlanır, bunu onun gözlərindən anlamaq olar. Mənə qarşı belə hərəkət etməz, yoxsa bunun nəticəsində məni itirəcəyini bilir yəqin ki. “Itirə biləcəyini”. Birdən bu söz Yaşara bir az yekəxanalıq kimi gəldi. Bəyəm o mənə və ya mən ona sahibəm ki, bir-birimizi itirək. Yox, əlbəttə ki, yox. Biz bir-

birimizə aid deyilik, nəinki sahib. Sahib olmaq üçün aşiq olmaq yetmir, gərək aid olasan. “Aid”. Bu ki Yunanıstanda ölüm tanrısının adı idi. Sanki beyin işində olan bütün məlumatları eşib arayaraq Yaşara hər hansı informasiyanı tez çatdırmaqla ona kömək etmək istəyirdi. Aid olmaq – niyə axı bu söz ölüm tanrısının adından götürülüb, görəsən biz ancaq öləndə bir-birimizə aid ola bilərik. “Yox, yox, mən bura imkan verməyəcəyəm” – astaca özü-özünə verdiyi bu suala özü də bir məntiqəuyğun cavab tapa bilmədi. Dərhal gözləri saatın üzərində rəqəmləri axtarmağa başladı. Rəqəmlər onun istədiyi istiqamətə doğru getmirdi. İrəli doğru gedən hər əqrəb onun üçün ümidsizliyinu bir az da möhkəmləndirirdi. Birdən sanki qulağına hardansa “Yaşar” sədası gəldi. Özünü səsə istiqamətləndirincə daha bir dəfə “Yaşar” səsini eşitdi. Bəli, bu Dilarənin səsi idi. O, gəlmişdi. Artıq Yaşar üçün səslənən adı dünyanın ən şirin sözü kimi gəlirdi. Çünki o, aldadılmamışdı. Bəli, aldadılmamışdı. Dilarə “mersedes” markalı bir maşının qabaq qapısından başını çıxardaraq onu səsləyirdi:

- Yaşar, tez ol, gecikirik. Onsuz da yubanmışıq.

Yaşar tez sanki bir işarəyə məhkum tək ona tərəf istiqamət götürdü. O, Mersedes’ə çatanda gördüyü bu maşını bu seriyanın ən son nümayəndələrindən və çox bahalı olduğunu anladı. Əyilib maşına baxdı, sükan arxasında təqribən Yaşar yaşda olan bir oğlan, arxada da Dilarənin rəfiqələrindən ikisi əyləşmişdi. Qızlar Yaşarı görüb, aralarında bir-biriləri ilə nəsə deyib, gülüşdülər. Yaşar Dilarənin bu rəfiqələrini tanıyırdı, ancaq maşını idarə edən şəxsi nə qədər tanımağa çalışsa da, tanımadı. Dilarə bugün çox gözəl görünürdü. Gözlərini ondan ala bilməyən Yaşar ona baxa-baxa maşının arxa qapısını açıb qızların yanına əyləşdi. Qızlardan birini dərhal yanıdı, qız Dilarənin həmişə yanında gördüyü rəfiqəsi idi. Digər qıza da yerinin dar olduğundan, həm mühitin sıxıcı olduğundan ötəri və sıxıcı bir baxışla baxsa da tanıya bilmədi. Qızlar bu yaraşıqlı oğlanlar bir-bir görüşməyə başladı:

- Salam, mən Nigar. Dilarənin rəfiqəsiyəm
- Salam, mən də Firuzə, mən də Dilarənin rəfiqəsiyəm.
- Salam, mən də Yaşaram.

Ancaq Yaşarın əsas fikri maşını sürən oğlanın kim olmasıyla bağlı idi. Yaşar hər bir sevən kişi kimi sevdiyi qadının yanında gördüyü bu yad oğlanı özünə potensial rəqib kimi qəbul etdi. Axı bu kim idi?! Niyə Dilarə onun maşınına oturub, niyə digər qızlar arxada, Dilarə öndə oturub?! Onların bu səmimiyyəti hardan gəlir? Cavab axtaran Ya.arın tədricən qanı qaralır və beyninin dumanlanması əhvalını korlayır, qaşları arasında düyün yaranırdı. Birdən söhbətə başlayan Dilarənin səsi sanki onu bu fikir burulğanından geri qaytardı.

- Yaşar, bağışla, deyəsən səni yaman gözlətdik, hava da soyuqdur, sən də soyuqda kostyumda bir təhər olmusan burda. Deyəsən təklifi qəbul etdiyinə artıq peşman olmusan.

- Yox, nə peşman?! Sadəcə öyrəşməmişəm belə gözləməyə.
- Niyə, heç marşrut, metro gözləməmisən? – birdən sükan arxasından eşidilən bu eqoist səs Yaşarı sanki cərəyan sayağı titrətdi.
- Ay... mən sizi tanış etməyi unutdum. Oqtay, tanış ol, Yaşar – Dilarə onları tez bir-birinə tanış edirmiş kimi sanki hər hansı bir münaqişənin qarşısını almağa çalışan sülh mələyi kimi özünü ortaya atdı.
- Marşrutları qaçıranda, digəri 3-4 dəqiqəyə gəlir, ancaq bəzi şeylər var ki, onları qaçıranda da dönüşü olmur. Məsələn, ağızdan qaçırılan sözlər.
- Başa düşdüm, deyəsən sözümünz xətrinizə dəydi. Bağışlayın, heç vaxt marşruta minmədiyim üçün onların belə tez gəldiklərini bilmirəm.
- Heç vaxt minməyəcəyimiz, heç vaxt minməyəcəyimiz anlamına gəlməz. Ola bilər siz də nə vaxtsa atanızın bu maşınından düşüb marşruta minə bilərsiz.
- Atamın maşını olduğunu hardan çıxartdın? - təəccüblə Oqtay başını geriyə döndərib soruşdu.
- Heç, sadəcə yuxarıda asılan iri gözlüklü eynəkdən, yəqin ki, o, sizin deyil, yaşlı adam eynəyidir, adətən maşın sahibləri öz eynəklərini ora qoyurlar. Sizin maşınınız olsaydı, yəqin bir az qara nazik cavan eynəyi taxardınız. Bu su qoyulan yerdə qoyulan təzyiq dərmanı da yəqin sizin deyil...
- Maşallah, yaman diqqətcilsiniz görürəm, ancaq nə fərqi var, atamın ya mənim.
- Çox fərqi var. Yəqin ki, bunu atanız zəhmət, əziyyət çəkib, qazanıb alıb, siz yox.
- Ax... bu yenə də tipik göz götürməzlik sözləri, papa balası. Mən başa düşmürəm, ata dünyaya uşaq gətirirsə, zəhmət çəkib onun qayğısına qalmalı, onu təmin etməlidir. İndi kimin atası edə bilmirsə, bu onun acizliyidir, daha bunun günahı bizə söz atmaq deyil. Gedin öz atanıza söz atın ki, onun niyə sizə maşın verməyə imkanı yoxdu?
- Atalıq maddi borcları ödəmək üçün deyil, mənəvi borcları ödəmək üçündür. Yəqin sizin sizin atalarımızda mənəvi cəhətdən siz ödəmədiyi borcları siz də onlardan tələb etməlisiniz.

Bu söz mübahisəsinin getdikcə bəsit mübahisələrə və xoşagəlməz hadisələrə aparan ilk cığır olduğunu görən Dilarə dərhal söhbətə qarışdı:

- Uşaqlar, bəsdirin bir-birinizlə fəlsəfə xırdaladınız qoca kişilər tək, vallah bir dənə nərdiniz çatmır. Oqtay, sən də bir az tez ol, onsuz da gecikmişik, çənən qızışıb. Yaşar, bağışla, sadəcə bilirsən də, biz xanımların bir az bəzənib evdən çıxmağı bir az vaxt alan iş olduğundan gecikdik. Səidə də səhərdən zəng vurur ki, bəs hardasız. Hamı gəlib, siz yoxsuz.
- Hə, Yaşar. Bir qadının bəzənib evdən çıxmağına heç bir kişinin səbri çatmır, ancaq mən yazıq üç bu gözəl xanımın evdən bəzənib çıxmağını düz iki saat

gözləmişəm – Oqtayın gülərək dediyi bu söz ortaya bir az xoş aura gətirdi. Hər kəs gülümsündü.

- Onda sənin üçün marşrut gözləmək problem olmayacaq – Yaşar daha bir söz atmaqdan özünü saxlaya bilmədi.

- Hə, xoş arzuların üçün çox sağ ol - Oqtayın dediyi bu son sözdən sonra söhbətə yekun vuruldu. Artıq işıqforu keçən maşın böyük bir restoranın həyətinə dönməkdə idi. Əlində çubuq yaşlı bir kişi sanki dirijor sayağı əllərini yellətməklə avtomobili harda, nə formada saxlanacağını bildirdi. Oqtay avtomobili uyğun bir vəziyyətdə saxladıqdan sonra maşından düşdülər. Üst-başlarını kiçin bir yoxlanış baxışından sonra (bu qadınlarda adətən uzun çəkir) hamı yavaş-yavaş restoranın böyük qapısına yaxınlaşıb ordan içəri daxil oldular. Əlbəttə, bu sürəc ərzində Yaşarın gözü Dilarədə idi. Dilarə özünə çox yanaşan uzun gözəl bir don geyinmişdi. Çox gözəl görünürdü. Daha bir zala açılan qapını açdıqdan sonra öndə xanımlar, ardınca da Yaşar və Oqtay içəri daxil oldular.

**...**

Son illərdə Bakının sürətli inkişafı özünü ən çox tikintilərində göstərirdi. Demək olar ki, hər yerd aparılan bu tikintilər, ucadılan göydələnlər, yeni yaşayış, ticarət, idman, əyləncə kompleksləri Bakının görkəmli, tamamilə dəyişmiş, onu əsl avropasayağı bir görkəmə salmışdı. Ancaq tikilən bu avropasayağı tikintilər içində bəlkə də hardasa şərqsayağı təmtərağı xatırladan restoran və şadlıq evləri yəqin ki, başqa bir şəhərdə bu qədər bəzəməkdə deyildi. Xalqımızın tarixindən gələn qonaqpərvərlik, yeməklərə olan maraq və toyların yüksək şadlıqla, çal-çağırla keçirilməsi yəqin ki, belə böyük və gözəl şadlıq evi və restoranların tikilməsinə səbəb olurdu.

Müasir Bakının sanki yeni qalaları halına çatmış bu şadlıq evlər və restoranlar demək olar ki, hər yerdə bir-birilə bəhsə girirmiş kimi tikilməkdə davam edirdi. Artıq insanlar bir çox yerlərə bunların adına uyğun bir-birlərinə tanıdırdılar. Məsələn, filan şadlıq evinin yanı, gilan restorana tərəf və s. Restoranların sonuna “palace” sözünü artırmaqla yəqin ki, Avropada olan hər hansı bir şeyi özlərinə ancaq gətirməyə çalışdılar. Sadəcə yüksək israfçılıqla Avropada tanınmadığımıza səbəb olacağını restoranda yəqin ki, Bakının sayılıb-seçilən restoranlarından idi. Restoranın qarşısında dayanan avtomobillərdən başa düşmək olardı ki, buraya gəlmək ancaq müəyyən təbəqənin cürət edəcəyi hərəkət idi. Restoranın sanki iri qala qapılarını xatırladan iri qapılarından içəri daxil olan insan sanki gözəlliyin ecazkar dünyasına qədəm qoyurdu. Restoranın bayırdan işıqlarla bəzədilmiş füsunkar təmtəraqlı görünüşü içəridə sanki daha ekzotik bir aləmi çöldən ayırırdı. Restoranın içində səliqəylə həm dairəvi, həm də dördkünc maşınlar yerləşdirilmişdi, xüsusi formada

dizaynerin son nailiyyətlərinin nümayiş etdirdiyi divarlar, tavan və döşəmə sanki insanı sirli bir aləmə salırdı. Asılmış böyük çıraqlarda gözəlliyi daha da artırırdı.

Bütün bu süni gözəlliklərin içində təbii gözəlliyə malik balıqların saxlandığı akvariumlar insanlara baxdıqca zövq verirdi. Yolun baş hissəsində musiqiçələr üçün nəzərdə tutulmuş xüsusi yerdə yüksək sənətkarlıqla hər cür avadanlıqla təmin olunmuşdu. Adətən, belə ümumi zallarda qabaqcadan stollar "rezerv" olunur. Hər hansı masanın saxlatmış qonaqlar həmin masa ətrafında əyləşir və qabaqcadan sifariş olunmuş təamlar və yeməklər süfrəyə gətirilir. Kimi doğum günü, kimi hər hansı bir özəl gününü burada qeyd edir.

Təbii ki, hər kəs kütlələrin olduğu belə yerlərdə özlərini bir-birnə göstərməklə sanki bir rəqabət içinə girirdilər. Bu güc müharibəsi deyil, güclülərin cəmiyyət müharibəsi idi. Burada istirahət edən insanların əksəriyyəti bir-birilərinin qiyabi və əyani şəkildə tanıyırdılar. Buna görə də burda da hər yerdə olduğu kimi dostlar və düşmənlər var idi. Burdakı mühit də süfrədəki nemətlər kimi isti və soyuq idi. Yaşargil içəri girən kimi onları tez gülərüz bir qız qaşılayaraq giley dolu gözlərlə onlara, xüsusən də Yaşarı bur xeyli süzdü.

- Hardasız, hamı gəlib, sizdən başqa

- Bağışla, bacışka (müasir dilimizdə daxil olan sözlər, artıq hər hansı sözlərin axırına müxtəlif uşaqsayağı yamsılamaları xatırlatmaqla atılan şəkilçilər idi) Vallah Yaşara görə bir az yubanmalı olduq.

Yaşar bir anda təəccübdən tutuldu. Anlamağa çalışırdı ki, Dilarə nə demək istəyir. Dilarə dərhal ona bir göz vuraraq bir anda bu yalanına şərik çıxmağa məcbur etdi.

- Yaşar, tanış ol, səbəbkar Səidə. Səidə, bu da Yaşar, haqqında sənə danışmışdım. Bilirsən, işində problemləri çıxdığı üçün gec çıxası olub, biz də onu gözləməli olduq. Ona görə də bir az gecikdik.

Yaşar Dilarənin bu sürətli yalan qurmaq və danışmaq bacarığına bir az təəccübləndi. Məcburən Dilarəyə görə daha bir fədakarlıqdan bunu edərək, heç vaxt etmədiyi bir hərəkəti edərək, yalan danışaraq onun yalanına ortaq oldu.

- Səidə xanım, bağışlayın... üzr istəyirəm... Mənə görə bir az yubanları olduq. Yəqin ki, üzrümü qəbul edərsiniz.

- Hə, daha sizin kimi yaraşıqlı bir oğlanın üzrünü geri qaytarmayacağam ki. Eybi yox, canınız sağ olsun. Dilarə bir az sizdən mənə bəhs etmişdi, amma açığı belə bir yaraşıqlı oğlan olacağınızı gözləməzdi – bu sözləri deyərkən Səidənin gözləri parıldayırdı sanki. Səidə çox gözəgəlimli, hündürboy, bir az kök sayılmayan, ancaq çəkili deyiləcək qədər də görünüşə sahib idi. Boynunu hündürlüyünə uyğun olan çəkisi ona bir uşaq şirinliyi verirdi. İri yanaqları arasında itib gizlənmiş balaca, qara gözləri sevinmiş bur uşaq tək işıqdayırdı. İlk görünüşdən bu qız adama çox səmimi, pozitiv bir insan görünüşü aşılayırdı. Bu xoş qarşılanmadan sonra Səidənin müşayiəti

ilə hər kəs masaya yaxınlaşaraq onlar üçün nəzərdə tutulmuş yerlərdə əyləşdi. Masanın ətrafındakılar demək olar ki, hamısı gənclərdən ibarət idi. Səidənin valideynlərininin və qohumlarının burada olmaması və onların bu masanı yalnız Səidənin dostları üçün təşkil etməsi Yaşara məlum oldu. Yaşara bu bir az qəribə ad günü qeyd olunması kimi gəlsə də,  bu müasir dövrdə başadüşülən bu tədbir idi. Çünki dövrün bəlalarından biri də insanların yaşadıqları həyatlarından başqa, bir də başqalarına göstərməyə çalışdıqları bir həyat vardı. Birinci həyatdan fərqli olaraq, ikinci həyatda insanlar xoşbəxt olmaq üçün yox xoşbəxt görünməkdən ötrü daha çox çalışırdılar. Buna görə də, gənclər öz doğum günlərini öz ailələriylə bir yerdə keçirməkdən daha çox özlərinin ətrafında olan tanışlarla keçirməyə çalışırdılar. Masalarda əyləşələr sanki bir-birini üzünə baxmaqdan çəkinir, ürəklərində hər hansı bir təama əl uzatmaq hissi baş qaldırsa da, sanki bir müddət bunu boğmağa çalışaraq gizlədirdilər. Aralarında danışılan mövzular da fərqli idi. Danışıqlar yalnız tək-tək bir-birini tanıyan insanlar arasında gedir və cavabı qabaqcadan məlum olan suallardan ibarət olur. Əlbəttə, Yaşarın vəziyyəti daha sıxıcı idi, çünki, burda demək olar ki, tanışı yox idi. Bir xalq mahnısında deyildiyi kimi, “ birinizin xatirinə hamınıza qurban mən olum” devizi yəqin ki, bu məqamda Yaşarın vəziyyətinə uyğun gələn ən düzgün sözlər idi. Çünki, Yaşar bu məclisə yalnız Dilarəyə görə gəlmiş və özünə aid olmayan bir yerdə alışmadığı bir mühitlə rastlaşmışdı. Bu mühitdə ona aid olan yeganə şey  (o, belə düşünürdü) Dilarə idi. Yaşar da hər bir insan övladı öz beynində xəyallar quraraq bu mühitin içində gələcəkdə özüylə Dilarəni bir ailə kimi görmək istəyirdi.

Masa ətrafında söhbət get-gedə qızışırdı. Artıq hamı, ilk həyəcanlarını boğmuş, yavaş-yavaş yeməyə, danışmağa başlamışdı. Əlbəttə, bunda yəqin ki, içkinin də təsiri var idi. Elə bil, musiqiçilər də mədəni vəziyyətinə uyğun olaraq sakit musiqiçilərdən, isti, oynaq musiqilərə doğru alətlərini kökləyirdilər. Belə məqamlarda biz musiqinin ritminə uyğun deyil, musiqi bizim ritmimizə uyğun hərəkət edir. Yavaş-yavaş gənclər masadan qalxıb, rəqs edərək məclisi daha da şən edirdilər. İçkinin təsiri artdıqca oynamaq, gülmək istəyənlərin də fəallığı çoxalırdı.

Yaşar isə demək olar ki, tam açılmamışdı. Bəlkə də, özünün xəyal dünyasından bu real dünyaya dönməyə hələ körpü tapa bilmirdi. Birdən bir səs onu sanki məclisə qaytardı.

- Niyə içmirsən? – Səidənin dilindən çıxan bu sözü eşidəndə Yaşar artıq özünə tərəf uzadılmış bir bokalla sanki üz-üzə dayanmışdı.
- Mən yox, çox sağ olun, istəmirəm. – Yaşar ağ şüşənin içində qatı qırmızı şərabı sanki gözünün ucuyla süzərək bokalı özündən uzaqlaşdırdı.
- Necə yəni istəmirəm? – Səidə israrla yenə bokalı ona tərəf uzatdı
- Yox, sağ olun, mən içə bilmirəm, yaxşı?

- Necə yəni yaxşı? Bu məgər maşın sürməkdir, yaxşısı-pisi olsun. Çəkirsən başına gedir – Səidə gülə-gülə bokalı başına çəkdi. Bu kiçik uşağa göstərilən təcrübə sayağı hərəkətdən sonra Səidənin onsuz da qırmızı olan yanaqları bir az da qızardı.

- Yox, sağ ol, Səidə xanım. Mən demək istəyirəm ki, yaxşı bacarmıram. İçki məni tez tutur. Sözün doğrusu, xoşum da gəlmir içməkdən, özümü pis hiss edirəm.

- Tutur? Bu bəyəm polis zaddı? – daha bir bərkdən qəhqəhə hamının diqqətini, nəzərlərini onlara yönəltdi. Səidə nəzərlərini onlara tuşlandığını görüb masaya tərəf dönərək sanki məhəllə tədbirlərindəki kimi (əsgər yola salmaq, qarşılamaq və s.) masada məsuliyyəti öz üzərinə götürücək məclisi idarə etməyə çalışan tamadalar sayağı pafosla dedi.

- Xahiş edirəm, hamı mənim sağlığına qaldırsın – sonra Yaşara tərəf dönərək bir anda şıltaqcasına, təhdid edən kimi dedi:

- Sən də indi duxun var, qaldırıb içmə mənim sağlığıma.

Yuxarı qalxan badələrin müşayiəti ilə Yaşar sanki məcbur qalaraq badəni yuxarı qaldırıb toqquşdurduqdan sonra bokalı üzrə-üzrə ağzına doğru apardı. İki dodaq arasına qalın ağ şüşə sanki onu bir az üzgütdü və şərabın ilk damcısının islatdığı dodaqlar sanki ilhamlanaraq bir nada geniş açılaraq bütün bokalı açgözlüklə öz qoynuna aldı. Başına çəkdiyi bu ilk bokalı Yaşarın ilk öncə sifətini turşutsa da, sonra yavaş-yavaş üz cizgilərini açaraq ona bir az rahatlıq və arxayınlıq gətirdi. Şərabın ilk badəsi hər kəsə olduğu kimi Yaşara da bir yanğılıq duyğusu verərək yenə içmək istəy yaratdı. Bu da bütün pis vərdişlər kimi, ardınca ikincini tələb edən bir vərdişdir. Yaşar nə qədər istəsə də özünü saxlada bilməyəcəyini və ümuni axına uyduğunu hiss edirdi. Yerə qoyulan boş badələrdən sonra masada əhval-ruhiyyə bir az da artmaqda idi. Yaşar da yavaş-yavaş özü də hiss etmədən içkinin idarəçiliyinə daxil olaraq məclisin axınına qoşulurdu. İnsanların ilk əvvəl bitkilərdən almağa çalışdığı və təbiətdə müxtəlif bitkilərin qarışığından almağa çalışdıqları şərabı (biz burda şərab adı altında ümumi içkiləri nəzərdə tuturuq) insanlarda oynadığı rol təbiətin bitkilər aləmindən aldığını insan da heyvanlar aləmini yerləşdirməklə əks elətdirməsidir. Necə ki, insan şərabın ilk badələrində uçan heyvanlar sayağı özünü yüngül və azad hiss edirsə, ikinci badələrdən etibarən yırtıcı və güclü heyvanların qabiliyyətlərini özünə büruzə verir, parçalamaq, dağıtmaq və s. bunun sonluğunu nikbin sonla bitirə bilməyən insanlarda son badədir. Sürünən heyvanların vərdişlərini ortaya çıxardır. İçki bizim ruhumuzda olan heyvani instinktlərin bizdə nə cür təzahür etdiyini göstərmək üçün formuldur.

Yaşar özü də artıq sərxoşluqla meyxoşluq arasında olduğunu dərk edirdi. Ilk çıxış üçün əlverişsiz məclis olsa da onun tanışlığı artıq içkiylə baş tutmuşdu və təcrübəsiz bir aktyorun böyük səhnədə ilk çıxışı kimi onun da bu tanışlığı uğursuz bir

məqama düşmüşdü. Yaşar sanki burda musiq olduğunu başa düşmüş kimi ayağa duraraq dedi:

- Dilarə, bəlkə rəqs edək?

Dilarə Yaşarı izlədiyindən artıq vəziyyəti başa düşüb və ona içkinin təsir etdiyini görürdü.

- Yox, Yaşar, sağ ol, istəmirəm.
- Yaxşı, naz eləmə.
- Yox, nə naz? – Dilarə onun bu cəsarətli sözlərini sanki ilk dəfə eşidirmiş kimi anlamazlığa vurdu.
- Yaxşı, Dilarə, bəs bura şənlənməyə gəlməmişik? Sənə görə bu məclisə gəlmişəm, sən mənə görə bir rəqs etməyəcəksən? – Artıq içkinin ən pis nöqtələrindən olan “minnət” halı başlamışdı ki, bu halda insan bütün elədiklərini ətrafına minnət şəklində çatdırır.
- Yaşar, yox dedim. Niyə təkrar edirsən, sən istəyirsən get oyna, hökmən mənlə rəqs etməlisən? – Onların arasındakı bu dialoq artıq ətrafdakıların diqqətini də çəkmiş və dodaqaltı pıçıltıların yaranmasına səbəb olmuşdu.
- Yox, mən sənlə rəqs etmək istəyirəm. Artıq bir az sərt deyilən bu sözləri əmr formasında deyilən sözlər kimi də başa düşmək olardı.
- Başa düşmədim, Yaşar. Sən niyə özünü belə aparırsan? Bəlkə mənə əmr etmək istəyirsən?

Elə bu anda hər yerdə olduğu kimi burada da olan bir sülh mələyi özünü ortaya salaraq söhbəti şirin məcraya yönəltməyə çalışdı.

- Yaşar, sən mənlə rəqs etmirsən? – Səidə qəfildən Yaşarın qolundan tutaraq rəqs meydanına doğru çəkməyə başladı.
- Başa düşmürəm, Yaşar. Hər kəs səbəbkarla oynayır, səndən başqa. Olmaya mənim çəkim səndə belə bir fikir yaradır ki, mən oynaya bilmərəm?
- Yox, Səidə, o nə deməkdir? – Yaşar qeyri-ixtiyari olaraq Səidəylə rəqs meydanına doğru getdi və Səidəylə rəqs etdi.

Birdən başlayan ritmin bir melodiya sanki onu bir az da cuşa gətirdi və bütün əsəbini rəqslə çıxmağa çalışan Yaşarın bir gözü Dilarədə idi. Əlbəttə, Yaşar əvvəllər demək olar ki, heç rəqs etməmişdi və yalnız rəqs edənlərə əl çalmaqla onları müşayiət etmişdi. İndi içkinin təsiriylə və üstəgəl əsəbləri də işin içinə daxil olanda qəribə bir mənzərə yarandı. Təcrübəsiz, içkili rəqqası ətrafda ancaq gülüş yarada bilərdi. Sanki şou izləyər kimi məclisdəkilər Yaşarın rəqsini gülərək izləyirdilər. Kimi gülür, kimi əsəbləşmiş kimi dilinin altnda nəsə deyir (yəqin ki, bu heç də eşidiləsi sözlər deyildi), kimi də ənənəvi olaraq öz felefonunu tuşlayaraq özünü peşəkar operator vəzifəsini üstələmiş fədai kimi hiss edərək çəkiliş aparırdı. Yaşar bunları görür, ancaq bunlara cavab verəcək istəyi özündə görmürdü. Səidə sanki Yaşarı xilas edirmiş kimi yavaş-yavaş meydandan çıxardıb öz yerinə doğru gətirərək otuzdurdu. Bəlkə də Yaşar öz

şüurunun dərinliklərində  nə elədiyinin fərqinə varır, ancaq bu onun iradəsinə təsir edə bilmir və öz-özündə istəmədən öz rüsvayçı vəziyyətinə süurunu izləyici qoyurdu.

Bizdə şüurun iki forması var deyilənə görə. Üst şüur, alt şüur (elm dilində buna şüuraltı da deyirlər). Gündəlik həyatımızı üst şüurun qərarlarına uyğun həyata keçirsək də, alt şüurun qərarlarımıza təsiri üst şüurdan daha çoxdur. Bəlkə bu onun bizim duyğu üzvlərimizlə həssas bağlılığına görədir. Son zamanlar artıq sosial şəbəkələrdə, televiziyada ən çox danışılan mövzulardan biri olan, "subnimal mesaj"lar və simvollar mövzusunun da bu subnimal məsələsiylə əlaqələndirirlər. Kimiləri buna "Komple teorisi" desə də bu bir psixoloji faktdır ki, bizim qərarlarımız əsasən məntiqlə yox, duyğuyla əksər vaxt verilir. Bəli Yaşarın bütün içki təsirində olan insanlar sayağı bəlkə də özünün dərk edib, ancaq etmək istəmədiyi hərəkətləri edirdi. İçki bəzən insanın içində yatıb qalmış, bəzən üzə çıxmaqdan qorxaraq gizlənmiş, ağlın əsirinə, cəmiyyətin qınağına çevrilməkdən qorxan hərəkətlərin yuvasını dağıdaraq bir anda ortaya çıxarır, bilərək və ya bilməyərək. Buna görə də deyirlər ki, insan iki vəziyyətdə tanımaq olar, içki içəndə və aşiq olanda, çünki insan ancaq bu zaman hissələrini gizlədə, duyğularını ört-basdır edə bilmir.

Hal-hazırda bu hisslərin ikisini də yaşayan Yaşarın vəziyyətlərini təsəvvür etmək hər bir insana yəqin ki, elə də çətin olmazdı. Yaşar masaya duran kimi özünə yenə bir içki süzməyə çalışdı. Çünki, içkili adamın gözünə boş qədəh düşmən kimi görsənir. Yaşar dərhal butulkanı əlinə aldı. Bu zaman Səidə ona yaxınlaşaraq içki butulkasını alıb kənara qoydu:

- Yaşar, bəlkə bəs edər, artıq kifayətdir.
- Niyə? – Yaşar təəccüb dolu, kinayə qarışıq cümləylə dilləndi.

Səidə bir anlıq ona deyə biləcəyini bilmədi. Yaşarın qəlbini də qırmaq istəmirdi. O, bilirdi ki, içkili adama onun içkili olduğunu demək günahsız adama günahkar demək qədər çətindir. Çünki, ikisi də sənin bu sözünü şər atırmış kimi qəbul edərək əksini sübut etmək üçün hücuma keçə bilərlər. Özündən asılı olmayaraq ona qarşı özündə bir yaxınlıq hiss edirdi, onun pis vəziyyətə düşməsini istəmirdi. Vəziyyətdən çıxmaq üçün Səidə dilləndi:

- Çünki, hələ tort var – birdən Səidənin ağlına gələn bu fikir sanki qıfılın son anda ona düşən açarı sayağı onu sevindirdi.
- Nə tort?
- Nər tort olacaq, mənim doöum günü tortum. Nəzərə al ki, şirin tortla bu acı içki sənin mədəndə bir yerdə yola getməyəcək, biri acıq edərək çölə çıxmağa çalışır – bu son gülməli sözdən sonra Səidə daha da ruhlanaraq butulkanı tamamilə Yaşardan uzaqlaşdırdı.
- Maraqlı insansan, əvvəlcə özün məni güclə içməyə məcbur etdin, sonra da qoymursan içim. Sən də siqareti paçkalaşdırıb, üstündə "çəkmək sizi öldürür" yazan insanlar kimisən lap.

- Hə, mən dedim, ancaq sağlığa bir-iki dəfə içək, sonrası sağlıq yox, bağlılıq olur – Səidə cümlələrini diqqətlə seçərək danışmağa çalışırdı ki, Yaşarın qəlbinə dəyməsin və onu qıcıqlandırmasın.

- Hə, sənin kimi xanımın sağlığına bir-iki dəfə içməklə mən öz fikrimi bildirə bilmərəm, bəlkə icazə verəsən bir dəfə də sənin şərəfinə badə qaldırım.

- Yox, Yaşar. Artıq mənim sağlığıma bəs edər, gözəl sözlərin üçün çox sağ ol. İndi tort gələr, onu mənim şərəfimə yeyərsən. Sağlığıma içmisən, şərəfimə də yeyərsən.

- Yox, şərəfə içilir, yeyilməz! Bilirsən niyə? Yeyərkən çeynəyirik. Şərəf çeynəniləcək bir şey deyil.

Əksər içənlər qeyri-şüuri olaraq bir balaca filosoflaşır, ya da özlərini filosof hesab edərək aforizm cümlələr yaratmağa çalışırlar. Bu da Yaşarın yaratmağa çalışdığı aforizm idi ki, deyəsən elə də pis alınmamışdı. Bunu ətrafdakı bəzi insanların məna ilə dolmuş baxışlarından duymaq olardı. Bəzən insanın içindən çıxan mənalı sözlər ətrafdakılar qədər özünü də təəccübləndirir. Bu söhbət artıq əməlli-başlı diqqət çəkmişdi.

- Yaxşı, bəsdir qoca kişilər kimi danışdın. Dedim ki, yox... – Bu cür alınmayacağını və bu səs tonunun vəziyyəti daha da çətinləşdirəcəyini anlayan Səidə səsini dəyişərək sakit, aramla və bir az da yalvarıcı tonla dilləndi – Xahiş edirəm, mənim xətrimə görə.

- Sənin xətrinə? Mən elə sənin xətrinə bayaq içdim. Deməli insanın xətri vəziyyətə uyğun dəyişə bilir. Bayaq mənim xətrimə iç deyirdin, indi də mənim xətrimə içmə deyirsən. Çox qərarsız xətrin var. – Yaşar yenə əlini şərab butulkasına apardı. Ancaq Səidə cəld tərpənərək butulkanı götürdü. Yaşar bir anda nə edəcəyini bilmədi.

- Yaxşı, səndən başqa görürəm heç kəsin mənimlə işi yoxdur. Bax, Dilarə heç maraqlanmır da. Görürsən, o başqalarının xətrinə dəyməyəcək qədər ağıllıdır.

- Sağol, Yaşar. Sən mənə axmaq da dedin. – Bu gün bütün günü xoş sözlər eşidən səbəbkarın bu söz yəqin ki, gün ərzində eşitdiyi kobud söz idi və onun haqlı olaraq incimәsinə səbəb oldu.

Birdən Səidənin qəlbinə dəydiyini anlayan Yaşar bir anda susqunlaşaraq pərt şəkildə yerinə oturdu. Bəzən elə olur ki, sevgilərimizin qəlbinə dəyəndən sonra ayıla bilirik.

Birdən xüsusi pafosla deyilən “Dilarə” sözü sanki Yaşarın hərəkətlərini bayaqdan izləyən Dilarəni onlara baxdırtdı. Dilarə Yaşarın bu hərəkətlərindən sanki utanaraq kənardan sakitcə olanları izləyirdi.

Elə bu an bayaqdan haqqında bəhs edilən tort məclisə təşrif buyurdu. Siniyə qoyulan bu böyük, üstü səbəbkarın şəkli və şamlarla bəzədilmiş bu tort, yəqin ki, hansısa böyük şirniyyat mağazasının hazırladığı möhtəşəm tortu iki ofisiant xüsusi

incəliklə stola gətirdi. Onların bu incə rəftarından başa düşmək olar ki, bu onların tortun bahalı qiymətinə duyduqları hörmət idi. Çünki, bu böyük tort aşmaqla onların bir neçə günlük məvacibin də özüylə götürə bilərdi. Tortun məclisə gəlməyiylə bütün nəzərlər ona yönəldi. Ənənəvi tort kəsmək adətinin səbəbkar tərəfindən yerinə yetirilməsinə diqqət kəsildi. Bu mərasim bəlkə də dünyada olan az-az adət və mərasimlərdən biri idi ki, onu keçirilmə forması hər yerdə demək olar ki, eyni ssenari üzrə həyata keçirilirdi. Şamlar yandırılır, işıqlar söndürülür, səbəbkar ürəyində arzu tutub şamları üfürür, ətrafdan alqışlar, təbriklər. Bu adət burda da təkrarlandı. Səidə şamları üfürdükdən sonra artıq kəndlidən töycü gözləyən mülkədarlar kimi bir-bir ona verilməyə başlayan hədiyyələri qəbul etməyə başladı. Hamı bircə-bircə öz cibinə uyğun olan və səbəbkarın zövqünə uyğunlaşdırmağa çalışdığı müxtəlif hədiyyələrlə Səidəyə yaxınlaşdılar. Hamı öz hədiyyəsini verdikdən sonra, Yaşar başa düşdü ki, o da məclisdəkilər kimi qanunauyğunluğa uyğun olaraq öz hədiyyəsini səbəbkara verməlidir. Ona da elə hər kəs kimi elə gəlirdi ki, onun hədiyyəsi hamıdan yaxşı seçilmişdi.

- Hə, Yaşar, sənin də hədiyyəni gözləyirəm. Olmaya yaddan çıxarmısan? – Səidənin Yaşara bir barmaq sallamağı qaldı ki, bu pafosla deyilmiş sözlər yerinə düşsün.

- İşə bax, belə şey olar? – Yaşar artıq özünün də dilinin söz tutmaq çətinlik çəkdiyini görürdü. Əlləri hədiyyəni axtarmağa çalışsa da, onu harda tapacağını bilmirdi. Yaddaşı köməyinə gəlmirdi. Bəzi insanlar gülümsəməklə onu izləsələr də, birdən bir ofisiant köməyə çatdı. O, əlindəki bağlamanı Yaşara uzatdı.

- Buyurun, sizinkidir. Bayaq bura qoydunuz. - Əlləri qapının girəcəyindəki bir masanın altını göstərirdi.

Hamı kimi Yaşara da bağlamanı ora niyə qoyduğunu ona maraqlı gəlsə də, bu suala cavab tapmağa vaxt olmadığından bunu yəqin ki, həyəcanla bağlı olduğunu izah etdi. Ətrafa isə bu izahatı verməyə vaxt və ehtiyac qalmamışdı.

Ofisianta başla bildirilən təşəkkürdən sonra (onlar hərgah təşəkkürün ancaq ciblə olan formasını qəbul edirlər) Yaşar hədiyyəni əlinə alaraq Səidəyə yaxınlaşdı.

- Buyurun, bu da sizin hədiyyəniz, inşallah bəyənərsiniz. Zamana hökm etmək qüdrətini əlində saxladan yaradan zamana tabe olmağı insana qismət etmişdir. Buna görə də zamanın qədrini bilənlər yaradanına ən yaxşı tabe olanlardır. Sənə də ən yaxşı bəndələrdən olmaq arzusuyla bu saatı hədiyyə almışam. İnşallah, həyatında vaxtın sənə gətirdikləri, səndən apardıqlarından çox olar. Təbriklər!!!

Bu sözlər bir çox insanlar tərəfindən başa düşülməsə də, sözlərin çox gözəl deyilmiş mənalı hesab ediləcək qədər dəyərli olduğunu yəqin ki, bəziləri anlamışdır.

- Çox sağ ol, çox gözəldir, zövqlüdür – Səidənin xüsusi sevinclə dediyi sözlər Yaşarın hədiyyəsinə verdiyi dəyərin yüksək olduğunu göstərdi.

Yaşar yerinə qayıtmaq istərkən yolda gözləri Dilarənin gözlərinə sataşdı. Nə isə demək istədi, ancaq bunu bacarmayacağını başa düşdü. Gözlərini ondan ala bilmədi və təsadüfən ayağı stola ilişdi və Dilarənin üstünə doğru yıxıldı və hər şey korlandı, belə demək olarsa, bu zaman masada olan bəzi qab-qacaq, içkilər bir-birinə dəyərək aşdı. Buna görə də masa neçə yerdən islandı. Yaşar dərhal ayağa qalxdı, Dilarəni qaldırmaq istədi, ancaq Dilarə onun köməyini rədd edib, özü ayağa qalxdı. Yaşar çox pərt olmuşdu, nə edəcəyini, kiməsə nə deyəcəyini bilmirdi. Ancaq fikirləşdiyi üzr istəmək idi. Hər kəsdən, hər şeydən üzr istəmək, insanlardan, masa ətrafında zərər görənlərdən, qonaqlardan, köməyə gələn işçilərdən, Dilarədən, Səidədən, hər kəsdən. Masa ətrafında ən çox zərər görənlərdən biri də Oqtay idi. Buna görə də bu hadisəyə ilk və ən əsəbi reaksiyanı Oqtay verdi.

- Bu nədir? Nə icrənclikdir, içə bilmirsən, içmə də! – Bu söz yəqin ki, bir hadisə törətmiş insanın ən çox eşitdiyi sözlərdən idi.
- Yaxşı, Oqtay. Eybi yox. Hadisədir də, ola bilir. Təki sağlıq olsun – Səidə yenə araya girərək məclisdəkilərin Yaşara qarşı kobudluq etmələrinə və nəsə deməlIərinə mane oldu.
- Nə hadisə, hadisə bilməyərəkdən olur. Sizsə bilərəkdən bu çobanın birini gətirib məclisə otuzdurub axrının belə olacağını bilməliydiniz.
- Yaxşı, Oqtay, özündən çıxma, ayıbdı.
- Nə ayıbdı, üst-başımızən halına bir bax. Niyə belələrini başımıza mindirirsiniz? – Oqtay əliylə üst-başını göstərərək sanki digərlərinə mesaj verdi.
- Düz deyir də, mənim ən sevimli “platyam” pis günə qaldı – qızlardan biri paltrını göstərərək gileyləndi.
- Sən narahat olma, Yaşar müəllim-filosof bir cümlə söyləyib onu başa salar ki, paltar təmiz ol – Oqtay yenidən dilləndi.
- Mən...mən üzr istəyirəm hamınızdan, belə olacağını bilsəydim heç bura gəlməzdim – Yaşar birdən dillənərək bir daha bağışlanmasını gözləyən müttəhimlər sayağı boynunu bükdü.

Yaşarı bu anda yalnız bir şey fikirləşdi – tez qaçıb getsin burdan. Hara, heç özü də bilmirdi. Uzaqlara, lap uzaqlara. Təki burdan çıxsın. Bəs Dilarə... Hə, o bura Dilarənin dəvətiylə gəlmişdi. Yəqin ki, Dilarə bu hadisəyə səbəbkar kimi indi ən çox onun gəlişinə peşman olanlardan idi. Ancaq o isə bura Dilarənin qəlbinə yol tapmağa və onun dünyasına girmək üçün gəlmişdi. Yəqin ki, bütün bu olanlardan sonra Yaşara “onun dünyasına” girişi əbədilik veto qoyulacaqdır. “Ax, Yaşar nə elədin? Sən hara, içmək hara? Heç sənə belə şeylər yaraşır?” – özünü içində danlayan Yaşar yəqin ki ətrafdakıların bu an dodaqaltı tənqidlərini, söyüş qarğışlarını o qədər də diqqətə almırdı. Oqtay bu hadisədən nəsə yaratmağa çalışıb, Yaşarın maşında ona söylədiklərinin əvəzini çıxıb Yaşarı biabır etmək istəyirdi.

- Əlbəttə, gəlməzdin. Axı belə yerlərdə tez-tez olursan axı, kəntoş gədə.

- Sən bəlkə bir az sözlərinə fikir verəsən – Yaşar Oqtaya geri dönərək xəbərdarlıq etdi.
- Nə fikir verəcəm? Gəlib məclisimizi pis günə qoydun, Səidənin tədbirini məhv etdiyin bəs deyil, hələ bir danışırsan da. Sənin kimi artistləri mən çox görmüşəm.
- Nə artist, nə danışırsan? Mən istəyərdim heç belə olsun? Hadisədir də, buna görə dəfələrlə hər kəsdən üzr istəyirəm.
- Hadisəymiş. Nə hadisə. İçə bilmirsən, içmə. Yaxşı ki, dombalaq aşıb başımızı əzməmisən.

Bu son sözü bir az ətrafda gülüş yaratdı və insan hər vəziyyətə düşəndə ona dözə bilir, ancaq ətrafdakıların arasında gülüş mənbəyinə çevrilib lağa qoyulanda buna dözmək çətin olur. Xüsusən də, əgər sevdiyin insanın yanında bu baş verirsə. Ona görə də Yaşar artıq burda qalmağın yersiz olduğunu başa düşüb tez buradan uzaqlaşmaq istədi.

- Səidə, bağışla, mən getsən yaxşıdır. Doğum gününü korladım, qanınızı qaraltdım.
- Yox, Yaşar, eybi yox. Hadisədir də, olub – Səidə Yaşarın getmək istədiyini anlayıb mane olmağa çalışdı.
- Yaxşı, mən gedim – Yaşar bu son sözdən sonra qapıya doğru istiqamət götürdü. Yaşar qapıya az qalmışdı ki, çatsın, arxadan səs gəldi:
- Eşşək oğlu eşşək, məclisimizi zay etdi, indi də aradan çıxır.
- Nə? – Yaşar dərhal geri dönərək bütün varlığına hakim kəsilmiş əsəblə soruşdu. Bir anda sakitlik yarandı. Hətta bunu ağzından qaçırmış Oqtay da heç nə deməmiş kimi duruxdu.
- Nə dedin sən? – Yaşar Oqtayın üzərinə doğru hücum çəkdi.
- Yaxşı, Yaşar. Heç nə demədi. Ağzından qaçırtdı. Səidə aralarında savaş çıxmasın deyə araya girdi, aranı sakitləşdirməyə çalışdı.
- Bu necə şərəfsiz cümlədi. Söhbətin var, mənimlə et, atamı niyə qatırsan? – Yaşar əsəblərinə artıq hakim olmayaraq qışqırdı.
- Qışqırma. Hələ elədiklərin az deyil, bir az da bizi biabır et, çıx cəhənnəm ol burdan – Sanki Oqtay öz evindən kimisə qovarcasına əliylə qapını göstərdi.
- Bəlkə bura sənindir, sən kimsən ki?
- Yox, sənin dədənin tövləsidir. Odur istədiyin kimi heyvanlıq edə bilərsən burda – Oqtay masadan götürdüyü bokalı Yaşara tərəf atdı, ardınca səslənən daha nalayiq bir söz Yaşarın artıq partlamaq üzərində olan əsəbinə sanki bir qığılcım oldu. Bu anda Yaşar Oqtayın üzərinə cumaraq onu qüvvətli əlləriylə bir yumruq vurdu. Bir anda Oqtayın burnundan qan açıldı və belə desək, aləm bir-birinə dəydi. Oqtay Yaşarın ünvanına söyüşlər yağdıraraq əlinə keçəni ona doğru atdı. Dərhal

araya girən insanlar onları bir-birindən ayırmağa çalışdı. Oqtay dayanmaq bilmirdi. Yaşar yenidən onun üzərinə hücum çəkmək istəyirdi. Bu zaman restoranın mühafizəçiləri onu güclə bayıra çıxardıb xəbərdarlıq etdilər. Oqtaya ilk yardım göstərilərək onun qanaxması dayandırıldı. Oqtay hər kəsin yanında Yaşar tərəfindən döyülməsini özünə sığışdıra bilmir, hey Yaşarın ünvanına söyüşlər yağdırırdı. Çoxu bayıra çıxıb Yaşarın nə edəcəyini, nə deyəcəyini gözləyirdilər. Səidə də bayıra çıxıb Yaşarın yanına getdi. Onu sakitləşdirməyə çalışdı. Evə getməyinə razı saldı (əlbəttə Yaşarın nömrəsini də aldı, əhval-ruhiyyəsini soruşmaq bəhanəsiylə). Oqtay da xeyli qışqır-bağır, təhdiddən sonra köməyə gələn dostların müşayiəti ilə evə yola salındı. Səidə də heç belə sonluqla doğum günü tədbiri keçirəcəyini fikirləşməyərək doğum günü  tədbirinə yekun vurdu. Tədbirini belə başa çatacağını istəməsə də, yenə də bütün pis hadisələrdə olduğu kimi "qismət" deməkdən başqa çarə olmadığını anladı. "Qismət". Yəqin bu söz olmasa başınıza gələn hər pis hadisədən sonra özümüzə gəlməyimiz xeyli vaxt olar. Bütün bi hadisələrin gedişində Səidəyə ən maraqlı gələn Dilarənin münasibəti idi. Səidə Yaşarın Dilarəyə necə baxdığını və ona aşiq olduğunu görmüşdü, ona maraqlı gələn Dilarənin ona qarşı hər hansı bu hissinin olub-olmaması idi. Lakin Dilarə bu hadisəyə çox soyuqqanlı reaksiya verirdi. Lap başdan Dilarədə Yaşara qarşı bir laqeydlik, soyuqluq olduğunu hiss etmişdi, elə isə niyə onu bura dəvət etmişdi? Hətta Yaşarın belə vəziyyətə düşməsi Dilarəni bəlkə də, sevindirdiyini fikirləşdi. Buna səbəb Dilarənin özü idi. O, çox dalğın görünsə də, gözlərinin içində heç təəccüblənməmiş və bəlkə də sevinmiş qadın görsənirdi. Bax, bu hamıdan təhlükəlidir – dalğın sifətdə qalib gözlü qadın.

Səidə evə dönənə qədər yolda yalnız Yaşarı, onun danışığını, Oqtayı döyməsini fikirləşirdi və bu onda gün ərzində istəmədən gülüş yaradırdı.

**...**

Yaşar səhər tezdən bazara gələndə onun yolunun ən birinci gözləyən Mahir idi. Çünki Mahir onun yaxın bir dostu kimi Yaşarın daha əvvəl olmadığı və onun aid olmadığı bir məclisdə iştirak etdiyini bildiyindən və belə yerlərin yeni qonaqları o qədər də xoş qarşılamadığını bildiyindən içində bir narahatlıq var idi. Yaşarı yorğun və əzgin görəndə o narahatçılığın əbəs olmadığını anlayaraq onu sual atəşinə tutdu.

- Hə, Yaşar. Necə keçdi? Varlılarla oturmağın yeri var? Türkcə necə deyirlə, "sosyete" ilə.

Mahir bu sözü demək üçün özünü bir balaca əzib büzdü.

- Nə bilim, Mahir. Sən allah, başım ağrıyır, az sual ver – Yaşar utancverici hadisələri yadına salmaq üçün dünən barəsində cəmiyyətlə heç nə nə danışmaq, nə də eşitmək istəyirdi.

- Yo, yo, yaxşısan, yaxşısan. Artıq deyəsən bizi bəyənmirsən, yəqin bundan sonra bizlə salamlaşmarsan da, təzə dostların ilə oturub-durarsan.

Mahir incik şəkildə söz atırmış kimi Yaşarla zarafat edərkən onun kefini açmaq istədi. Bəzən dostlarımız bizim kefsiz anımızda ən şit-şit zarafatlar etməyi də özlərinə borc bilirlər.

- Yox, gör hələ mənimlə kimsə bir daha bir yerə getmək istəyəcək?
- Aha... deyəsən nəsə olub. Sən allah, tez danış görüm nə olub, xəbərlər verilişi kimi başlıqlar verib adamı həyəcanda qoyma.
- Nə bilim, vallah. Danışsam qorxuram sən də daha mənimlə bir yerə getmək istəmərsən.
- Yəni, o dərəcədə böyük bir şey olub?
- Mahir, mən özümü rüsvay etdim, bu barədə danışmaq istəmirəm.
- Yaxşı, Yaşar. Danış görüm, danışmayınca heç yerə getməyəcəm – Mahir onu narahat edən hislər içində hər şeyi öyrənmək istəyirdi.

Yaşar Mahirin əl çəkməyəcəyini görüb hər şeyi ona danışmağa başladı. Danışqma həm də ona bir az rahatlıq gətirdi. Çünki Mahirin fikirlərinə ehtiyacı var idi. Olanlar ona bir yuxu kimi gəlirdi. Kaş ki, hər şey yuxu olaydı. Səidənin doğum gününü məhv etmiş, həm də Dilarənin gözünə girmək istəyərkən daha da uçuruma düşmüşdü. Bəlkə də bundan sonra Dilarə heç onu dindirməyəcək. Sonra Yaşar fikirləşdi ki, düz edir, kim olsa onun yerində elə edər, çünki o təkcə özünü yox, onu ora dəvət edən Dilarəni də rüsvay etmişdi. Mahir olanları diqqətlə dinlədikdən sonra Yaşara təsəlli verdi:

- Eybi yox, içkili olmusan, özü də güclə içirdiblər. Birinci dəfə içəridə belə hadisələrin olması normaldır, bu hamının başına gələ bilər. Yəqin ki, səni başa düşərlər.
- Yaxşı, sən də məni lap qudurdursan. Az qalır deyəsən get yenə et.
- Yox, yox. Elə demirəm. Deyəsən sənin də ağzında dad qalıb. Sadəcə içkili insana həmişə, necə deyərlər, güzəşt olur. Bu, əlbəttə, o güzəşt deyil ki, sən bir dəfə də təkrarlayasan.
- Yox, vallah. İlk və son olsun. Mən o zibildən bir də nə vaxtsa istifadə edim.
- Lap yaxşı. Ancaq oğlanı hədər vurub özünü zibilə salmısan.
- Necə yəni, sənə dedimlərim deyəsən tam çatmadı. Deyirəm, məni söydü, üstünə bokal atdı, Neyləməliydim ki?
- Yox, elə demirəm. Sadəcə başına problem açmısan. Belə insanlar belə şeyləri hələm-hələm həzz etmir.
- Nə deyirsən, gəlib döyəcək məni? Lap yaxşı, gəlsin. Onsuz hirsim tam soyumayıb.
- Yox, döysə yaxşıdır. Canın qurtarar.

- Yox, nə edəcək? Bəlkə killer göndərəcək ardımca?
- Yox sən də... Polisə gedib şikayət edə bilər – Mahirin biraz durduqdan sonra dediyi bu söz onun əsas narahatçılığının səbəbi idi.
- Yox sən də.... Nə polis. Yüngül bir dava idi, oldu qurtardı. Bir az da içkili idik. Bəlkə də bugün artıq olanları yadından çıxarıb.
- Təki elə olsun, ancaq inanmıram. Deyirsən, burnu partlamışdı. Məncə bugün sifətini gördükdə, əksinə, dünənkini daha yaxşı xatırlayacaq.
- Nə deyirsən, indi adi bir davaya görə məni həbs edəcəklər.
- Sən də lap qoymusan özünü anlamazlığa, mən sadəcə problemdən qorxuram. Sən, deyəsən, hələ bölməyə düşməmisən.
- Yox, düşməmişəm. Sən özün bilirsən ki, mən belə şeylərdən, dava-dalaşdan uzağam.
- Hə, ona görə də bilmirsən. Vallah, bölmələrdə indi adam adi bir şilləyə görə də o vəziyyətə salırlar ki, güllələnməyə də razı olursan. Bir daha səni nəyini söysələr, hətta küçədə biri səni arxanı təpikə qonaq eləsə də sən ona şalvarının tozunu çırpdığına görə təşəkkür etmək məcburiyyətində qalırsan.
- Hə, sən indi deyirsən ki, gərək mən dünən o Oqtaya çox sağ deyib, alnından öpərdim?
- Əlbəttə yox. Ancaq yenə gərək bir az səbrli olardın. İnşallah, bir problem olmaz.

Elə bu an Yaşarın telefonu zəng çaldı. Yaşar telefonu əlinə aldıqda orada tanış olmayan bir nömrə gördü. Mahir dözməyərək boynunu uzadaraq ekrana baxdı. Ekranda gördüyü 2 sayıyla başlayan nömrə ona heç də yaxşı şeylər olacağını vəd etmirdi. Çünki, ölkəmizdə əksər orqan işçiləri məhz bu rəqəmlə başlayan nömrələrdən istifadə edirdi. Mahir bunu bildiyindən həyəcanı bir az da artdı. Yaşar isə özünü itirməyərək telefonu açdı? Telefonun o başında amiranə və ciddiliyə riayət edilməyə qərar vermiş bir səs eşidildi:

- Salam. Yaşar Süleymanzadədir?
- Bəli, mənəm. Kimdir?
- Sizi 22-ci bölmədən müstəntiq Kazımov narahat edir.

“Bölmə”. Bəli, deyəsən Mahirin fikirləşdiyi olmuşdu. Yaşar Mahirin gözlərinə bir anlıq baxaraq durdu. Sanki o, “Allah bəlanı versin, Mahir. Dediyin oldu” demək istəyirdi. Ancaq Mahir də Yaşarın tutqunluğundan, ona baxmağından bunu anlayaraq başın yellədi, sanki o da “Amin” deyirdi. Yaşarın deyilməmiş bu sözünə:

- Bəli, sizi eşidirəm, buyurun.
- Yaşar, haqqınızda şikayət var. Bölməyə yaxınlaşmağınızı xahiş edirik.
- Nə şikayət, - “bu tərbiyəsizin elədikləri bəs deyil kimi, hələ bir məni şikayət edib?” – sanki Yaşar ürəyində müstəntiqə bunları da demək istədisə, susdu.

- Nə şikayət olacaq, dünən restoranda saldığın dava barəsində, özün guya bilmirsən?

- Hə, o kiçicik bir anlaşılmazlıq var idi aramızda, həll etdik. Burda böyüdəcək heç nə yoxdur.

- Hə, kiçik söz-söhbət nəticəsində vətəndaşın dişi qırılıb.

- Nə dişi qırılıb – Yaşar bunu təəccüblə soruşsa da barmaqların sonacan sıxıb vurduğu yumruq xatirində canlananda onun diş aparacağını hesab edə bilərdi.

- Nə isə, sizi bu məsələni araşdırmaq üçün bölməyə dəvət edirik. Vətəndaş, eşidirsiniz nə deyirəm? – bir az möhkəm deyilən bu səs Yaşarı özünə gətirdi.

"Hə, dəvət. Dünən də dəvət etmişdilər. Başımıza gələn qalmadı. Deyəsən, bu dəvət düşərli olub. Hələ çox yerə dəvət olunacağam" – Yaşar ürəyində fikirləşdi.

- Hə, başa düşdüm, sabah gələcəm.

- Nə, nə sabah? Bu sizin üçün kino deyil ki, ürəyiniz istədiyi vaxt gedəsiniz. Mən sizi gözləyirəm.

- Bugün necə gəlim. Mən axı işdəyəm.

- Siz deyəsən məsələnin ciddiliyini və məni yaxşı başa düşmədiniz. Bu könüllü dəvət deyil, məcburi dəvətdir. Mən sizi dövlətin adından çağırıram. Bütün işlərinizi təxirə salıb, tez gəlin. İş gözləyə bilər – bu söz sözdən sonra bayaqdan diqqətlə qulaq asan Mahir dözməyərək telefonu Yaşarın əindən bir anda alaraq qulağına qoydu. O, söhbətin pis macəraya yönəldiyini duyaraq və elə Yaşarın axırıncı deyəcəyi kobud sözü ağzında qoyaraq onu danışmaq fürsətini aldı.

- Salam, danışan Mahirdi, Yaşarın yaxın dostu. Biz indi hara gəlməliyik?

Yaşar Mahirin bu hərəkətlərinə nə qədər əsəbləşsə də, o da başqa çıxış yolunun olmadığını anlayırdı. Mahir müstəntiqlə bəzi şeyləri aydınlaşdırdıqdan sonra zəngə son verərək Yaşara dedi:

- Yaşar, yeri, yubanmayaq. Dükanı da bağla, ya da uşaqlardan birinə tapşıraq.

- Sağ ol, Mahir. Vallah, sözün doğrusu, belə bir katibəmin olduğunu bilmirdim.

- Hə, katibənəm, sözün var? Sənə hələ də bəzi şeylər çatmır deyəsən.

- Vallah, katibəm olmağına etirazım yoxdu, ancaq katibəlik üçün mənə elə gəlir ki, əynindəki şalvarın yerinə bir qara mini yubka əvəz etsəm daha uyğun çıxar. Həm də bu bığların mənə elə gəlir ki, bu iş üçün o qədər də uyğun gəlmir. Hər halda məni başa düşərsən də, heç kəs kabinetimdə bığlı katibə istəməz – Yaşar sanki bütün acığını Mahirin üstünə tökməklə sakitləşirdi.

- Hə, deyəsən sən hələ zarafat edirsən, işin ciddiliyini başa düşmürsən – Mahir tez Yaşarı dükandan çıxartdı və Yaşar qeyri-iradi onun tələblərinə uyaraq

hərəkət edirdi. Bir müddətdən sonra onlar telefonla onları çağırmış müstəntiqin, artıq telefonunda olduğu masanıın qarşısında əyləşmişdilər.

"Buyurun, əyləşin" – astaca başın qaldırmadan deyilən bu səs Yaşarı bir anlıq düşüncələrindən ayırdı və ona harada olduğunu yavaş-yavaş xatırlatdı. O. Bayaq telefonda danışdığı müstəntiqin otağında idi. Otaq balaca, yığcam və səliqəli formada idi. Masanın üstündə olan sənədlərin bolluğundan və rəflərə düzülmüş qovluqlardan müstəntiqin işinin xeyli olduğunu anlamaq olardı. Yalnız əlində olan yazını bitirib başını qaldırdıqdan sonra Yaşar və Mahir müstəntiq Kazımovun simasını görə bildilər. Ensiz, uzun alına sahib olan bu şəxs balaca sifəti, yumru gözləri ona işinə xas ciddilik görkəmi verirdi:

- Hə, gözlətdiyim üçün bağışlayın – onun başını qaldırmadan dediyi bu ilk nəzakətli sözlər onunla dil tapmağın heç də çətin olmayacağı fikrini aşıladı.
- Yəqin bilirsiniz də, sizi nəyə görə çağırmışıq. Telefonda dediyim kimi dünən yaşanan hadisələridən sonra sizin haqqınızda vətəndaş Vəliyev Oqtay Bəhlul oğlu tərəfindən bölməmizə şikayət daxil olmuşdur. Buyurun, istəyirsiz, sizi şikayətin mətni ilə tanış edim – Müstəntiq bunu deyərək onlara tərəf bir kağız uzatdı. Yaşar burda yazılanları az-çox təsəvvür etsə də, yenə ürəysizcə kağızı əlinə alaraq ona göz yetirdi.
- Bəli, gördüyünüz kimi sizin aranızda yaranmış münaqişə nəticəsində zərərçəkmişə ağır bədən xəsarəti yetirilmişdir. Onun iki dişi sınmış, damağı yaralanmış, burun çəpərinə zədə dəymişdir.

Şikayəti mətni ilə tanış olan Yaşar bu kağızda yazılanlardın bu sahədə qələmini dəfələrcə sınamış usta bir "sənətkar" tərəfindən yazılan bir şikayət məktubu olduğunu anladı. Yəqin ki, Yaşarın təsəvvür etdiyi kimi imkanlı ailə uşağı olan Oqtayın bu işinə burda könül qoyal bir sıra insan tapılardı.

- Vallah, bu kağızda yazılanlara əsasənb mənim xəbərim olmadan məndə bir Tayson yaşayırmış. Vurduğum bir yumruğun bu qədər nəticələrə səbəb olduğumdan yəqin ki, Olimpiya komitəsi xəbər tutsa məni dərhal Olimpiya oyunlarına göndərər.
- Burda ciddi söhbət etmək yeridi. Sizə, deyəsən məsələnin ciddiliyi çatmayıb.
- Nə "ciddiliyi"? – Yaşar bir anda ayağa qalxaraq, özündən çıxdı – Adi bir davadır, ikimiz də içkili idik, böyüdəcək bir şey yoxdur.
- Mən işin mənə düşən tərəfiylə məşğulam, gördüyünüz kimi bu da həkimin rəyidir. Kazımov bunu deyərək daha bir kağızı Yaşara tərəf itələdi.
- Həkim rəyində də göstərilir ki, vətəndaş Vəliyev bu münaqişədən sağlamlığa zərər vuracaq ciddi zərbələr alıb, qanunda bununla bağlı çox ciddi cəzalar var.

Bir anlıq həkimin rəyinə də göz yetirən Yaşar bu həkimin də yəqin ki, bütün fantaziyasını işə salaraq yazdığı bu rəyin daha bir "sənət işi" olduğunu anladı. Ancaq mükafat almış sənətkarlar belə əsərlər yarada bilər.

- Oturun aşağı! – Kazımov ucadan qışqırdı. Özünüzü harda hiss edirsiniz?

Mahir Yaşarın hərəkətlərinin ona yeni problemlər açacağını anlayaraq dərhal söhbətə qoşuldu:

- Sakit, Yaşar! Cənab müstəntiq, bir az əsəbidi, üzürlü sayın – bir yandan da Yaşara baxdığı ciddi nəzərlərlə onu durmağa məcbur edirdi.

Yaşar bir az lal-lal Mahirə baxdıqdan sonra yolda Mahirin ona başa saldıqlarını xatırlayaraq əyləşdi. Yolda Yaşarı hər tərəfli başa salmağa çalışan Mahir ona izah etmişdi ki, burda o deyənlərə qulaq asaraq məsələni öz üzərinə götürdü.

- Xahiş edirəm siz bizə bir az yardım edəsiniz.

- Bax, qardaşım, görürəm siz başa düşən insansınız. Mən ancaq məsələni hüquq müstəvisində həll olunmasını istəyirəm.

- Bilirsiniz, əslində ilk Oqtay başlayıb, hər kəsin içində Yaşarı təhqir etməyi azmış kimi, hələ bir onun üstünə stəkan tullayıb. Sizcə bu qədər təhqirlərə hansı azərbaycanlı gənc dözə bilər? Özünüz də başa düşün.

- Bilirsiniz, məsələ mənim başa düşməyimlə həll olunmur – Kazımov ahəstə-ahəstə danışaraq bir siqaret çıxardaraq yandırdı. O, siqareti Yaşar və Mahirə təklif etməyi də yaddan çıxarmadı.

- Mən belə papa uşaqlarını yaxşı tanıyıram. Ancaq biz hüquq dövlətində yaşayırıq və burada hər şey qanunlarla tənzimlənir. Mahir bəy – bir az dayanan Kazımov – Mahir oldu da adınız. – dəqiqləşdirmə apararaq söhbətinə davam etdi - Doğrusu, Oqtayın atası Bəhlul müəllimin güclü tanışları var və o özü bu məsələyə qarışaraq bizim rəisə qədər çatıb. İndi siz də başa düşün, üstümdə necə böyük yük var. Məsələ birbaşa rəisin nəzarətindədir. Mən də bu işdə siz qədər tez problemsiz bağlanmasının marağındayam. Görürsünüz də, üstümdə o qədər işlər var ki, vallah, başımı itirmişəm - əliylə stolun üstündəki sənədləri göstərərək Yaşara baxdı

- Baxın, cənab Kazımov. Biz bəlkə də yaşıd olarıq, sizdən xahiş edirəm, hər məsələnin bir həlli yolu olur, bizə bir yol göstərib köməklik edəsiniz, biz də bu köməkliyimizin altında qalmayıb hörmətinizi edərik (burada işlənmiş "hörmət" sözünün leksikonumuzda artıq yerləşmiş yeni sözlərdən biri olduğu mənasını yəqin hamı başa düşərdi).

- Bilirsiniz, yenə deyirəm, Mahir qardaş. Mənə heç nə lazım deyil. Mən yalnız bu işin hər tərəfi razı salacaq halda bağlanmasını istəyirəm. Sözün doğrusu, indiki vəziyyətə baxanda ortadakı durum Yaşarın lehinə deyil. Çünki o içkili olmuş, restoranda olan insanların rahatlığını pozmuş, sonra dava salaraq Oqtaya zərbə vurmuşdur. Bu hal şahid və rəylərlə təsdiqini tapır. Hüquqi səbəb yox, nəticə

maraqlandırır. Yəni, Yaşarın bunları etməyə hansı səbəblərin olmasından asılı olmayaraq, törədilən nəticələr onu pis duruma qoyur.

- Bəli, mentalitet dediyimiz qeyri-hüquqi dəyərlər hüquqi dəyərlər kimi üstün deyil. Çünki mentalitet səni təhqir etmiş şəxsə qarşı hər hansı bir hərəkətini qəhrəmanlıq hesab etsə də, hüquq bunu cinayət kimi dəyərləndirir. Lap evinə oğurluğa girmiş insanı vurmuş insanın cəzası oğrudan çox olur. Hüquq yalnız sənin etdiyin hərəkətlərə görə sənə qiymət verir, onu sənə qarşı olanları maraqlandırmır. Mən hüquqi tərəfdən çıxış etdiyimə görə sizin hərəkətlərini hüquqa zidd olduğunu deyirəm.
- Bəli, sizinlə razıyam. Ancaq bir şey var ki, indi bu bir yumruğa görə içəridə də yatacaq deyil ki?
- Bəli, əlbəttə, ancaq burada yenə də ən böyük səy Yaşarın üzərinə düşür.

Elə bu zaman Yaşar sanki adının çəkilməsiylə dərin düşüncələrdən ayılaraq nəzərlərin ona tuşlandığını görüb təəccübləndi.

- Bəli, Yaşar, burda bir çıxış yolu var. O da sən gərək Oqtaydan üzr istəyəsən ki, o ərizəsini geri götürsün. Çünki yalnız zərəçəkmişin ərizəsi geri götürüləndən sonra siz ittihamdan azad sayılırsınız. Görürəm pis insanlar deyilsiniz. Özü də birinci dəfədir bura düşmüsünüz, ona görə də məsələni bağlamağa çalışaram.

Bu sözdən sonra o ciddi nəzərlərdə Mahirə tərəf baxdı. Mahirin də gözlərində razılıq nəzərləri hiss olundu.

- Çox sağ olun. Siz həqiqətən də yaxşı insansınız, allah razı olsun.
- Siz nə danışırsınız? Nə üzr istəmək? Mən axı təhqir olunduğum üçün bu cür iş tutmuşam – Yaşar ayağa qalxaraq sinirlərinə hakim ola bilmədi.
- Yaşar, sən məsələni niyə uzadırsan? Qoy cəhənnəm olsun hər şey, qürur etməyin yeri deyil.
- Sağ ol, Mahir. Sən məni təhqir etmiş adamdan üzr istəməyimi istəyirsən. Səncə mən bu qədər şərəfsizəm.
- Yaşar, belə uşaq sözləri sənə yaraşmır. Heç kəsin sənin şərəfinə şübhəsi yoxdur. Ancaq məsələ elədir ki, bəzən nəyəsə görə insan geri addım atmalıdır – Mahir gözləriylə sanki Kazımova baxaraq ondan kömək istəyirdi.
- Bilirsiniz, Yaşar. Sizinlə açıq danışacam. Sizin bundan başqa çıxış yolunuz yoxdu. Hələ bilmək olmaz, o sizi bağışlayacaq, ya yox – Kazımov Mahirə dəstək verdi.
- Mənim onun bağışlamasına ehtiyacım yoxdur.
- Hə, siz deyəsən cəza almaq niyyətiniz var. Gərək onda dil tapıb, ərizənin geri götürülməsinə nail olasınız. Bunun üçün 10 gün vaxtınız var. 10 gündən sonra iş tədqiqatdan qurtarıb istintaqa veriləcək. Orda da bir başqa istintaq müstəntiqi baxacaq (Kazımov tədqiqat müstəntiqi idi). Qanunla istintaqa düşmüş işə ancaq məhkəmədə

xitam verilə bilər. Yəni bizim burda sizi xilas etmək üçün 10 gün vaxtınız var. Bundan sonra artıq mən sizin üçün heç bir şey edə bilməyəcəm.

- Çox sağ olun. Yəqin Oqtaygilin ailəsi də belə məsələni böyüyərək ailə adlarının məhkəmələrdə hallanmasına razı olmazlar. Yəqin dil tapa biləcəyik. Yaşar, sən də uşaqlıq etmə. Cənab müstəntiq, biz onlarla harda görüşə bilərik, yəqin bura gələcəklər?

- Hər halda gəlməlidirlər istintaqa görə. Mən gərək Yaşarla Oqtayın üzləşdirim və onların izahatlarını üzləşdirim. Ancaq buna qədər siz onunla gərək görüşüb danışasınız.

- Yaşar, yəqin sən məclisdəki xanımlardan birinin vasitəsilə onların ünvanını öyrənə bilərsən.

- Mahir, sən narahat olma. Mən şəxsən gedib Oqtayın qapısını tapıb, orda gecə-gündüz yatıb ona yalvaracam, lap istəsən nökərçilik edəcəm ki, əlahəzrət məni bağışlayıb ikinci həyatı mənə lütf etsin – Yaşar özündən asılı olmayaraq gəzişərək əsəbini Mahirin üstünə tökürdü.

- İndi nə edək, başqa çıxış yolu yoxdur. Qürur edib, öz həyatının puç olmasını istəyirsən? Ananı, atanı, bacılarını fikirləşmirsən? Onlar sənin həbs düşdüyünü bilsələr nə qədər stres, həyəcan keçirəcəklər.

- Mən hər halda Mahirin elədiklərinə bir dost-qardaş kimi hörmət eləyirəm. Onun sənə görə bacardığı hər şeyi eləməkdə zərrə qədər də tərəddüd etməyəcəyinə heç şübhəm yoxdur. Amma belə çıxır ki, sən dostunun sənə görə başqalarının qapılarına düşməsinə razısan.

- Cənab müstəntiq, siz də deyəsən psixoloji təsir metodlarını üzərimdə yoxlayırsınız. Siz niyə bu bacarığınızı xəstəxanada işləyib yoxlamırsız

Yaşarın bu kobud cavabı Mahiri bir az da qəzəbləndirsə də, o, dillənməyə vaxt tapmamış, Kazımov sakit şəkildə söhbətə başlayaraq Mahirin onu müdafiə etməsinə imkan vermədi:

- Bilirsən, Yaşar. Psixoloji təsir bütün sahələrdə var. Sənin kimi özünü çoxbilmiş hesab edən, əsəbi, psixikası zəif insanlar nə yazıq ki, hər yerdə bunun qurbanı olurlar. Bu bugün İraqda, Suriyada və s. Yaxın Şərq ölkələrində özlərinə bomba bağlayıb özünü islam cənvavəri hesab edən insanlar üçün də belədir və bir sıra yerlərdə mübarizəyə qalxaraq şiddətlə silaha əl ataraq insanlığa zərər vurmaqla ilahi ədalət bərpa etdiklərini fikirləşərək insanlar üçün də belədir. Bir sıra yerlərdə mübarizəyə qalxaraq şiddətə, silaha əl ataraq insanlığa etdiklərini fikirləşən insanlar üçün də belədir. Beunlar hamısı müxtəlif formada psixoloji təsirə düşərək manqurtlaşmış insanlardır. Elə sən özün də Oqtayın psixoloji təsirinə uymayaraq onunla münaqişədən qaçsaydın, indi belə çətin vəziyyətə düşməzdin.

- Narahat olmayın, mən inkan verməræm ki, mənə görə kimsə əziyyət çəksin. Elədiyimin cəzası nədisə özüm cəkəcəyəm.

- Bax, Yaşar. Artıq bayaqdan söhbət edirik. Ona görə də mən sənlə səmimi danışacam, lap köhnə tanışlar kimi.

- Buyurun, cənab Kazımov. Siz də mənim hövsələsizliyimi bağışlayın. İnsanlara kömək etməyə çalışan biri olduğunuza dair artıq şübhəm yoxdur.

- Çox sağ ol. Elə buna görə də mən çalışaram, səni və sənin timsalında bəzi gənclərimizi başa salım. Bilirsən, tez-tez belə hadisələrlə rastlaşırıq. Bir də görürsən, bir qrup cavanları tutub gətirirlər, kimisə vurduğuna, xəsyarət yetirdiyinə və ya öldürdüyünə görə. Soruşanda niyə belə etdin, çox vaxt görürsən deyirlər ki, məni təhqir etdi, anamı söydü. Lətifəsi bizdən uzaq!

Kazımov söhbət əsnasında xalq ədəbiyyatında belə məsəlləri gətirərək söhbəti daha inandırıcı, canlı tutmağa çalışırdı. İnsafən desək bu onda pis alınmırdı. Elə bunun nəticəsi idi ki, bir az bundan qabaq oturmağa yer tapmayıb otaqda gəzişən Yaşar indi sakitcə oturub ona qulaq asırdı.

- Nə cəza versəz razıyam. Anama görə hər şeyə hazıram. Əla, əsl azərbaycanlı kişi kimi. Mentalitet dediyimiz dəyərlərə də uyğun. Ancaq burda bir hal var. Bundan sonra anasına söz dedirtməyən insanın anasının ağır günləri başlayır. Axı hansı valideyn qıyar ki, onun övladı həbsə düşsün, hər hansı bir əziyyətlə qarşılaşsın. Buna görə də belə insanların çətinliyini elə ən birinci onalrın qorumağa çalışdığı anaları çəkir. Bölmə qapıları, məhkəmə koridorları və nəhayər türmə darvazalarında sürünən anaların övladlarına görə götürmədikləri söz, çəkmədiyi zülm, görmədiyi təhqirlər qalmır, bütün bunlar baş verəndə həmin insanın əlindən heç nə gəlmir. Bu dəfə anasına söz dedirtməyən oğulun anası dəfələrlə ondan da ağır təhqirlər eşitməyə məcbur olur. Axı bunu anaya yaşatmağa heç kəsin haqqı yoxdur. Ona görə də insan həmişə özünü oda atanda öz canını yox, yandıra biləcəyi canların qorxusunu düşünməlidir. Mən sənin öz ailənən, səni sevənlərə görə heç nə etməkdən qorxmayan bir insan olduğunu fikirləşirəm, ona görə də birindən üzr istəmək səni qorxutmamalıdır. Bu sən özünə görə yox, səni sevənlərin əziyyət çəkməməyi üçün etməlisən, onları kiminsə ayağına düşməməyinə qıymayasan. – Kazımovun danışığı Yaşarı tamamilə sakitləşdirib düşünməyə vadar etdi.

- Çox sağ olun, Kazımov. Sizin kimi polislərin olduğunu gördükcə insan fəxr edir. Həqiqətən də bütün peşələrdə sizin kimi peşəsini ləyaqətlə yerinə yetirən insanlar olmasa, bəzi "çürüklər" ucbatından belə şərəfli peşələrin adı korlanır. – Mahir Kazımova öz minnətdarlığını bildirdi.

- Çox sağ olun.

Müstəntiq də bu sözlərin altında qalmayaraq Yaşarı tərifləməyə başladı:

- Mənə də sizin kimi mədəni, dünyagörüşlü gənclərlə qarşılaşıb üz-üzə söhbət eləmək xoşdur. Hərçənd, bura xoş olmaq üçün də o qədər də xoş yer deyil, ancaq yenə də həm səninlə, həm Mahirlə tanış olmağıma çox şadam.

- Çox sağ olun, cənab Kazımov (ümumiyyətlə söhbət boyu onlar gah Kazımov, gah da müstəntiq deyə müraciət edirdilər)

- Çox sağ olun. Bu bizim vəzifəmizdir. Bilirsiz, günah əslində, Yaşar, nə səndə, nə də başqasındadır. Məncə günah bu sözün, nə qədər müasir səslənsə də, bizim genetik quruluşumuzun sistematik quruluşuna əsaslanan mentalitet dəyərlər toplusundadır. Məsələn, elə özümü götürüm. Mənim gözəl ailəm, işim, çox şükür, valideynlərim sağ, az-çox hörmətim var, yəni həyatdan narazıçılığım yoxdur. Ancaq bir gün biri çıxır və hər kəsin özündə məni təhqir edər. Onda mən neyləməliyəm? Mentalitet dəyərlərinə və cəmiyyət qanunlarına görə mən o insanı vurub ölsürmək və ya xəsarət yetirməliyəm. Çünki mən cəmiyyətdə yaxşı oğlan statusunu qurmağa çalışmalıyam. Yaxşı, mən bunu etdim, sonra nə olacaq? Mən hər hansı cəzamı alaraq azadlıqdan olacam, bununla da sahib olduğum hər şeyi itirəcəm. Nəyə görə? – mentalitet qanunlarına görə Kazımov bu sözləri lap hər hansı televiziyada çıxış edərək "avropa dəyərləri"ni qoruyan deputat çıxışı sayağı səsənirdi.

Mahir və Yaşar başıyla bu çıxışı dəstəkləyən tamaşaçılar kimi başlarını yellədirdirlər.

- Yəni, Yaşar, sən cəmiyyətin nə deyəcəyini və içimizdəki bizi uduzmağa aparan qürur yolunu tutmayaraq bu işi fikirləş və qərar ver. Sabah, inşallah, görüşərik. Sən fikirləş, mən də çalışacam bacardığım qədər sənə kömək edim. Di xudahafiz.

Kazımovun verdiyi bu son hökmdən sonra Mahir və Yaşar onunla görüşərək getdilər.

**...**

Bu son bir həftə Yaşar üçün həqiqətən də çox ağır keçmişdi. Şikayət məsələsini həll etmək üçün o dəfələrlə bölməyə və digər qapılarda ayaq döyməli olmuşdur. Bu ildə Mahir bir dost kimi əlindən gələni edərək onu tək qoymamışdır. Yaşar bütün qüvvəsiylə çalışmışdır ki, bu məsələ barəsində evlərində xəbər tutmasınlar. Ancaq pis xəbərlər həmişə şürətli olur və sanki gec çatacaqlar deyə, sanki qanad açıb uçaraq tez çatırlar. Yaşarın ailəsi bu xəbərdən xəbərdar olduqda olduqca narahat oldular. Yaşarın belə bir işi tutacaqlarına inanmaqları gəlmirdi. Övladlarının ən təmiz varlıq olduğuna inanan analar olduğundan Yaşarın günahsızlığına da ən çox anası inanırdı. Ancaq ən tez çirkli görsənən şeylər ən təmiz olanlarıdır. Məsələnin evlərində bilinməsi Yaşara əlavə baş ağrısı oldu. Atasının danlaqları, anasının narahatlığı, dilxorçuluq, söz-söhbət əldən salırdı. Bütün bu söz-söhəbət son qoymaq, narahatçılığı aradan qaldırmaq üçün Yaşarın bir yolu var idi. Yaşar insan oğlunun ən çətin mübarizəsi olan qürurunu sındırmaq məsələsində bütün cəsarətini toplayaraq Oqtayla üz-üzə gəldi və ondan üzr istədi. Nəhayət məsələyə Dilarənin, Səidənin və s.

insanların qarışması Oqtayı geri addım atmağa məcbur etdi və o, ərizəsini geri götürdü. Bundan sonra, Yaşar bir neçə dəfə də bölməyə gedərək Kazımovun köməyi ilə məsələnin bağlanmasına nail oldu. Ancaq bu ona o qədər də ucuz və asan başa gəlmədi. Buna görə də bölmədəki insanları tam razı salmaq üçün Yaşar əlində olan bütün pulları tükətdi. Dükanına geyim almaq üçün ayırdığı 2 min manatı (alver dilində buna maya deyirlər) da xərcləməli oldu. Üstəlik işə yaxşı çıxa bilməməsi və bir həftə mağazasını başlı-başına qoymağı onun ticarətinə ağır zərbə vurdu. O, dükanına əl gəzdirmək üçün bir az da bərca girməli oldu. Bir tərəfdən də baş verən hadisələr Yaşarın psixikasını korlatdığından onun yenidən işə uyğunlaşması çətin oldu.

Yaşar bütün günü baş verənləri fikirləşir və Dilarəni bir an olsun belə yadından çıxara bilmirdi. Onu düşündürən başqa bir məsələ də baş verənlərin Dilarənin onun haqqında olan fikirlərinə necə təsir etdiyi idi. Axı doğuç gününə Dilarə onu tanımağa çağırmışdı. Ancaq Yaşar heç də özünü yaxşı tanıtmamışdı. Ancaq qəlbimizin dərinliklərində olan qürur, mənlik hissi həmişə bizi mübarizəyə çağırır. Ona görə də Yaşar heç də pis hərəkət etmədiyini fikirləşirdi. Çünki o, öz şəxsiyyətinin mühafizəsinə çıxmış və onu təhqir edən insandan özünü qorumuşdur. Deyəsən qızların belə şeylərdən xoşu gəlir. Qəfil bu fikirlər Yaşarın beynində fırlanaraq ürəyinə sərinlik gətirdi. Bəlkə Dilarə də onun bu hərəkətini o qədər də pis qarşılamayıb. Xüsusən, o qız Dilarə kimi ağıllıdırsa, yəqin anlamalıdır ki, hər bir özünə hörmət edən oğlan belə hərəkət etməliydi. “Yox, yox. Axı mən Oqtaydan üzr istədim. Yəqin Dilarə bundan xəbər tutub” Bəli, qadınlar güclü kişiləri sevir, söhbət təkcə fiziki yox, həm də mənəvi güclü kişilərdən gedir. Axı qadınlar güvəndiyi kişilərə aşıq olub onlarla birgə olurlar. Qadınlar güclü kişiləri ona görə sevirlər ki, onların yanında zərif görsənsinlər. Axı qadınlar zərif olmağı qadınlığın əsas məğzi sanırlar. Tanrı özü də dünyanı yaratdıqdan sonra kainatda kiçik zərərcik olan yumru dünyanı müvazinətdə saxlamaq üçün onu əksikliklərlə birgə yaratmışdır. Hər şeyi əksiyiylə birgə yaratdı ki, müvazinət qorunsun. Ağ qaranın yanında təmiz görsənir, su odun yanında təsirli görsənir, gecə gündüzün yanında davamlı görsənir. Yəni, hər şey öz əksiylə birgə tam gözəl görsənir. Və Tanrı ilahi proporsiyanı qorumaq üçün yaratdığı ən şah əsəri – insanı da bunu qorudu. Kişi və qadın. Bəli, kişinin gücü qadının zərifliyi ilə tamamlananda gözəllik bütövləşir. Kişi gücü qadın zərifliyi ilə tərs mütənasibdir. Biri artdıqca, biri azalır ki, gözəl düstur alınsın. Bəli, buna görə də qadın yanında zərifliyini hiss etdirdiyi kişini istəyir.

Yaşar bir anda daldığı düşüncələrdən ayıldı. Axı heç bu hadisədən sonra Dilarə ilə görüşməyib, söhbət etməyib. O, fikirləşdi ki, dərhal onunla görüşüb içindəki suallara aydınlıq gətirsin. Yaşar Dilarənin Oqtaya ərizənin geri götürməsində təsirin olduğunu bilirdi. Buna görə də, o, həm çox sağ ol deyər ona, həm də bir az imkan

tapıb onu görüb söhbət etmiş olar. O, hələ bu fikirlərlə dükanını bağlayıb Dilarəgilin binalarının qabağına yollanaraq onunla görüşməyə tələsdi.

Yaşar bir xeyli gözlədikdən sonra nəhayət Dilarənin gəldiyini gördü. Dilarə maşından düşərək asta-asta evlərinə tərəf addımlayırdı. Yaşar uzaqdan ona bir xeyli baxdı. Onun yerişi, özündənrazılığı, əda ilə yerişi Yaşarı özündən alırdı. Yaşar özündə güc toplayaraq ona yaxınlaşdı.

- Salam, necəsən? Narahat etmirəm?

- Salam, sağ ol, yaxşıyam. Sən necəsən?

- Sağ ol, yaxşıyam mən də. Vallah, sözün doğrusu, qarşımıza çıxmağa ürək etmirdim. Baş verənlərə görə sizdən bir daha üzr istəyirəm. Sizi pis vəziyyətə saldım.

- Eybi yox, daha olacağa bir çarə yoxdur. Oldu, qurtardı. İnşallah, bir də belə səhvlər edib, özünü pis vəziyyətə salmazsan - bu sözlər Yaşarın qaysaq bağlamayan yarasını bir az da qaşıyırdı.

- İnşallah. Mən bir də elə insanlarla qarşı-qarşıya gəlmərəm. Adi bir şeyə görə gedib şikayət edən insanla birdə qarşılaşmaq istəmirəm onsuz da.

- Sözün doğrusu, mən Oqtayın pis insan olduğunu fikirləşmirəm, ən azından o istəsəydi şikayətini geri götürməzdi. Sən ona qarşı böyük tərbiyəsizlik etdin.

- Sən niyə yalnız mənim etdiklərimi deyirsən. Məgər onda günah yox idi? O, məni təhqir etdi, neyləməliydim?

- Səhvlər bizim yolumuzdur. Kiçikləri aydınlığa, böyükləri qaranlığa aparır. Kiçik səhv zərurəti böyük səhv qəbahətdir. Oqtay da nəsə kiçik səhvlərə yol vermiş ola bilər, ancaq bu sənə haqq qazandırmır, sən belə səhv edəsən.

- Səncə qarşımızdakıların kiçik səhvləri bizi təşfiq etməsə, biz də böyük səhvlər etməmiş olarıqmı?

- Hə, düzdü. Bax bu təşfiq anında keçirdiyimiz tərəddüdlər, elədiklərimiz bizim insanlıq gücümüzü göstərir.

- Yəni, mən sınaqdan yaxşı keçmədim?

- Nə bilim, Yaşar. Hər halda özüm bizim mühitlər arasında olan fərqi gördün. Çünki mən artıq gördüm. Bəlkə sənin olduğun mühitdə - çayxanalarda və s. bu hərəkətinə haqq qazandıra bilərlər, ancaq bizim mühitdə buna ədəbsizlik kimi baxırlar.

- Başa düşdüm. İmkanlılar üçün təhqirə dözmək asanmış

- Sən deyəsən imkanlıları təhqir etməkkdən həzz alırsan. Bilirsən, əslində sən düz deyirsən. İnkanlılar belə şeylərlə yaşamağa öyrəşiblər. Çünki cəmiyyətdə kasıblar varlılardan çoxdur. Ona görə də, kasıbların həmişə əsas söhbət mövzusu varlılar olub. Onlar onsuz da varlılar haqqında yaxşı danışmır. Onda hər varlı da düşüb bu söhbətlərin ardınca getsə, onda varlılığından bir şey qalmaz.

- Belə çıxır ki, mənim sənlə bir daha masaya oturmağım üçün varlı olmağım gərəkdir?

- Amma belə getsə, bu başla sən hələ çox kasıb qalacaqsan. Varlıları təhqir etməklə varlı olunmur, kasıb qalınır.

- Yaxşı, üzr istəyirəm. Bir də Oqtayın adını çəkməyəcəm – Yaşar istehzayla dilləndi.

- Sən bilmirsən, Oqtayın atası Bəhlul əmi ilə mənim atam yaxınb dostdurlar. Bizim ikimiz də sənin üstündə onlardan bir ton söz yemişik. Bax, indi də evdən məni səninlə görsələr mənə problem olacaq.

- Başa düşürəm. Bilirsən, mən həqiqətən ora gələrkən başqa xəyallar qurmuşdum. Belə alındı, istəməzdim belə olsun. Mən sənin valideynlərindən də üzr istəməyə hazıram. Dilarə... bilirsən mən səni çox sevirəm. Sənsiz özümü təsəvvür edə bilmirəm. Fikrim ciddidir. Lap istəsən, valideynlərimi elə bu gecə göndərim elçiliyə sizə, mənə bircə "hə" de. Əgər sən də razısansa, mən səninlə ailə qurmaq istəyirəm – Yaşar nə qədər çətin olsa da başını aşağı salaraq qorxa-qorxa bu sözləri dedi.

- Evlənmək? – Dilarə birdən şaqqanaq çəkərək gülməyə başladı – Evlənmək ha – hey gülərək təkrarlayırdı.

Sanki onun hər gülüşü Yaşarın qulağının dibində vurulan təhqir sədaları idi. Yaşar sadəcə nə deyəcəyini bilməyərək Dilarənin gülüb qurtarmağını gözləyirdi. Bu dəqiqələr çox əzablı dəqiqələr idi. Bir kişi üçün ən çətin olanı onun yerə düşmüş qürurunu qarşısındakı insan tərəfindən tapdalanmasına sadəcə heç bir şey etmədən seyrçi qalmasıdır.

Dilarə tez-tez "evlənmək" sözünü elə tələffüz eləyirdi ki, sanki xarici vətəndaş bizim dildə nəsə cümlə qurmağa çalışır.

- Nə... nə elçilik, nə evlənmək. Sənə mən nə zaman dedim ki, mən evlənmək istəyirəm, özü də səninlə. Dedik, güldük, danışdıq, daha bu qədər də yox. Dünən görmüsən məni, bugün evlənmək istəyirsən.

- Mən...mən...axı, Dilarə, hiss edirdim, səndə də mənə qarşı hislər var idi – Yaşar udquna-udquna bu sözləri deyərək yerə yıxılan insanlar kimi ayağa qalxmağa çalışırdı.

- Yox, sən səhv anlamısan. Bizimki alınmaz. Biz başqa dünyanın insanlarıyıq. Ailəmin narahat olmağını istəmirəm.

- Axı bacarmıram, anlamırsan, Dilarə? Yaxşı, onda heç olmasa bir-birimizi tanımağa davam edək. Bizdə elçilik, evlilik söhbətini açmayacağam, söz verirəm. Ancaq məni özündən uzaqlaşdırma – Yaşar özü də bilmədən artıq Dilarəyə sanki yalvarırdı.

- Yox, daha bəs edər! Məncə daha tanımasaq yaxşıdır. Həm görürəm ki, biz bir-birimizi tanıdıqca hər ikimiz üçün problem yaranır. Mənim sənə qarşı heç bir hissim yoxdur. Anla və bir daha məni narahat etmə – bu son sözlərdən sonra Dilarə

evlərinə doğru addımladı. Bu zaman blokdan çıxan Dilarənin qardaşı Orxan Dilarəyə yaxınlaşıb bir gözü də Yaşarda dedi:

- Dilarə, neynirsən burda? Bu kimdir? Nəsə olub? Narahat edir səni? – Orxan birnəfəsə bütün suallrını yağdırdı.

- Heç kim, gəl gedək. Onsuz da gecikmişəm.

Onlar binaya daxil olanacan Yaşar yerindən tərpənmədi. Onlar gözdən itdikdən sonra Yaşar yavaş-yavaş ordan uzaqlaşmağa başladı. Beynində bir neçə dəfə "heç kim" sözünü təkrarladı. Hərəkət etsə də ayaqları ona sanki ağırlıq edirdi. Ömründə bu qədər ağır sözlər eşitməmişdi. Bu zaman Kazımovun dediyi sözlər yadına düşdü: "Həyat həqiqətən səni bəzən elə vəziyyətə salır ki, götürə biləcəyindən ağır sözlər eşitməli olursan və sadəcə susursan."

**...**

Yaşar həmişəki kimi qeyri-müəyyən halda olanda getdiyi yerə - Şamil kişinin yanına necə gəldiyini heç özü də bilmədi.

Yol boyu olanları fikirləşərək beynimdə fırlanan suallara cavab axtarırdı. Ancaq beynində o qədər cavabı tapılmayan suallar və suallara olan cavablar var idi ki, orada eşələnib nəsə tapmaq olmurdu. Yaşar baş verənləri anlamağa çalışırdı. Axı hardasa 10 gün bundan qabaq Dilarə onunla mehriban danışmışdı. Hətta ona bir ümid də verərək onu məclisə dəvət etmişdi. Nəyə görə o, belə sərt sözləri Yaşara dedi? Niyə? Niyə? Ax, bu niyələr o qədər çox idi ki, bunlara cavab tapmaq çətin idi. Bəlkə o, heç Dilarəni yaxşı tanımır. O, həqiqətən bu cür zalım insan idi? Zalım. Bəli, qarşısındakının hislərini təhqir etmək əsl zalımlıqdı. Bir insanın hisləriylə oynamaq böyük günahdır. Ancaq Dilarə onun hisləri ilə oynamışdı. Bir insanın həyatı ilə oyna, ancaq hisləri ilə oynama – öyrətmişdilər ona. Axı Yaşar pis heç nə etməmişdi. Çox oğlan qızla danışıb görüşdükdən sonra ciddi münasibətə keçməkdən qaçır, ancaq Yaşar əsil sevən insan sayağı elə ilk günlərdən fikirlərinin ciddiliyini göstərmişdi. Dilarə niyə bu qədər ağır sözləri dedi ona? Niyə? Niyə? – Ax, bu niyələr o qədər çox idi ki, onalara cavab tapmaq olmur.

Məsələnin çətinliyi onda idi ki, Yaşar öz daxilində verdiyi sualların cavablarını az-çox bilirdi. İnsan cavablarını qəbullanamadığı sualları özünə çox verir və ya cavabını qəbul etmək istəmir. Çünki ümid həmişə bu sualların içində girləndiyindən insana bu suallar narahatlıq verir. Əslində, Yaşar cavabını bilsə də, özünü aldadaraq Dilarəylə bağlı şirin yalanlar axtarırdı. Axı sevgidə həmişə şirin yalanlar acı həqiqətlərdən hörməti çox olur. O, Dilarənin əsil kimliyi ilə üzləşməkdən özünü qaçırdırdı. Yalançı ümidlər olmasa yəqin ki, birtərəfli sevgilərin ömrü çox uzun olmaz. O, Dilarənin onun heysiyyatına toxunduğunu yaxşı anlayırdı, ancaq bunu sevgi deyilən qudurğan mələkdənmi, varlılıq deyilən təkəbbürlü şeytandanmı güc

alaraq etmişdi. Yoxsa. Hə, əsas cavab Yaşarı qorxudurdu. Bu cavab elə onun özü idi. Çünki Yaşar bu qədər özünün təhqir olunmasına özü yol vermişdi. Çünki qarşınızdakı insanlarla sərhədi siz müəyyənləşdirirsiniz, hər kəs sizin izn verdiyiniz qədər sizin sərhədi keçə, sizin şəxsiyyət qalanıza hücum çəkə bilər, və ya sizin mənliyinizi işğal edərkən orda bayraq qaldıra bilər.

Bu fikirlərlə Yaşar Şamil kişinin qarajına girdi:

- Salaməleyküm.
- Salam, Yaşar. Xoş gəlmisən. – Şamil kişi Yaşara tərəf gələrək ona əl uzadıb görüşmək istəsə də, son anda əllərinin yağlı olduğunu yadına salaraq tez onları üstündəki paltara sürtərək təmizləməyə çalışdı. Bunun o qədər də yaxşı fikir olmadığını gördükdə yüngülvari onunla görüşüb Yaşara yer göstərərək əllərini yumağa getdi.

Yaşar yavaşca stulda oturaraq dərin fikirlərə daldı. Şamil kişi əllərini yuyub qurutduqdan sonra onun yanına qayıtdı. Bir anda vaxtı da itirməyərək qarşıdakı çayxanadan çay da sifariş verdi. Şamil kişi Yaşarın əhvalının pil olduğunu görüb, söhbətə zarafatla başlayaraq onun kefini açmağa çalışdı.

- Heç bilmirəm bu çay adəti nədir də, hara gedirsən çay – deyə Yaşar gileyləndi.
- Hə, sözün doğrusu, mən də bilmirəm, necə deyərlər, dədə-babadan belə görmüşük. İnsanlar bir-biriləri ilə dərdlərini çay içərək anladanda dərd bir az elə bil şirin olur. “Könül məhəbbət isətyir, çay bəhanədir” – türk atalar sözündə deyilir.
- Onda belə çıxır ki, çay gəldi, ancaq gərək dərdimizi danışaq.
- Sanki sən də bura dərd danışmağa gəlməmisən? Yoxsa çay içməyə gəlmisən?
- Yox, çay içməyə gəlmişəm! – Yaşar yaxasını söhbətdən çəkmək üçün bunu deyib stəkanı əlinə alaraq qurtuldatmağa başladı.
- Hə, lap yaxşı. Çayını iç, onda get məni də məşğul etmə, görürsən əlimdə nə qədər iş var – Şamil kişi də təmir etdiyi köhnə mersedesi göstərərək dilləndi – Görürsən də, köhnə bir maşını, pis vəziyyətdə olan detallarına baxmayaraq, markalı mersedesdi deyə, təzə Ladanı satıb alıblar, indi də problemlərin ucbatından sürə bilmirlər. Gətiriblər, bu ustadan o ustaya gəzdirirlər.
- Nə etsinlər, Lada soverin maşınıdı, təhlükəlidi, köhnədir, həmişə də yolda qalır.
- Əsas məsələ yolda durmaq deyil, yolda qoymaqdır. Lada nə qədər mersedesdən çox yolda dursa da , bir müdaxilə ilə hərəkətə gələrək, insanı mənzil başına çatdıra bilir. Ancaq bunlar yolda qalsa da, arxalarınca elçi gəlməsə (evakuatoru nəzərdə tuturdu) yerindən tərpənmirlər.
- Hə, düz deyirsən. Ancaq hamı istəyir ətrafını gözəlləşdirsin, buna görə də xarici gözəlliyə üstün olanlara önəm verirlər.

- Düzdü. Nə qədər insanlar desələr də daxili gözəlliyə üstünlük verirlər, məncə, yalan deyirlər. Çox az insanlar gözəl xasiyyəti olub, fiziki qüsuru olan , eybəcər qızla münasibətə qaçarlar. Ancaq maşallah oğlanlarımız xarici görünüşü gözəl, ancaq daxili eybəcər, iyrəncliklə dolu olan qızları diqqətdən kənarda saxlamırlar. Ümumiyyətlə, insanlar əsasən xarici görünüşünü bəyəndiyi insanların daxili dünyasıyla maraqlanmırlar, bəyənmədiklərinin daxili onların heç vecinə də deyil. Orada lap mələklər, müqəddəslər məskən salsa da.

Yaşar başını tərpətməklə bu söhbətin düzgünlüyünü təsdiq edirdi.

- Elə mənim kimi, bir dənə gözəl qız görən kimi özümü itirirəm, bütün şəxsiyyətimi də yavaş-yavaş itirirəm.

- Yavaş get, ay oğul. Bu nə ağır sözlərdir deyirsən? Nə olub, yenə kim səni belə qəzəbləndirib. Danış hələ bir görək. Çoxdandır dərdləşmirik.

Yaşar ürəyini boşaltmaq üçün ona verilən bu imkandan var gücüylə istifadə edərək bütün məsələsini, orda olanları, sonra Dilarəylə olan söhbətini çox aramla və çətinliklə danışdı. Şamil kişi Yaşara nə deyəcəyini bilmirdi. Yaşarsa çarəsizcə, boynunu bükərək ondan nəsə bir məsləhət, təsəlli gözləyirdi. Ancaq Şamil kişi Yaşarın indi həqiqətləri qəbul edəcək halda olmadığını çox yaxşı bilirdi. Çünki öz-özünü aldatmış insana ən böyük pislik həqiqətləri demək idi. Yaşar stəkana süzdüyü növbəti çayın buxarına məhəl qoymayaraq ovucları arasına aldığı armudu sətkanı sıxıb oynadırdı.

- Bilirsən, Yaşar, fikir etmə. Qismətdə nə varsa, o da olur. – Şamil kişi indiki məqamda deyiləcək bundan artıq bir cümlə tapmadı.

- “Qismət”. Çətin məqamlarla bu söz olmasa, yəqin heç kəs baş verənlərlə razılaşa bilməz. Bu söz qəza keçirmiş insana ilk yardım kimi bir sözdür. Bilmirəm mənim qismətimdə nə var. Ancaq mənə “qismət” heç yazılmayıb deyəsən.

- Qismət yazılmır, ay Yaşar. Tale yazılır. Qismət taleyimizdə bizə düşənlərdir. Taleyə nə qədər alın yazısı desələr də, bir çox dinlər taleyimizin ovucumuza yazıldığına inanırlar. Çünki alın yazıları kimsə görə bilər, ancaq ovucuna yazılanları yalnız sən istədiyində kimsə görə bilər. Elə hindlilər ruhun insan ovucunda olduğuna hələ lap qədimdən inanırdılar. Səbəbsiz deyil ki, əksər dini rituallar, ayinlərdə əllə, ovuclarla ifadə olunur. Deməyim odur ki, Yaşar, özünü çox sıxma, alın yazını istədiyində bilə biləsən. Sənə sevgi barəsində məsləhət verə bilmərəm, çünki bu barədə təcrübəm yoxdur. Ümumiyyətlə bu barədə insana heç kəs məsləhət verə bilməz. Çünki bu işdə təcrübəsi olanların da başına gələnlər bir-birinə oxşamır, başqa işlərdən fərqli olaraq, ona görə sevginin təcrübəsi olmur, nəticəsi olur. Sənə deyə biləcəyim söz budur ki, ürəyinin səsini ağlının hökmləriylə uyğunlaşdıra biləndə insan xoşbəxt yaşaya bilir.

- Vallah, burda ürəklə ağıl tamam başqa-başqa sözlər deyirlər. Onların heç uyğunlaşacağı yoxdur.

- Həmişə bir çıxış yolu var, bir-birinə ən uzaq olan iki yolu da birləşdirmək istəsən onları kəsişdirəcək ortaq bir nöqtə taparsan.
- Qorxuram, bunlar bir-birilə kəsişməyən iki düz paralel xətdir.
- Düz xətlər onsuz da bir-birinə bənzəyir, alcaq əyri x ətlər hərəsi bir cürdür. Nə deyək, yaxşı olar. Olmayacaqsa bir şey deməli pis olacağından imiş.
- Hər halda bundan pisi ola bilməz. Bilmirəm nə olacaq axırı.
- Məncə sən özün də bilirsən səbəbini? Ancaq eşqin kor gözü sənə də həqiqətləri bulanıq göstərir.
- Nəyi bilirəm?
- O qızla sənin məsələnin çətin olacağını.
- Niyə? Sən buna belə əminsən?
- Niyə?  Həyatdan. Siz kinolardan həyatı öyrənəndə bəzi insanlar onu yaşayaraq öyrənir. O, kinolarda olur. Varlı qız, hər hansı bir kasıbla münasibət saxlayır. Həyatda belə şeylər haqsızlıq sayılır.
- Bəsdir də, sən lap.
- Nə, düz deyirəm də. İstəyirsənb gəl lap səmimi olaq, düz danışaq.
- Səncə mən səmimi deyiləm? – Yaşar incik şəkildə soruşdu.
- Düzün deyim? – Şamil kişi bir az hirslənmiş kimi idi. Belə hirs insanın içinə açılan darvazaya bənzər ki, içəridə nə varsa, bir anda çölə çıxar.
- De, əlbəttə. Mən səndən həmişə düzünü eşitmək istəmişəm.
- O qızın gözəlliyi onu sənə istədsə də, varlı olmağı bir az onun yerini möhkəmləndirir. Bu səndən asılı olan şey deyil. İnsanlar tarixən həmişə varlı qızları istəməyi kasıblardan üstün tutublar. Məktəbdə də, universitetdə də çox vaxt belə olur. Oğlanlar varlı qızların ürəyini oğurlamaq üçün bir-biri ilə rəqabət aparırlar.
- Yaxşı, Şamil dayı, sən də. Onda belə çıxır ki, bütün varlı qızlar lap eybəcər olsalar da, kimsə tərəfindən sevilir.
- Əlbəttə. Hələ mən xeyli fiziki çatışmazlığı olan imkanlı qızların da qapılarında elçiliyə növbə ilə duran cavan, sağlam oğlanlar görmüşəm. Belə də ki. Eybəcərlik nə deməkdir? Nəyə eybəcərlik, nəyə gözəllik deyilir? Bunun tam izahını, tərifini kimsə bilir? Kim üçünsə eybəcərlik gözəl bədən quruluşunun olmamağıdır, kimin üçünsə də pulun olmamağıdır, kimin üçünsə də mənliyin olmamağıdır. Yəni, sənə eybəcərlik kimi görünən bəzi şeylər kiməsə gözəlliyin tam özü görsənə bilər.
- Şamil dayı, hamı üçün qəbul olunmuş formalar var, hamı gözəlliyin fərqli xüsusiyyətlərinə daha çox üstünlük verməsindən asılı olmayaraq, ümumi qəbul olunmuş gözəl deyilən və eybəcər deyilən insanlar var.
- İndi hamı ümumi axına uymağa çalışır. Məsələn, bəzi Afrika qəbilələrində qız uşağının dodaqları arasına bəzi vasitələr taxırlar ki, dodaqları enli olsun, sallaq olsun. Onlarda sallaq dodaq gözəllik elementlərindən sayılır. Ancaq bizə ona heç də yaxşı baxmırlar. Yəni dünyanın fərqli yerlərində fərqli insanlar üçün

gözəllik anlayışı fərqli ola bilər. Bəzi yerlərdə uzun saçı, bəzi yerlərdə qısa saçı gözəl hesb edirlər.

- Nə olur olsun. Ta qədimdən insanlar gözəllik deyə bir düstur qəbul etmişlər və bir çox insanlar gözəllik qarşısında müti olmuşlar. Heç təsadüfi deyil ki, gözəllik tanrıları, ilahələri onların sitayiş obyektləri olub. Sən heç eybəcərlik ilahəsi eşitmisən? Yox, çünki gözəllik gözəldir, hər kəs ona sahib çıxmaq istəyir. Bunun üçün tarix boyu qanlar tökülüb, insanlar arasında rəqabətlər, mübarizələr getmişdir və bundan sonra da gedəcəkdir.

- Nə bilirsən eybəcərlik tanrılarına sitayiş edən insanların olmamasını? Qədimdə imsanların təsəvvür etdiyi əksər tanrılar kobud, eybəcər formada olmuşdur. Sonralar tək allahlı dinlərdə hüquqları əlindən alınan qadınlar sahib olduqları ən böyük güclə - qadın görünüşü ilə mövqelərini bərpa edtməyə çalışırdılar. Bəs necə olur, əvvəllər ölüm tanrısı da həyat tanrısı ilə birgə, müharibə tanrısı sülh tanrısı ilə birlikdə, işıq tanrısı zülmət tanrısı ilə birilikdə panteonda yer alırdılar. Təbiətdə olan hər ünsürün mövcudluğu onun əksinin mövcudluğunu labüd edir və bundan asılıdır. Hər ünsür öz əks ünsürüylə birgə vəhdət təşkil edir. Həyat əksikliklərin mübarizəsi, əkslərin üzləşməsidir. Əgər gözəllik deyilən bir şey sevilərsə, o eybəcərliyin mövcudluğuna görədir. Xeyir deyə bir şey qavranılırsa bu şərin mövcudluğuna görədir. Gündüz açılırsa, bu gecənin bitdiyinə görədir.

- Mənim dərdim nə, sənin dediyin nə. Gör hardan hara gəlib çıxdıq.

- Heç demə. Gör hara gəldik çıxdıq. Yəni insanın özünə etiraf etməyi çətindir. Etiraf insanın içindəki tanrısı ilə dialoqudur. Sən buna vicdan da deyə bilərsən. Başqalarına qalib gələn insan güclüdür, özünə qalib gələn insan qüdrətlidir. İndi de görüm, sən bu qıza qarşı olan hislərinin səmimiliyinə və onun buna layiq olduğuna inanırsan?

Bu sualı Yaşar gözləmədiyindən çox pis vəziyyətə düşdü. Sanki o, riyaziyyat imtahanında tarix sualı ilə üzləşmiş tələbə kimi idi. Səsli etiraflar həmişə çətin və çox vaxt da yalan olur. Buna görə Yaşar bir az tutulub qaldı, nə deyəcəyini bilmədi. O, Şamil dayıya yalan da danışmaq istəmirdi. Elə özünə də. Ona görə də o, bir daha içinə boylandı. Ordan cavablar acı və ağır idi. Yaşarın gücü çatacağından ağır. O, sadəcə bunu deyə bildi.

- Bilmirəm. Həqiqətən nə elədiyimi, nəyin düz olduğunu bilmirəm. Geri çəkilməyə qürurum, mübarizə aparmağa gücüm yoxdur. Onu bilirəm ki, mən bu qızı uzaqdan çox, yaxından az istəyirəm.

- Bax, bəzi insanlar belədir. Belə insanlar gözəl bir tabloya bənzər. Uzaqdan ona baxdıqda zövq alarsan, sevərsən. Yaxından baxdıqda ancaq qüsur və nöqsanları görüb bezərsən. Məncə, bəzən daha böyük sevmək üçün uzaqdan sevməlisən.

- Onda belə çıxır ki, bu qızdan uzaq dursam onu daha çox sevəcəyəm.

- Bəlkə hə, bəlkə yox. Necə deyiblər, “ayrılıq külək kimidir. Kiçik sevgiləri öldürər, böyüklərini çoxaldar. Küləyin şamı söndürüb atəşi çoxaltdığı kimi”.
- Sən də elə bil qəsdən bütün qapıları göstərib sonra hərəsinə bir qıfıl vurursan. Gəldim beynimi təmizləməyə, bir az da bulandırırsan.
- Nə bilim, ay Yaşar. Bir az da fikirləşsən, düz yolu taparsan.
- Düz deyirsən. Mənim bir az da fikirləşməm lazımdı – Yaşar bunu deyib ayağa qalxdı. Stəkanın dibində qalan soyuq çaydan bir qurtum da alıb əli ilə Şamil dayı ilə sağollaşıb ordan ayrıldı.

...

Yaşar son bir həftəni çox gərgin keçirmişdi. Onun bu söhbəti evlərinə çatdığından atasının ona qarşı olan münasibəti bir az soyumuşdu. Anası da bir az incik olmuşdu. Dükanda işlər bərbad hala düşmüşdü. Yaşar əlində olan pulları qurtardığından dükana yeni mallar vura bilmirdi və buda onun alverinə təsir edirdi. Bütün bunlardan başqa sanki onda həyat eşqi ölmüşdü. Dilarəylə bağlı beynində dolanan suallara da bütün günü cavab axtarması onu yorurdu. Yaşar bəlkə də həyatının ən tərəddüdlü anlarını yaşayırdı. Belə anlarda insan minlərcə xəyal qursa, plan tutsa, fikir yürütsə də yenə də düşdüyü vəziyyətdən çıxa bilmir. Yaşar anlayırdı ki, o düşdüyü bu vəziyyətdən tezliklə iradəsini toplayaraq çıxmalıdır. Buna görə də o son bir dəfə Dilarəylə danışmağı qərara aldı. Əlbəttə bu bütün suallara aydınlıq gətirəcək və Yaşarın bundan sonrakı yolunu çizməli olacaq bir görüş olmalıydı. Yaşar Dilarənin gəldiyi yolun kənarında duraraq onun gəlişini gözləyirdi. Bu yol ikitərəfli gedişi olan təzə asfalt örtüyə sahib yol idi. Belə yollarda da sürət həddini gözləmək əksər maşınlara çətin olurdu. Çünki əksər sürücülər şütüməyə yararlıdır, yol görən kimi sürəti artırırlar.

Bugün hava payız fəslinə uyğun olaraq çiskinli idi. Bir az əvvəl baş vermiş güclü leysan yağışından hər yer öz qimətini almışdı. Havada yavaşca çiskinlik hökm sürürdü, həm də olduqca soyuq idi hava. Yaşar Dilarənin yolunu gözləyirdi ürəyində. “Bəlkə ürəyi yumşalıb, o da məni görmək istəyir” – deyə özünə təskinlik verirdi. O, söhbətə necə başlayacağını və Dilarənin reaksiyasını təsəvvür etməyə çətinlik çəkirdi. O, öz fikirlərini nizama salmağa çalışaraq, əllərini də pencəyinin cibində saxlayaraq nə qədər iki eyni nöqtəni var-gəl etdiyini unutmuşdu.

Birdən o yolun o tərəfində dayanan bir taksidən düşən Dilarəyə gözü sataşanda addımlarını dayandırdı. Onun niyə öz maşını ilə deyil, taksiylə gəlməyinə dair beynində suallar yaransa da, bu suallara cavab axtarmağa vaxtının olmadığınından imtina etdi. Bütün diqqətini Dilarəyə yönəldənYaşar onun yolu keçməsini gözlədi. Dilarə əlində tutduğu telefona iki gözünü də zillədiyindən onu yola ayıracaq diqqəti ancaq səthi baxışlarından ibarət idi. Elə bu zaman yolun o biri tərəfindən peyda olan

yüksək sürətlə hərəkət edən bir Hyundai markalı maşın başı telefona qarışan Dilarəyə çatmaqda idi. Yol yağışlı olduğundan əyləc sisteminin güclü tutmayacağını anlayan Yaşar dərhal yola şığıdı. Hər şey bir anda baş verdi. Yaşar ancaq yolun ortasında tormoz səsinə başını telefondan qaldıran Dilarəni var qüvvəsi ilə geri itələyə bildi, ancaq Yaşar maşının zərbəsinə sipər olmuşdu. Yerə yıxılan Dilarə əlindən gələn ancaq var qüvvəsi ilə qışqırmaq oldu. Artıq olan olmuşdu, zərbə sürətli olduğundan Yaşarı xeyli irəli tullamışdı. Yaşarı qan içində görən Dilarə özündən getdi. Yalnız zərbəni hiss edən Yaşar yerə düşdükdən sonra hissiyyatını keyidiyini anladı. Dilarənin səsi, insanların yüyürməsi uzaqda göstərilən mənzərələr kimi gəlirdi ona. Yavaş-yavaş göz qapaqalrı qapandı və hər şey hissedilməz oldu.

Yaşar gözünü açanda başının ağrıdığını və gözündən çəkilən ala-qaranlıq görüntüdən sonra yavaş-yavaş hərəkətə keçən hiss orqanları sayəsində yataqda uzandığını, qolunda sistem və şlanqların olduğunu anladı. Yavaş-yavaş baş verən hadisəni xatırlamağa çalışsa da bu çox çətin və beyinə əziyyət verən bir hiss idi. O, yalnız maşın, Dilarəni və ona dəyən zərbəni təqribi xatırlaya bildi. Sonrasını xatırlaya bilmədi. Onun ayıldığını hiss edən tibb bacısı cəld bayıra çıxıb, şad xəbəri onun ailəsinə verdi. Ailəsi də tibb bacısıyla birlikdə palayata daxil oldular. Onların içində Mahir də var idi. Onlar sevincindən bir-birlərini təbrik edir, göz aydınlığı edirdilər. Belə anlarda ilk muştuluq ana göz yaşlarından gəlir. Anası Xavər xanım sevincindən göz yaşlarını saxlaya bilmədi. Ana göz yaşları yağış damcıları kimi Allahın bəşəriyyətə bəxş etdiyi ən təmiz damcılardır. Çünki bu damcıların axmağından qorxan bir çox insanlar dünyada zalımlıqlar, amansızlıqlar etməkdən çəkinirlər. Ana göz yaşları öz ardınca yağışın göy qurşağı gətirdiyi kimi, dua gətirən yağışdır. Necə əksər güclü yağışlar özündən sonra səmaya göy qurşağı gətirərək xətt çəkirlərsə, ana göz yaşından sonra da çox vaxt səmaya iki əl açılır. Dua üçün. “Allahım, sənə çox şükür, çox şükür balamı mənə çox görmədin” – Xavər ana göz yaşı içində dilləndi.

- Çox şükür, ay Yaşar. Bizi çox qorxutdun. Özünü necə hiss edirsən? – Mahir tez soruşdu.

Yaşar danışmağa qorxurdu. Çünki o, fikirləşirdi ki, danışa bilməyəcək, sanki onun heç nitqi olmamışdı. Ancaq dilinin tərpəndiyini və nəsə söz qurmağa çalışdığını anladı. Deyəsən o, danışa biləcəkdir.

- Yaxşıyam, yüngül ağrıların var, ancaq qıçımı tərpədə bilmirəm. – Yaşar sağ qıçını göstərdi.

Bir anda bunun ətrafda susqunluq yarandı. Kimsə nə deyəcəyini bilmədi. Hamı Yaşarın gözlərindən baxışlarını qaçırdaraq bir-birlərinə gözucu baxdılar.

- Hə, Yaşar. Sağ qıçın bir balaca qırılıb, ancaq narahat olma, sağalacaq yavaş-yavaş. – Mahir özünü toparlayaraq cavabdan qaçaraq dilləndi – Başqa ağrın yoxdur? – Cavabdan qaçmağın ən yaxşı yolu sual verməkdir. Mahir bunu yaxşı bilirdi.

- Bir də elə bil burda ağrım var. – Yaşar qarın nahiyəsini göstərdi, elə bil nəsə var burda.

- Hə, bunlar müvəqqəti şeylərdir, olmalıdır belə şeylər. Keçəcək, inşallah. – bayaqdan susqun olan Zəfər kişi özünü toplayaraq dilləndi.

- Sizi deyəsən çox yormuşam. Bağışlayın məni, hamınız çox yorğun görünürsünüz.

- Yox, ay bala, yaxşıyıq hamımız. Sən ayıldın, bizə dünyanı verdin. Allahınköməkliyi ilə ayağa qalx, onda dünyanın ən xoşbəxti olacağıq.

Xavər xanım gözünün yaşını saxlaya bilmədi.

- Yaxşı, ay ana, bəsdi ağladın – Nərmin anasını sakitləşdirdi.

- Mənə fikir verməyim, mən anayam. Sevinəndə də ağlayaram, üzüləndə də.

- Mən deyəsən çoxdan bu vəziyyətdəyəm.

- Hə, hardasa on gün olar. Şükür ki, ayıldın.

- On gündür gör sizi necə intizarda saxlamışam. Bağışlayın. – Yaşarın gözləri doldu. Yaşar anlayırdı insanın edə biləcəyi ən böyük günahlardan biri ailəsini sevənləri üzməsi və incitməsidir.

O, ailəsinin bu on günü necə stres, həyəcan keçirdiyini təsəvvür etdi, onlar xəstəxana qapılarında qalın, xəstəxana xərclərini ödəmək üçün borca düşmüşlər. Üstəlik ortaya çıxan artıq söz-söhbətlə də üzləşmişlər, xüsusən onun yenə də Dilarə ucbatından başına iş açması onun ailəsində xəyal qırıqlığı yaratmışdı. Hə, Dilarə – birdən bu ad Yaşara yeni fikir burulğanı yaratdı, görəsən o necədir, yəqin qəzadan o zərərsiz çıxıb, axı Yaşar onu xilas edərək özü zərər çəkmişdi. Hə, o indi Dilarənin xilaskarı idi. Bunu xatırlayandaa o üzündə yaranan ani fərəh, sevincini gizlədə bilmədi. Yəqin ki, artıq Dilarə onun sevgisinə inanıb. Hər zərərdə bir xeyir var deyiblər. Bundan sonra Dilarəylə onun arasında bir bağ yaranacaq. Axı, o onu qorumuşdur. Bu, qadınların ən çox dəyər verdiyi hislərdən biridir.

- Xəstəmizi çox yormayaq – içəri daxil olan tibb bacısının bu sözləri Yaşarı fikirlərindən ayırdı. – indi iynələri vurulacaq, sonra da yatacaq.

- Axı biz indi girmişik. Qoy bir az balamı görüm. – Təbii ki, ana öz balasının yanında daha çox olmaq istəyirdi.

- Yaxşı, qızım. Biz çöldə gözləyirik. Hə, Xavər, çıxaq, qoy həkimlər işlərini görsün – Zəfər Xavəri çölə doğru apardı.

- Yaşar, biz çöldəyik, sən istirahətini et. Görüşərik yenə. – Mahir çölə doğru çıxarkən dilləndi.

- Mahir, sən bir dəqiqə qal, sənlə işim var. – Mahir Yaşara tərəf yaxınlaşdı. Yaşar astaca dilləndi:

- Mahir, o necədir?

Mahir onun kim olduğunu bilirdi. Bu sualı gözlədiyində cavabı da hazırlamışdı.

- Yaxşıdır, lap yaxşıdır. Sən sağalmağına bax, hər şey yaxşı olacaq.

Yaşar bu cavabla tam qane olmamışdı. Onun əslində soruşmaq istədikləri çox idi. Ancaq hardan bağşlayacağından utanırdı. O, bilmək istəyirdi ki, Dilarə onun yanına gəlib ya yox, ona görə narahat olub ya yox. Ümumiyyətlə hadisə barəsində nə fikirləşib, nə bilib. Əslində onun eşitmək istədiyi sözlər çox idi. Hamısı da, bu fikirlərin müsbət olmağı idi.

- Sən tam sağal, ayağa qalx, ətraflı söhbət edərik. Darıxma, hər şey yaxşı olacaq – Mahir bu soz sözdən sonra bayaqdan əlində iynə gözləyən xalatlı qızın qəzəbli baxışlarından yayınaraq aradan sivişdi.

- "Hər şey yaxşı olacaq" – Yaşar dodağının altında mızıldandı – "Görəsən Mahir nələri nəzərdə tuturdu? Onun burda yatdığı müddətdə nələr olmuşdu? Hissiyyatı, xəyallarından fərqli olaraq, qulağına yaxşı şeylər fısıldamırdı.

Yaşarın qəzasından sonra baş verənlər həqiqətən bir kinoya süjet olacaq qədər maraqlı idi. Hadisə zamanı yerə yıxılaraq kiçik cızıqlar alan Dilarə Yaşarı qanlar içində gördükdən sonra qışqırmaq özündən getmişdi. Köməyə gələn insanların yardımı ilə Yaşar xəstəxanaya qaldırılmışdı. Yaşarı xəstəxanaya aparan tibbi yardım ona yolda ilk yardım göstərmiş, qanaxmalarının qarşısını müvəqqəti almış, telefonu vasitəsilə yaxınlarına hadisə barədə xəbər vermişdilər. Yaşarı dərhal əməliyyata saldılar. Həkimin qoyduğu diaqnoz çox ağır idi. Qaraciyər partlaması, daxili qanaxma, sağ qıçın düz qapağının sınığı və bir neçə qabırğa sınığı. Onun vəziyyəti xeyli ciddi idi. Qabırğanın sınaraq qaraciyərə girməsi nəticəsində qaraciyər zədələnmiş sol hissəsi sıradan çıxmışdı. Reanimasiya şöbəsində xəstə üzərində dərhal əməliyyat aparılaraq qanaxmanın qarşısı alınmışdı. Sınmış diz qapağına mil ataraq giös qoyuldu, güclü zərbəyə məruz qalan və diz qapağı tamamilə deformasiya olunmuş Yaşarın bundan sonrakı həyatına axsaq qıçla davam edəcəyi görünürdü. Lakin, bundan daha təhlükəlisi qaraciyərin vəziyyəti idi. Belə ki, zədələnmiş qaraciyərin sol hissəsi təcili əməliyyat olunmalı və bərpa olunmalıydı. Yaşarın bundan sonra yaşamağı bu bərpadan asılı idi. Yaşara təcili donor lazım idi. Bəli, vəziyyət yalnız kiminsə Yaşara qaraciyərinin bir hissəsini verməsi nəticəsində düzələ bilərdi və buna görə də təcili axtarışlara başlanıldı. Bilindiyi kimi, donorlar 4 cür olur: 1. Qohum/ailə donor 2. Duyğusal/dost, sevgili 3. Fədakar (hər hansı xeyirxah insan) 4. Satılıq (pulla alınan). Bir də donorların əsas növlərindən biri olan olmuş insanın könüllü və ya xəstələrə bağışladığı donorlar hələ ölkəmizdə geniş yayılmadığından onu qeyd etmirik. Ailə və dostlardan, yaxın tanışlardan, qohumlardan götürülən analizdir. Yaşara uyğun gəlmədiyindən onlardan donor kimi istifadə etmək olmazdı. Əslində qaraciyər bizim ən sakit və vəfalı orqanımızdır. Çünki, bütün orqanlarımıza nəsə olanda tez, incik şəkildə bizə bunu bəlirtmək bizdən

əlavə diqqət, qayğı tələb edirlər, ancaq qaraciyər sonra qədər öz susqunluğumuzu qoruyaraq dözür, düzdü bu insan sağlamlığına sonradan baha başa gəldiyinə görə onu "qınamaq" da olar. Ancaq öz kəsilmiş hissəsinə başqasından pay qəbul edərək onun da yerinə təzədən özünü bərpa etmək xüsusiyyətinə də sahib yeganə orqan kimi, "vəfalı" adına layiqdir.

Bəli, Yaşarın da qaraciyərinin zədələnmiş hissəsinə kimsə "pay" verərək onu həyata qaytarmalı idi. Az bir zaman içində bu hadisənin baş verəcəyinə ümid az idi. Birdən "möcüzə"baş verdi. Həkimlər Yaşarın donorunu tapıb əməliyyat etdikdən sonra şad xəbəri Yaşarın ailəsinə verdilər. Bu onlar üçün ümidlərinin tükəndiyi bir vaxtda verilən ən gözəl xəbər idi. Ancaq onları maraqlandıran əsas sual donorun kimliyi idi. Ancaq onlara heç nə deyilmədi və bunun gizli saxlanılacağı bildirildi. Gözlənilməz "xilaskarın" kimliyi gizli saxlanıldı. Bu xilaskarın öz xahişi idi. O, kimsənin onun kimliyini öyrənməsini istəmirdi. Həkimlər Yaşarın həyatı təhlükəni atlatdığını, bir müddət sonra ayılacağını, tam sağalaraq ayağa qalxa biləcəyini, ancaq ayağının axsaq qalacağını da aiəsinə xəbər verdilər. Bu nə qədər üzücü olsa da, əsas sevindirici xəbəri – Yaşarın ayilacağı xəbərinin kölgəsində qaldı.

Həyatda bəzən belə olur, böyük sevinclərin içində olan kiçik kədərlər sıxıntı kimi görsənir. Bu müddət ərzində Dilarənin atası Mətin bəy xəstəxanaya gəlmiş, Yaşarın ailəsiylə görüşmüşdü. O, bu hadisələrdən çox üzüldüyünü, Yaşara təşəkkürünü ailəsinə bildirmiş, hətta xəstəxananın bütün xərcini üstləməyə çalışsa da, Yaşarın ailəsi buna razı olmamışdır. Daha sonra Yaşarın ayıldığını eşitdikdən sonra buna sevindiyini söyləmiş, ancaq Yaşarın qızı ətrafında bir daha görmək istəmədiyini ata qoruculuğu ilə demiş, Yaşarın ailəsini kiçik düşürəcək sözlər istifadə etmişdi. Əlbəttə, bu ətrafdakı insanlar tərəfindən "insafsızlıq" kimi görsənsə də, onun da özüylə bağlı haqlı əsaslarının olduğunu düşünürdü. Əlbəttə, bu qızını qorumağa çalışan ata hərəkətləri idi. Dilarə isə bu müddət ərzində nə xəstəxanaya gəlmiş, nə də Yaşarla maraqlanmışdı. Qarşılıqsız sevgilər dəstəksiz bıçağa bənzər, onu nə qədər möhkəm tutmağa çalışsan, o qədər özünə ziyan edərsən. Yalnız hadisəni eşidən Səidə bir neçə dəfə xəstəxanaya gələrək, Yaşarla maraqlanmış, ailəsinə ürək-dirək vermişdi. Buna görə də, Yaşar Mahirdən olanlar barəsində soruşadnda o, Yaşara nə cavab verəcəyini bilmirdi. Çünki cavablar sual verənin gözlədiyi cavablar olmayanda cavab verəndən ya yalan gəlir, ya da susqunluq.

**...**

Zaman hər şeyə dərman olur. Yəqin bu sözü hədsiz deməyiblər. Zaman insanın qəbuletmə gücünü artıran bir mexanizmdir. Qəbullanmaq hər kəsə aiddir. Çünki hər kəs qəbul etmədiklərini nə vaxtsa zamanla qəbul edir. Sadəcə bunun müddətinin uzun-qısalığı hər insanın özü gücündən və xislətindən asılıdır. Tanrı

sevimli bəndələrində müddəti qısa edir. İnsanın dəyişəməyəclərini gec qəbul etməsi bunun ondan başqa özünə qarşı heç kəs bacarmaz. Yaşar da sevimli bəndələrdən idi. Yaşar da sağaldıqca yavaş-yavaş hər şeyi öyrənir və qəbullanırdı. Bir cavan oğlan üçün gələcək həyatına axsaq qıçla davam eləmək nə qədər ağır olsa da bunu sevdiyi insanın xilası uğrunda eləməsi ona biraz təsəlli qüruru verirdi. Sevgi qüruru öldürür desələr də, əslində sevginin toxumunda qürur var. Çünki yalnız qürur sənə aid olmayan bir varlığın sənin varlığında birləşməsini istəyər. Ancaq bunu etdiyi insanın ona bir dəfə də baş çəkməyə gəlməməsi bütün insan qürurunu, mənliyini tapdalayırdı. Yaşarı əsas maraqlandıran iki məsələ var idi: Dilarənin niyə bura bir dəfə də olsun gəlməməsi və onun donorunun kimliyi. Yaşar sağaldıqca iradəsi də möhkəmlənir və o ayağa durmağa həyata qaldığı yerdən davam etməyə çalışırdı. Axı həyat marafonunda axsamaq ölmək deyil, dayanmaq ölməkdir. Əsas məsələ hərəkət etməkdir. Çünki bəzilərinin sürətlə qaçdığı yolu, bəziləri sadəcə yeriyərək ondan tez başa vururlar.

Yaşar özünə gəldikdən sonra onu palatadan çıxardıb evinə apardılar. Burada da bir müddət yataqda uzanıb, müalicəsini ev şəraitində davam etməli idi. Əlbəttə, xəstəxana xərcləri çox ağır idi. Bunları ödəmək Yaşarın ailəsinə çox baha başa gəldi. Evdə olan Xavərin bəzi qızılları satıldı, borc alına bilinənlərdən borc alındı, bəzi insanlar da kiçik yardımlarda bulundu. Mahir bacardığı qədər kömək etdi. O, Yaşarın dükanındakı malları da dəyər-dəyməzə əridib xəstəxana xərclərinə əlavə etdi. Artıq Yaşarın dükanı da təhvil verilmişdi. Yəqin ki, Yaşar ikinci dəfə gəldiyi bu həyatda özünə yeni iş yeri də tapmalı idi. Yaşar əslində ən çox fikir etdiyi məsələlərdən biri maddi sıxıntıya saldığı ailəsi idi. Tezliklə, ayağa durmaq, işləmək, maddi sıxıntıya saldığı ailəsinə yardım etmək istəyirdi. Beləcə günlər keçib gedirdi. Artıq Yaşar tamamilə sağalamışdı. Günlərin bir günündə onun yanına bir qonaq gəldi, bu Səidə idi. Onun gəlişi Yaşarı həddən çox sevindirdi. Bu gözəl ürəyə sahib qızın xəstəxanada da onun yanına bir neçə dəfə baş çəkdiyini Yaşara demişdilər. Əlbəttə, Yaşarı sevindirən başqa bir məsələ, Dilarə barəsində ondan nəsə bir məlumat almaq idi. Bəlkə Səidə özüylə Yaşarın arzuladığı hansısa bir xəbər, söz gətirmişdi. Səidə özünəməxsus gülərüzlülük və pozitiv enerjisiylə bir müddət Yaşarla söhbət edib, onun səhhətiylə maraqlandı. Həqiqətən, bəzi insanlar var ki, onların yanında insan sadəcə deyib gülmək istəyir. Səidə də belə insanlardan idi. Bir xeyli söhbətdən sonra Yaşar nəhayət çoxdan fikirləşdiyini Səidədən soruşdu:

- Səidə, o necədir? Xəbərin yoxdu?
- Yaxşıdır, salamı var. – Səidə bu sözü çətinliklə, sanki hörmət etdiyi insana yalan demək məcburiyyətində qalmış kimi dedi.
- Yəqin sən deyən kimidir. Sağ olsun. Səidə, narahat olma, mənim fikirləşməyə çox vaxtım olduğundan artıq bəzi şeyləri mənə çox da təsir etmir.

Sadəcə anlamağa çalışıram. İnan ki, mənə yalan danışmağın düz deməyindən daha çox ziyandır.

- Yox, Yaşar. Həqiqətən, sözün doğrusu, mən sənə ondan bir şey gətirmişəm. Ancaq yenə də sənin xətrini istədiyimdən istəmirəm sən bu qədər üzüntüdən sonra yenə üzüntü çəkəsən. Ancaq görürəm şükür yaxşısan, sənə həqiqəti deyəcəyəm. Səninki qarşılıqsız sevgidir, Dilarə sənə qarşı heç bir hiss bəsləmir. Düzdür, indiki dövrdə sənin kimi qəlbdən sevən oğlan çox qıza rast gəlmir. Ancaq vəziyyət budur. O, səni sevmir.

Bu sözləri Səidə çox çətinliklə də olsa Yaşarın üzünə baxmadan söyləyə bildi və çantasından bir bağlama çıxardıb ona uzatdı:

- Al bu bağlamanı, sənə göndərib. Sənə nə qədər qəribə gəlsə də, demək XXI əsrdə də məktub yazan olurmuş, mən də özümü lap çapar hiss etdim – Səidə üzündə süni gülüş yaradaraq Yaşarı az da olsa güldürmək istədi.

- Çox sağ ol, inan ki, həqiqətləri eşitməyin məni incitməz, əksinə doğruları bildiyim üçün sanki rahatlaram. Səidə, özümlə bacara bilmirəm. Mən belə zəif, gücsüz olduğumu bilmirdim, bir an olsun belə onu qəlbimdən çıxara bilmirəm.

- İnan ki, sənin ona bəslədiyin sevgi XXI əsrdə çox az rast gəlinən sevgilərdəndir. Sən lap Məcnun olmusan – Səidə çətinliklə də olsa gülümsündü.

- Hə, axsaq Məcnun – Yaşar bu sözü gülərək desə də içindən gələn kədər aydın seçilirdi.

Bəzən yaralı insanın yarasını qaşımaq ən böyük zövqünə çevrilər, çarəsizlikdən və qolda yaranan bir kəsiyin qaysağını sağalmadan qopardan insanın qolunda çapıq saxladığı kimi, dərdin də hər dəqiqə yaddan çıxarmağa çalışaraq yada salan insan daxilində izlər buraxar. Yaşar Səidənin susduğunu görüb:

- Yaxşı, zarafat etdim. Mən artıq öyrəşmişəm.

- Yaşar, bilirəm sənə çətindir. Ancaq artıq bu məsələylə beynini yorma, çalış ki, unudasan, həyat davam edir.

- Əlbəttə, həyat davam edir. Əldən başqa bir şey gəlmir onsuz, bütün olanları qəbullanmaqdan başqa çarə yoxdur.

- İnanıram ki, sən öhdəsindən gələrsən, bütün bu olanlar da ilişib qalmayaraq, yenidən yoluna davam et.

- Hansı yol, məgər gediləcək bir yol qalıb ki?

- Bəzən yolu tapa bilməyəndə, gərək özün yeni yol açasan. Sən tarixçi olsaydın, yəqin Hannibalın bu sözünü bilərdin. O, hamının Aralıq dəniziylə getdiyi Romaya Alp dağlarıyla şimaldan daxil olub qələbə çaldıqda bunu demişdi.

- Mən də tarixi sürmüşəm. Bir də Yuli Sezarın bir sözü var - "Bütün yollar Romaya aparır". Elə deyil? Yaşar yenə də hazırcavablığını göstərdi.

- Yox, bu söz işində sən güclüsən, sənə çatan olmaz. Yaxşı, mən gedim. Dilarənin göndərdiyi bu bağlamanı almayacaqsan? – Səidə yenə bağlamanı Yaşara

uzatdı. Yaşar çətinliklə olsa da aldı. Bağlamanın üstündə bir məktub da var idi. Yaşar ilk öncə məktubu açdı və ürəyində oxudu:

“Salam, Yaşar. Necəsən? Sənə ilk öncə olanlara görə, mənə qarşı etdiyin hərəkətə görə, həyatını xilas etdiyin bir qəhrəmalıqdır və bunu az insan edə bilər. Sənə allahdan şəfa diləyirəm və yenidən sağalıb öz həyatına davam etməyini arzulayıram. Şükür allaha, hər şeyi arxada qoymusan, inşallah, bundan sonra həyatında yalnız xoş şeylər olar. Mən yenə də köhnə söhbətləri edib, səni də, özümü də, dilxor etmək istəmirəm. Bütün olanları unutmağı sənə təklif edirəm. Sanki, əvvəlki kimi biz bir-birimizi heç tanımamış kimi sənə bəlkə məni başa düşmək çətin olacaq. Ancaq bu belədir. Heç kəs başqa bir insanı başa düşə bilməz, çünki onu başa düşmək üçün gərək onun yerində olasan, yaradanın kainatda qoyduğu ən böyük qanunlardan biri iki ünsürün eyni zamanda, eyni məkanda ola bilməməsi qanunidir. İndi deyəcəksən lap Eynşteyn kimi danışırsan ancaq indi mənim yerimdə olsan məni başa düşə bilərsən, bu da mümkün deyil. Sən indi mənim niyə bir dəfə də olsun sənə baş çəkmədiyimi fikirləşirsən. Mən səninlə açıq danışacam. Artıq adımın səninlə bir yerdə anılmasını istəmirəm, nə mən, nə də ailəm. Özün bilirsən, bizdə bir subay qızın kimləsə adı çıxmağı düzgün deyil. Yəqin ki, sən mənim xəyallarımdakı “ağ atlı şahzadə” deyilsən. Buna görə də bir-birimizi məşğul etməyək. Necə deyərlər, xoşbəxt etməyəcəksənsə məşğul da etməyəsən. Mən həyata real baxmağı xoşlayıram. Bizim birlikdə olmağımız qeyri-mümkündür. Xahiş edirəm, məni az da olsa başa düş. Bir də bir-birimizin yoluna çıxmayaq. Bizim bir yerdə ola biləcəyimiz yer yalnız xəyallardır. İnsan çox insanın xəyalında olsa da, bir insanın realında ola bilər. Bağlama da sənin üçün 10 min manat pul qoymuşam. Qorxma, heç kəs bilməyəcək. Pis başa düşmə, sadəcə bu, mənə görə etdiyin bəzi şeyləri qaytarmaq üçün kiçik bir üzrxahlıq hədiyyəsidir. Bilirəm sənin xasiyyətində olan bir insana bu bəlkə təhqir kimi gələ bilər, ancaq sənə borclu qalmaq istəmirəm. Bunu mənim xətrimə götür, inan ki xilas etdiyin həyat buna dəyər. Çox sağ ol, sənə yeni həyatında uğurlar”.

Yaşar məktubu oxuyub qurtaranda artıq Səidənin çöl qapını sakitcə örtüb, pilləkəndən düşdüyünü eşitdi. O, onun ardınca gedib nəsə demək, ya da bağlamanı geri qaytarmaq istəsə də bu fikirdən daşınıb sakitcə öz fikirləriylə tək qaldı.

**...**

Günlər keçir, artıq Yaşar tamamilə sağalmışdı. Düzdür ona əvvəl-əvvəl axsayaraq çölə çıxmaq çətin olsa da, o, bunu etmək məcburiyyətində olduğunu anlayaraq, çölə addım atdı. Ən çətini ilk adıım olur, insan addım atdıqdan sonra hər yolu gedə bilir. Əgər gediləcək başqa yolu yoxsa. Yaşar ilk əvvəl bazara yollandı. Əvvəlki yerinin təhvil verildiyindən bazarda işləyən tanışlarının yanında satıcı kimi işləməyə razılaşdı. Ancaq bu iş yeri çox böyük olduğundan burda iş çox idi. Bütün

günü Yaşar ayaqüstə qalıb müştəri qəbul etməli, malları yerləşdirməli idi. Yaşar dükanın yük daşıma və yerləşdirmə kimi çətin işini öz üzərinə götürmüşdü. Bəzən insanın boş dayanan kimi gəlib ona hücum çəkən fikirləri, dərdləri başından etmək üçün daha çox fiziki iş görürlər ki, fikirləri yayınsın. O, işlədikcə öz iradəsini tənzimləyərək sızıntılardan azad olmaq istəyirdi, ancaq Yaşarın sağlamlığı da özünə diqqət tələb edirdi. Yaşar Dilarənin göndərdiyi bağlamanı açmayaraq evin bir yerində qoymuşdu, münasib bir vaxt tapıb bunu onun özünə qaytarmaq istəyirdi. Bəli, Yaşar bunu etməli olduğunu və son dəfə sınmış qürurunu düzəltməyə çalışmalı idi. Həqiqətən bu həyat dedikləri acı həqiqət yığınıdır. O, bir az da aranı toparlayaraq bu qonşulaşmaya dik getmək və Dilarənin gözünün içinə baxmaq istəyirdi. Yenə də Yaşarın fikirləri içində ümid xəyalları doğulurdu. O, nə etsə də, Dilarəni düşünməkdən özünü saxlaya bilmirdi. O, bəzən belə fikrə özünü inandırmağa çalışırdı ki, Dilarə bəlkə bu məktubu evdəkilərin təzyiqi ilə yazıb, bəlkə onu xəstəxanaya da gəlməyə ailəsi qoymayıb.  Bəlkə elə donorum Dilarənin özüdür, nə bilmək olar. Bəlkə mən bu qədər xoşbəxtəm, canından çox sevdiyim insan mənə can verib, ancaq mən bundan xəbərsizəm. "Yalançı ümidlər" bəzən insan hislərinin ən zülmlüsüdür. Yox, yox. Ancaq həqiqətlər tez göz önünə gələrək dərhal ondan bu çılğın ümid xəyallarından ək çəkərək onlarla üzləşməyini istəyirdi. Dilarə can verən yox, can alan canan idi. Ancaq yenə də hər şey onunla bir dəfə də qarşılaşmağa dəyərdi. Yaşar buna getdikcə daha çox ehtiyac duyurdu. Çünki, insanın bəzən ən böyük ehtiyacı içindəki suallara cavab tapmaq ehtiyacıdır. Dilarəni görmək, onun səsini eşitmək istəyirdi. Nəhayət Yaşar bağlamanı da götürərək yenə həminki yerdə Dilarəni gözləməyə başladı. O, düzgün etmədiyini, qürurunu yenə ayaqlar altına atdığını yaxşı bilirdi, ancaq özüylə bacara bilmirdi. Yaşar qəzanın baş verdiyi yerdə onu gözləyirdi. Bununla o, olanları bir daha Dilarəyə xatırlatmaq, onda insaf oyandırmaq istəyirdi. Bunun düzgün olmadığını  içində bilsə də, bəzən içimizdəki şeytan heç bir izah tələb etmədən yerində asicə durur.

Həmişəki kimi Dilarə diqqətçəkən yerişi və geyimi ilə orda peyda olanda Yaşara qabağında görməyinə təəccübləndi, tutularaq dilləndi:

- Salam, necəsən, Dilarə? Narahat etdiyimə görə bağışla, ancaq məndə sənin olan lazımsız bir şey var.
- Çox sağ ol, Yaşar. Şükür, yaxşı görünürsən. Nədir o lazımsız şey olar?
- Mən sənə bunları qaytarmaq istəyirəm. Məncə buna ehtiyac yoxdur. – Yaşar bağlamanı ona uzatdı.
- Sözün doğrusu, qaytaracağını bilirdim. – Dilarə bağlamanı snki lazımsız bir şey kimi əlində fırladaraq dedi – Mən hələ Səidəylə qaytaracağını düşünürdüm, fikirləşdim yəqin, qəzadan sonra gözün açılıb. Eybi yox, istəmirsən, qalsın.
- Deməli, sən mənim belə bir şey qəbul etməyəcəyimi bilə-bilə yenə mənim təhqir etmək üçün bunu göndərmisən? – Yaşar yavaş-yavaş əsəbi soruşdu.

- Yaxşı, Yaşar. Yalandan əsəbləşməyin, yeri yoxdur. İstəmirsən, verdin, hə, indi sağ ol.

- Axı mən bunu pula görə etməmişəm. Sən məni belə etməklə təhqir edirsən. Mən etməli olduqlarıma görə pul almaram.

- Yaxşı, yaxşı. Yenə bu içi boş ədəbiyyat cümlələrini demə, elədiklərini də gözümə soxma. Pul vermək təhqir yox, təltifdir. Mən səndən bunu etmək üçün xahiş etməmişəm. Sənə söz-söhbət, ucuz şou lazımdırsa ya bəlkə daha çox pul lazımdırsa o başqa. – Dilarə Yaşarı başından etmək üçün get-gedə daha ağır sözlər deyirdi.

- Dilarə, mən bu cür sözlərə layiq deyiləm. Sən də içində bilirsən belə olmadığını, niyə belə ağır sözləri dilinə gətirirsən – Yaşar Dilarəni yumşaltmağa çalışdı. – Bunu qaytarmağım xətrinə dəyirsə, bağışla. Heç bir minnət də yoxdur. Dilarə, mən yenə əvvəlki hislərimdə sənə qarşı təmizəm. Bir an olsun belə ağlımdan çıxmırsan. Mən hər şeyi əvvəlki qaydasına qoyacam. Əgər allah qismətimə səni yazıbsa mən bir ümidlə də gözləməyə hazıram. – Yaşar özü də hiss etmədən artıq sevgi dilənçisinə dönürdü. Bu dilənçilər də heç nə əldə etməyən tək dilənçilərdir.

- Hə, inşallah – Dilarənin Yaşarın qıçına baxış atıb dediyi bu sözdə Yaşar lağlağını hiss etsə də, özünü bilməməzliyə qoydu. Çünki gözəl qızların sifətində meydana gələn cizgilər gözlərinin dərinliklərində yerləşən təkəbbürlə birləşəndə onlara özlərində hər sözü deyəcək qədər və hər nəyə nifrət edəcək haqq verirlər.

- Nə, Yaşar, sən yenə o söhbətdəsən? Axı mən sənə hər şeyi, bizim heç vaxt birlikdə ola bilməyəcəyimizi məktubda açıq-aydın sənə izah etdim. İstəyirsən üzünə də deyim. Mənim sənə qarşı heç bir hissim yoxdur, bizimki heç vaxt alınmaz. Niyə anlamaq istəmirsən axı. – Dilarənin çox əsəbləşdiyi artıq əl-qol hərəkətlərin də də aydın hiss olunurdu. Dilarə artıq Yaşarı başından etmək üçün daha ağır cümlələr istifadə edərək onu acılamaq istəyirdi. Əllər hərəkətə gələndə dil də yerində durmur və hər sözü deməyə özündə cürət tapır. Yenə gözləmədiklərini eşitmək onu çaşbaş salmışdır.

- Nə qismət, nə söyləyirsən? Sən lap çər etdin. Hər halda bir topala yazılmış qismətim yoxdur. İncimə, Yaşar, bunu sən istədin. Mən topala gəlinlikdə yeriməyi heç özümə rəva bilmirəm. – Dilarə bir anda dayandı. Deyəsən o, indi nə dediyini anladı və çox qabağa getdiyini başa düşsə də, artıq geriyə yol yox idi.

Yaşar bir anlıq boğazından gələni udub özünü saxladı.

- Hə, de sözünü. Niyə demirsən? Bunu sən istədin, xoş sözlər anlamaq istəmirsən. Eybi yox, qoy mən insafsız olum, heç olmasa sənin kimi səni istəməyən bir insandan etdiyim yaxşılıq müqabilində sevgi dilənmirəm. Bu ayağım da məndən sevgi dilənmək üçün, bəziləri kimi metro qabağında mərhəmət dilənmək üçün istifadə edə bilərsən.

- Allah mənim balamı versin. Niyə mən özümə hörmət etməyib, sənin kimi ... belə sözlər eşidirəm. – Yaşar yumruqlarını sıxıb Dilarəyə vurmayıb, elektrik dirəyinə yumruq vurdu.

Qarşımızdakı insanlar üçün qalxmış əllərimizi onlara qıymayanda əllərimizə qıyırıq.

- Bravo, sən mənə gücünü göstərirsən, bəlkə məni vurasan, yoxsa məni qorxudursan? Bu xəbərdarlıq atəşidir?
- Bilirsən, Dilarə, sən heç nəyə layiq deyilsən. Nə isə, sağ ol. Bir daha qarşına çıxmayacağam. Buna tam əminəm.
- İnşallah, inşallah.

Elə bu an Orxan yenə hardansa peyda oldu.

- Dilarə, nə olub. Niyə burda qalmısan, yenə bu oğlan səni narahat edir? – Yaşarı göstərərək soruşdu.
- Yox, ikimizdə də bir-birimizə aid olan bəzi şeylər var idi, onları qaytardıq – bunu deyib Dilarə Orxanın əlindən tutub evə doğru çəkdi. Orxan Dilarəylə gedə-gedə deyinirdi ki, niyə bu oğlanı yaxınına buraxır.

Yaşar da yavaş-yavaş evlərinə doğru addımlamağa başladı. Atdığı hər addım da axsayan qıçı ona Dilarənin sözlərini yada salır və onu bir az da alovlandırırdı. O, qıçına yumruğunu vuraraq sanki ondan hər şeyi korladığına görə hesabat istəyirdi. Axsaq biriylə kim olmaq istəyərdi ki. Axı, bu qıç onu şikəst, topal qoyaraq bəlkə nəvaxtsa Dilarə ilə birləşəcəyi yolu bağlamışdı. Ancaq qıçına vurulan hər yumruqdan sonra sanki qıçı ona deyirdi ki, "axı, o bu yolu birləşdirmək üçün belə olub". Nəyə görə o belə alçaltdı özünü, öz qürurunu ayaqları altına atdı. Yaşar sadəcə qaçmaq istəyirdi uzaqlara, ancaq bacarmırdı. Kor məhəbbətin cəzasını topal qıç çəkməliydi.

**...**

Sevgi o biri üzündə nifrət gizlədən bir medaldır sanki. Bu medalı boynuna asmış insan bəzən nə qədər qürurla irəliləsə də bəzən özü də bilmədən boyuna asılan medal o biri üzünə dönür. Və insan yaşadıqca bir insanı sevəcəyi və nifrət edəcəyi müddəti deyə bilməz. Yaşar Dilarəylə son görüşündən sonra ona nifrət bəsləyirdi. Nifrət insanı təkmilləşdirən bir hisdir. Bəzən insan özü də hiss etmədən nifrətiylə böyüyür, uca olur. Nifrət olan qəlbdə sevgi də var və sevgi olan qəlbə nifrət də nəvcaxtsa baş çəkəcək. Çünki bunlar bir yuvada məskən salır. İnsan bəzən sevgisi ilə yaşayır, nifrəti ilə böyüyür. Yaşar öz işində az-çox uğurlar əldə etmişdi. Onun işgüzarlığı və işini yaxşı bilməsi, düzgünlüyü müdriyyətin diqqətini çəkmişdi. Yaşara bir anda əlavə işlər verilmiş, maaşı artırılmışdı. O, arada Şamil kişinin yanına gedir, onunla söhbətləşirdi. Mahirlə də işdən sonra fikrini dağıtmaq üçün harasa gedirdi.

Yaddaşımız bəzən xatirələrin yuvası, utanclıqlarımızın abidəsi olur. Burada bizi süründürən də, üzən də olur. Yaşar yaddaşında baş verənləri bəzən ona kimi gətirirdi.

Bəzən o əvəz çıxmaq, ən böyük istəyi olan – intiqam almaq istəyirdi. Bəzən də sadəcə hər şeyi unutmaq istəyirdi. Əlbəttə, bunlar ikisi də ağır idi. İnsan özünə qarşı olanları nə kinə döndərəcək qədər çox düşünməli, nə də hər kəsi tanımayacaq qədər unutmalıdır. Adətən, biz yanımızda olan insanların yox, olmayanların etdiyi haqsızlıqları çox fikirləşirik. Yaşarın düşündüyü məsələlərdən biri də onun donorunun kimliyini hələ də bilməməsi idi. Düzdür, o, belə fikirləşirdi ki, bunu edən ətrafındakı yaxınlardan biri edib və onu üzməmək üçün ondan gizlədirdilər. Ancaq nə qədər sorğu sual etsə də, heç kim heç nə bilmədiyini deyirdi. Həkim bu adamın adının gizli qalacağını bildirmişdi. Yaşar ona ikinci həyat vermiş insanı görmək, tanımaq istəyini özünə mənəvi borc bilirdi. Bunun üçün o bir neçə dəfə xəstəxanaya getmiş, donorunu tanımaq istədiyini söyləsə də, bir nəticə əldə etməmişdi. Bir gün Yaşar dükanda olduğu zaman dükana Yaşarı əməliyyat etmiş Mehman həkim gəlir. O, peşəsini sevən vicdanlı həkimlərdən idi. Yaşar ayılandan sonra onu bir neçə dəfə ziyarət etmiş, onunla şəxsən maraqlanmışdır. Yaşarla səmimi görüşdükdən sonra səhhətiylə yenə maraqlandıqdan sonra özünə aid bir neçə paltarı da Yaşarın köməyi ilə seçib aldı. Yaşar həkmin ödəniş etməyinə icazə verməyərək bunu öz üzərinə götürdü.

- Yaxşı, çox sağ ol, oğlum. Ancaq sən işçisən, burda mən də sənin müalicə edəndə pul almışam. İcazə ver, özüm ödəyim.

- Yox, Mehman həkim. Onsuz sizin aldığınız pulda nə qədər güzəştə getməyinizi bilirəm. Bu məndən sizə bir pay olsun. Siz mənim həyatımı xilas etmisiniz.

- Çox sağ ol. Sənə baxarkən çox sevinirəm ki, öz işimi şərəflə görərək daha bir insan həyatını qurtarmışam. Bir həkim üçün bu ən böyük hədiyyədir. Əlbəttə, o qız olmasaydı... – Birdən Mehman həkim cümləsini yarıda qoydu. O, deməməli olduğu bir cümləni demişdi.

- Hansı qız, mənim donorum, düzdürmü? – Yaşar həyəcan dolu baxışlarla həkimin gözünün içinə baxdı. Deyin görüm axı o qız kimdi?

- Heç kim. Nə isə, mən gecikirəm, Yaşar. Gedim artıq. – Həkim Yaşara əl uzadaraq onunla sağollaşmaq istədi. Yaşar onun əlini buraxmayaraq bütün diqqətiylə baxışlarını ona zillədi. Ancaq cavab gözləyən bu baxışlardan həkim yalnız yayınaraq qurtulmaq istəyirdi.

- Mən bunu bilməliyəm, həkim, sizdən xahiş edirəm. Yalvarıram sizə, onun kim olmasını deyin mənə. Mən artıq ətrafdakı hər kəsdən şübhələnirəm, axı bu mənim haqqımdır, mən ona həyatımı borcluyam, bəlkə onun da nəyəsə ehtiyacı var. Mən borcumu qaytarmaq istəyirəm. Borclu köçmək bu həyatdan yəqin ki, heç kəsin

arzusu deyil. Həyata familliyini ən yaxşı bilən insanlardan biri bəlkə də sizsiniz. Mən bunu bu yaxınlarda lap gözəl anladım.

- Yaşar, səni başa düşürəm. Ancaq sən məni pis vəziyyətə qoyursan. Birincisi, bu tibbi sirdir. Xəsətəxanadan icazə vermirlər donorun adının deyilməsinə. İkincisi, bu onun öz xahişi və bir şərti olub.
- Başa düşmürəm, kimdir bu mələk, mənim qoruyucum. Həkim, söz verirəm ki, bu aramızda qalacaq – Yaşar israrla həkimi buraxmaq istəməyərək yalvardı.
- Axı siz pis bir sirri açmısız, istəyirsiniz diz çöküm yalvarım, mənə onun kim olduğunu deyin. Sizcə burda pis nəsə var? Əlinizə vicdanınıza qoyun – Yaşar bütün vasitələrdən istifadə edərək Mehman həkimi razı salmağa çalışırdı.
- Yaşar, axı bu insana qarşı haqsızlıqdır. Onun xahişi var, adının bilinməməsi ilə bağlı. Sən həmin insana yaxşılıq eləmək istəyərkən pislik eləmək istəyərsən. Özün də bilmədən onun xahişini tapdalayırsan – Həkim deyəsən geri çəkilənə oxşamırdı
- Təsəvvür edirsiz, mən daim bu qızın adını fikirləşəcəyəm. Bu, mənim sağlamlığıma da ziyandır. Sizin təzədən can verdiyiniz sağlamlığım – Yaşar əsil psixoloq kimi həkimi ən həssas yeri olan – sağlamlığa toxunmağa çalışırdı.
- Yaxşı, Yaşar, lap uşaq kimisən, istəmirəm özünə zərər verəsən. Səni anlayıram. Söz versən ki, bu aramızda qalacaq gedib onu narahat etməyəcəksən, deyərəm.
- Söz verirəm. Siz mələk kimi insansınız.
- Musayeva Humay – Həkim bu adı dedikdən sonra cinayət eləmiş cinayətkar kimi dərhal hadisə yerindən uzaqlaşmağa çalışdı.

Musayeva Humay – Yaşar dərhal bu adla bağlı olan hər şeyi yaddaşının künc-bucağıdan toplayaraq xatırlamağa çalışdı. Bəli, o bu qızı tanıyırdı. Bu onun sinif yoldaşı Humay idi. Dovşandodaq Humay. O, dovşandodaq doğulmuşdu. Hələ birinci sinfə gələndə digər uşaqlar ondan qorxmuşdular. Balaca, qarayanız, qıvrım saçlı, uzun burun – ona lap qorxunc görünüş verdiyindən heç kəs onunla bir partada oturmaq da istəməmişdi. İllər keçdikcə də bu qanun kiçik pozuntuları nəzərə almadan dəyişilməz qaldı. Bəziləri müəllimin göstərişi ilə onunla məcburən bir partada otursa da çox keçmədən yerlərini dəyişirdilər. Çünki Humayın sifətinə baxmaqdan özünü yayındıra bilməyən parta yoldaşı onu da, özünü də pis vəziyyətə qoyduğunu anlayırdı. 11-ci sinfə qədər o, hətta lövhə qarşısına çıxmamağa çalışırdı ki, uşaqlar ona baxmaq məcburiyyətində qalmasınlar. Ona görə də, o, əlaçı şagird olmaqdan əl çəkdi, baxmyaraq ki, onun savadı, beyni və həvəsi var idi. Lakin buna baxmayaraq, o, çox savadlı, ağıllı bir qız idi. Onun həyatı olduqca çətin keçmişdi. Humay Moskvada doğulmuşdu. Atası Gürcüstan azərbaycanlısı, anası bakılı idi. Onlar bir-birlərini sevib evlənmişdirlər. Ancaq ailənin əsas dirəyi, özəyi olan körpələri dünyaya qüsurlu

gəldikdə onlar buna çox məyus olmuşdular. Humay dovşan doğulmuş, eyni zamanda ürəyi zəif döyündüyündən bir müddət xəstəxanada müşahidədə tutulmuşdu. Əlbəttə, qüsurlu və xəstə bir qız uşağına sahib olmaq hər iki valideynin fikir və qayğılarını artırır, onları daha aqqressiv edirdi. Bir ildən sonra onların daha bir qızı doğulur. O, Humaydan fərqli olaraq sağlam və gözəl bir uşaq idi. Ancaq, həmişə olduğu kimi, şad xəbərlərin ardınca həmişə onları bəd xəbərlər də izləyir. Bir neçə aydan sonra, Humayın anasının ürəyində ciddi qüsur olduğu üzə çıxır. Qüsur ciddi olduğundan ona müalicənin də xeyri olmadı və o, tezliklə həyatdan köçdü. İki qız uşağına baxmaq məcburiyyətində qalan Humayın atası bir qərar qəbul edir. O, Humayı Azərbaycana yalqız yaşayan qaynanasının yanına göndərdi. Almaz xala Bakıda tək yaşayan, hardasa 60-65 yaşlarında olan bir xanım idi. Onun tək övladını itirdikdən sonra başqa heç kəsi qalmadı. O, yoldaşını 15 il bundan qabaq elə bu yaşadığı iki otaqlı mənzildə son mənzilə də yola salmışdı. Bu mənzil Yaşargilin binası ilə üzbəüz binada yerləşirdi. Pensiya pulu ilə dolanan Almaz xala qızının ölüm xəbəri və ardınca yetim qalmış qız nəvəsinin gəlişi gözlənilməz oldu. Ömrünün ahıl yaşlarında qulluğa ehtiyacı olan bir insanın qayğılarıyla baş-başa qalması çətin idi. Ancaq Almaz xala qızının yadigarı ilə birlikdə yaşayacağından heç də üzülüb qorxmurdu. Humayın atası Almaz xalaya məktub yazaraq ondan qızına baxmağı xahiş etmiş, onunla bağlı tapşırıqlar vermiş və imkan olduqca hər ay müəyyən məbləğ göndərəcəyini demişdir. Almaz xala qüsurlu qız nəvəsini görəndə bir az üzülsə də, özünü tez ələ almış və onu qarşıda uzun bir yolun gizləndiyini anlamışdı. Beləliklə o, əllərini çirmələyərək Humayı böyütməyə başlamışdı. O, bacardığı qədər Humayı heç nədən geri saxlamamağa çalışırdı. Ancaq, yaşlı bir qadının baxa biləcəyi qədər o, Humaya baxa bilərdi. Humayı məktəbdə kirli üst-başda görənlər onu pinti hesab etsələr də, əsl həqiqətləri bilmirdilər. Bilmirdilər ki, Humayın onlar kimi saç darayan, saç yuyan, paltar ütüləyən anası olsa və ya cürbəcür gözlə paltar alan atası olsa o, heç də pinti olmaz. Ümumiyyətlə, insanlar tam bilmədikəri həqiqətlər haqqında öz fikirlərinə uyğun həqiqətlər yerləşdirməyi xoşlayırlar. Məktəbi qurtardıqdan sonra da heç kəsin Humaydan xəbəri olmadı. Əlbəttə, o, test imtahanları vasitəsilə ali məktəbə daxil ola bilər və tələbə ola bilərdi. Buna onun savadı imkan verirdi. Ancaq, o, bunu istəmədi. Əvvəla, artıq nənəsi tamam qocalıb, əldən düşmüşdü. Artıq Humay onun qeydinə, qayğısına qalmalı idi, ona qulluq etməli, işləməli və dərmanlarını almalı idi. Hələ atası uşaqkən bir neçə dəfə pul göndərdikdən sonra daha pul göndərməyi kəsmiş, onları allahın ümidinə buraxmışdı. Onlar yalnız Almaz xalanın pensiya kartının ümidinə qalmışdılar. Humay beləcə bir cür, bir təhər yaşamağı və böyüməyi bacarmışdı. Onların varlığı haqqında heç kəsin sanki xəbəri yox idi. Hətta qonşu baca da burada iki insanın yaşadığını bilir, ancaq onlarla ünsiyyət yaratmırdılar. Humay bəzən belə fikirləşirdi ki, bu onun fiziki qüsuruna və eybəcər olmasına görə idi, hətta insanlar ona görə nənəsinə də yaxınlaşmır, ünsiyyətdən qaçırdılar. Kim bilir, bəlkə də

bu belə idi. Axı insanlar qoca və kimsəsiz insana kömək etməyi həmişə xoşlayır, bunu savab kimi dəyərləndirirdilər. Ancaq bəzən üfunət içinə qızıl tapmağa girən insanlar da özlərindən asılı olmayaraq burunlarını tutmağa və sifətlərini turşutmağa məcbur olurlar. Buna görə, bəlkə bu eybəcər qızı qadına görməmək üçün insanlar bu evi də, qoca qadına da yanaşmırdılar. Əlbəttə, allah bir tərəfdən aldığının yerinə başqa tərəfdən daha çox verir. Belə olmasa, torpağının üstündə gül belə bitməyən çöllərin, səhraların altında neft yataqları verib, orda yaşayanları sevindirməzdi. Humaya da allah qüsuruna baxmayaraq sağlam təfəkkür, düşüncə vermişdir.

O, uşaq vaxtı tez-tez depressiyaya düşsə də, içində həyata, insanlara nifrət yaransa da, üsyan bayrağı gəzdirsə də, böyüdükcə zamanla həyatı anlayır, bununla barışır və hər kəsi başa düşməyə çalışırdı. İnsan kamilliyə çatmaq üçün gərək xoşbəxtliyə çatsın. Xoşbəxtliyə çatmaq üçün də düşüncəyə, razılaşmaya çatsın. Razılaşma həyatla əldə olunmalıdır. Çünki həyatda hər həqiqət hər insan üçün müxtəlifid. Bunları dərk etməyin yolu onlarla razılaşmaq, barışmaqdır. Kimisə başa düşmək üçün bəzən özünü onun yerinə qoymaqda bəs etmir. Bunun ən yaxşısı hər kəsi olduğu kimi qəbul edib onunla razılaşmaqdır. Bununla da insan bütün insanlarla əbədi sülh və razılaşmaya nail ola bilər içində. Bu razılaşma insanı həyatı anlamağa və daha başqa suallar axtarmamağa gətirir. Sualın olmadığı yer. Bax, bu əsl xoşbəxtlikdir.

Hər şeyə, hər nəyə verilən ən böyük cavab, yalnız içində sualı olmayan insan xoşbəxt ola bilər. Humay böyüdükcə artıq suallar vermədikcə xoşbəxt olurdu. Buna görə də, o, böyüdükcə artıq özünə baxır, səliqəsinə, geyiminə fikir verirdi. Zamanı xeyrinə istifadə edən insan rahat və xoşbəxt ola bilər. Artıq zamanı öz xeyrinə döndərmək istəyirdi. Onun tələbə olmaq istəməməsinin digər səbəbi də yenidən sinif ortamına düşmək və narahat baxışlarla üzləşməmək idi. Axı tələbə qızlar çox vaxt gözəl görsənirlər. O, təndirxanaların birində işə düzəlmişdi. Yüksək istilikdə, bütün günü işləmək xüsusi bir dözüm tələb edirdi. Ancaq o dözümlüyünü isə məsuliyyəti və təmiz işləməyi ilə tezliklə iş yerində özünə hörmət qazandı. Belə yerdə məvaciblər başqa yerlərə baxanda yüksək idi. Bu yəqin buranın əziyyəti və hər kəsin işləyə bilməyəcəyini bir yer olduğuna görə idi. Burdan qazandığı pulla o, həm özünə, həm də nənəsinə baxır, ayaq üstə dayanmağa çalışırdı. Onun həyatında iş, nənəsi və oxuduğu kitablardan başqa bir şey yox idi. Və bir də hər birimiz kimi həyatımıza yerləşdirə bilmədiyimiz insanları xəyalımızda baş rol verib yaşatmaq, Humay üçün də xəyalının baş rol qəhrəmanı uşaqlığından Yaşar olmuşdu.

Humayın yaşadığı evin pəncərələri binanın parkına baxırdı. Həyətə düşüb parkda uşaqlarla oynaya bilməyən balaca qızcığaz həmişə bu pəncərə qabağında dayanıb onları izləyirdi. Hələ balaca bir oğlanı hamıdan çox onun diqqətini çəkmişdi. Özündən asılı olmayan bir hiss ona daima bu uşağı izləməyi, ona baxmağı sanki məcbur edirdi. O, ancaq o uşaq həyətə düşərkən, oynayarkən onu uzaqdan izləyirdi.

Birinci sinfə gedəndə o, inanmadı ki, bir təsadüflə uzaqdan izlədiyi bu oğlanla eyni sinifdə oxuyacaq. Deməli, tanrı hələ də ondan bu insana daha yaxından baxmağını istəyirdi. Sinif yoldaşları arasında hamının qınaq dolu baxışları arasında arxa sırada oturan Humay daim qabaqda oturan Yaşarı izləyirdi. O, çox vaxt sinifə hamıdan tez gələr, Yaşarın oturduğu paltarı təmizləyər, sonra yerinə keçərdi. Qəribədir ki, ona elə gəlirdi ki, sinifdə yalnız Yaşar var, yalnız o, digərləri kimi ona ürküdücü baxışlarla baxmır. Axı bu insanda özünə qarşı nəsə bir doğmalıq hiss edir, yaxud da belə olmasını istəyirdi.

Həqiqətən, Yaşar sinifdə yeganə insan idi ki, ona heç vaxt pis baxışlarla baxmamış, ümumiyyətlə baxmamağa çalışmışdı. Bəzən uşaqlar onu lağa qoyanda, hər kəsə acıqlanmış, "allahın yaratdığıdır" – demişdir. Hətta bəzən Humayın yanında da əyləşmişdir, bu Humayı çox həyəcanlandırmış, daxili sevincini artırmışdı. Yaşar da sinif-sinif böyüdükcə bütün oğlanlar kimi əvvəlcə can atdığı qabaq partalardan, indi arxa partalara can atırdı. Bəzən müəllimlərdən gizlənmək üçün arxa partalar şagirdlər üçün sığınacaq olur. Burda bəzi gizli işləri görmək şagirdlərdə asan hesab olunurdu. Belə vaxtlarda o, arxada oturan Humayın yanında da bir neçə dəfə oturmuşdu. Bəli, izlədiyi insanın ona belə yaxın olduğu, uzaqdan baxdığının yaxında olması Humayı çox həyəcanlandırmış, daxili sevincini artırmışdı. Və artıq sevginin uşaqlıq, ilk mərhələləri olan qorumaçılıq, növbəti məhəbbət, istək mərhələləri ilə əvəz olunurdu. Zaman irəlilədikcə sevgi də dəyişir. Hətta bayramlarda belə hamının yadından çıxan Humayı bir tək Yaşar təbrik edərdi. 10-cu sinifdə oxuyanda Humay çoxdan içində saxladığı bu vulkanın partlamasının qarşısını ala bilmədi. Bəzən içimizdə o qədər xəyallar, planlar qurarıq ki, bunlar üst-üstə yığılar və heç gözləmədiyimiz bir yerdə çölə fışqırar. Bunun da ilk alovları əvvəlcə bizi, sonra başqalarını yandırar. Vulkanın ilk alovunu dağının ətəyi alır. Humay məktəblərdə çox vaxt kişilər bayramı kimi qeyd olunan, bəlkə də tarixi heç məktəblilər tərəfindən o qədər də dərk etmədikləri bir gündə bir hədiyyə alıb Yaşara verdi. Belə günlər çox vaxt içlərində hislər gizlətmiş insanların münasibətlərini bildirmək vasitələrindən biri olan bir gün hesab olunurdu. Humay nə qədər çalışsa da Yaşara verdiyi hədiyyəni heç kəs görməsin, bu alınmadı. Onun Yaşara aldığı saatı görən bəzi sinif yoldaşları bunu bütün məktəbə yaydılar. Bununla da, onlar bunu sinifdə lağlağı obyektinə çevirdilər: "Dovşandodaq Yaşarı sevir", "Bərəkallah, dovşandodaq", "Leyli və Məcnun" və s. kimi lağlağılar, zarafatlar sinifi alıb götürdü və Yaşarı ala bu atmacaları bezdirdi. O, belə bir vəziyyətin yaranacağını gözləmirdi. O, özü həmişə hazırcavablığı və digər uşaqları lağa qoymaqla məsxərə etməklə məktəbdə tanınırdı. Ancaq o, indi özü məsxərə obyekti olmuşdu. Buna görə də, o, özünə və Humaya bərk əsəbləşdi. Dovşandodağı özünə çox yaxın buraxdığına görə özünə çox hirsləndi. Axı digər oğlanlar kimi o da fikirləşirdi ki, məktəbin gözəl qızları onu sevsin, ona hədiyyə alsın. O, dovşandodağı ürəyində söysə də, bunu üzünə deməmək üçün özünü zorla

saxlayırdı. Ancaq sinfin içərisində onun verdiyi saatı pəncərədən tullamaqdan özünü saxlaya bilmədi. Onun fikrincə, bu hərəkət dovşandodağa dərs olar və bir daha ona yaxınlaşmaq cürətini özündə tapmaz. Əslində Humay da belə etdi. O, etdiyi hərəkətdən çox peşman olmuş və ömrünün ən bpyük səhvini etdiyini düşünmüşdü. Axı, o, Yaşarı gülüş obyektinə çevirmiş, onu əsəbləşdirmişdi. Yaşar onun qəhrəmanı idi, özü də yaraşıqlı qəhrəmanı və qəhrəmanlar həmişə gözəl qızlarla, şahzadələrlə birlikdə olurlar, daha onun kimi qüsurli eybəcərlə yox. Axı o, Yaşara layiq deyildi. Yaşar onunla necə birlikdə görünə bilər. Humay bundan sonra Yaşara doğru bir dəfə də baxmayaraq onu yalnız xəyallarında yaşatdı.

Tezliklə bu hadisə unuduldu. Son zəng tədbirində belə iştirak etməyən Humay demək olar ki, heç kəsin yadına da düşmədi. Ancaq bundan sonra da Yaşarın universitetə getməyini, sonra əsgərlikdən gəlməyini və daha sonra işə gedib gəlməyini o, yenə də pəncərə arxasıdan sakitcə izləmişdi. Uşaqlıqdan instinktə çevrilən bu hərəkətini o, tərgidə bilmirdi. Məktəbdən sonra o bir dəfə də Yaşarın qarşısına çıxmamış, Yaşarın da heç yadına da düşməmişdi. Ancaq qəzadan sonra Yaşarın başına gələnləri öyrənən Humay onun vəziyyəti ilə maraqlanmış və donora ehtiyac olduğunu eşitdikdə özünü saxlaya bilməmişdi. O, Yaşarı qorumalı olduğunu özünə artıq təlqin etmişdi, öyrətmişdi. Buna görə də, o, hər şeyə hazır idi. O, xəstəxanaya gəlib, gizlincə həkimlə danışıb analiz verdi. Analizlər uyğun çıxdıqdan sonra o, heç kimin bilməməyi şərtiylə Yaşarın donoru olmağına razılıq verdi. Həkim onunla razılaşmaq məcburiyyətində qaldı. Əməliyyatdan sonra o, Yaşarın sağaldığı xəbəri eşitdikdən sonra həkimə çox minnətdar olduğunu bildirərək bu sirrin aralarında qalacağı şərtiylə, özü də tam ayağa durduqdan sonra xəstəxananı yenidən öz həyatına qaldığı yerdən davam etməyə çalışdı. Bir müddət əvvəlki iş yerində səhhətiylə əlaqədar işləyə bilmədi, sonra yenidən tam sağaldıqdan sonra işinə davam etdi. O, özünü çox xoşbəxt hiss edirdi. Çünki uşaqlıqdan aşiqi olduğu insanı həyata qaytarmışdı. Bəzi insanlar, özümüz də bilmədən, bizi bildiklərimizdən çox istəyərlər. Humay hardasa 3 il bundan qabaq yeganə sirdaşı nənəsini itirmiş, heç kəsi olmadığından o, nənəsinin meyitini tək götürmək məcburiyyətində qalmışdı. O, danışmağa ehtiyac duyduğu anda nənəsinin qəbri üstə gələr, bir az ağlayıb, içini boşaldıb gedərdi.

Yaşar bu adı eşidəndə  bütün olanlar, keçənlər beynində canlandı. Bəli, o, Humayın hislərini məktəb vaxtı hiss etmiş və həmişə içində "kül başına, Yaşar, gör səni kim istəyir" deyib, özüylə məzələnmişdi. Artıq həyat səni istəyənlərin deyil, sənin üçün kimin nədən keçəcəyinin vacib olduğunu göstərmişdi. O, başqasından sevgi dilənərkən, onun üçün canını verən insan var imiş. Bu günə qədər günha işlətmədiyini fikirləşən Yaşar Humaya qarşı məktəb vaxtı etdikləri yadına düşdükcə ən böyük günah sahibi olduğunu anladı. Bəzən layiq olmaq aşiq olmaqla deyil, sadiq olmaqla ölçülür. Deməli, bu qız hər kəsin "dovşandodaq" deyib ələ saldığı ona hər

kəsdən daha sadiq imiş. Uzaqdan sevmək yaxından incitməkdən daha dəyərli imiş. Yaşar tez Humayla görüşmək, onunla söhbətləşmək və ona çox sağ ol demək istəyirdi. Ancaq dərhal həkimə verdiyi söz yadına düşdü. Ancaq bu ehtiyac anbaan böyüyür, əsl tələbata çevrilirdi. O, bunu özünün ən böyük vicdan bprcu hesab edirdi. O, bu borcu ödəməsi üçün Humayın qarşısına çıxmalı və əsl vicdan imtahanını verməliydi. Bunu etmədən yəqin həyatına davam etməyin mənası yox idi.

...

Yaşar Humayı tapmağa elə də çox vaxt sərf etmədi. Yaxşı tanıdığı binaların komendantından Humayı təsvir edib soruşduqdan sonra onların evinin dəqiq ünvanını öyrənib ora yollandı. Qapıda zəngin olmadığını gördükdə anladı ki, gəlib-gedəni çox olmayan insanların heç qapı zənginə də ehtiyacı yoxdur. Çünki, qapını onsuz da döyən insan nadir hallarda olur. Yaşar qapını bir neçə dəfə döydü. Birdən əvvəlcə "gəlirəm" səsi, sonra da ardınca açılan qapı onları illər sonra üz-üzə gətirdi. Bu o idi. Humay. İlləri onu çox da dəyişməmişdi. Sadəcə böyütmüşdü. Həmin qıvrım saçlar, balaca çuxura düşmüş kimi görünən qara gözlər, uzunsov çənə və o məşhur dodaq. Bəli, dodağındakı çapıq onu hər kəsin dovşandodaq adlandırmasına səbəb olmuşdu. Yaşarın qarşısında xarici görkəmin hamının gördüyü, bildiyi eybəcər bir qız dursa da, daxili gözəl, təmiz olan bu qızı isə az insanı tanıyacağı (birinin də Yaşar olduğu) insan durmuşdu. Yaşar yol boyu nə deyəcəyini çox fikirləşsə də o nədən başlayacağını bilməyərək tutuldu. O fürsətdən istifadə edərək komendantdan Humayın nənəsinin öldüyünü və tək yaşadığını da öyrənmişdi. O, nəhayət özünü ələ alaraq soruşdu:

- Salam, necəsən? Narahat etmirəm? Olar içəri keçim? Sənə deyəcəklərim var.
- Salam, yaxşıyam. Buyur – təəccüblə yerində donub qalan Humay qeyri-iradi Yaşarı evə dəvət edərək ardınca qapını örtdü və ona yer göstərdi.

Yəqin ki, qapını açmağa gələndə belə sürprizlə qarşılacağını gözləmirdi. O, məktəb illərindən sonra heç vaxt Yaşarı bu qədər yaxından görməmiş, onunla üz-üzə gəlməmişdi. Yaşarı indi birdən-birə qapıda görəndə tutuldu qaldı. Ancaq şüuru onun burda qəfil peyda olması haqqında dərhal bir mülahizə ona verirdi. Yəqin o, hər şeyi öyrənib, yoxsa başqa heç bir qüvvə onu bura gətirə bilməz. Humay içindəki hisləri tamamlaya bilmirdi. Çünki bir tərəfdə Yaşarı qarşısında görmək sevinci, digər tərəfdə sirrinin açılması qorxusu və narahatçılığı vardır. Kim bilir bəlkə o, elə məktəb illərində baş vermiş o hadisədəki kimi, bu hərəkəti özünə qarşı Humayın etməyini təhqir biləcək və onu danlayacaqdır. Axı niyə də yox. Uşaqlığından bəri, qəhrəmanı adlandırdığı bu yaraşıqlı oğlanın arzuladığı başqa bir insanın donoru imiş bəlkə. Ancaq artıq onun qəhrəmanı da onun kimi fiziki qüsurlu olması – axsaması onu

üzürdü. O, hər şeyi eşitmişdi. Yaşarın Dilarəyə aşiq olması, onun üçün özünü təhlükəyə atmasını, hər şeyi bilirdi və qəlbində dua edirdi ki, qoy onun qəhrəmanı layiq olduğuna – şahzadəyə, gözəl qıza qovuşsun. Əlbəttə, sevən insan sevdiyi ilə birgə xoşbəxt olmaq istər, bu da hər bir gənc qız kimi pnun arzusu idi. Ancaq o, bu arzunu xəyal hesab etdiyindən sevdiyini xoşbəxt görməklə təsəlli tapa bilərdi. Əsas odur, sevdiyin xoşbəxt olsun, səninlə olmasa da olar – deyə fikirləşərək Humay Yaşarın xoşbəxt olmağını istəyirdi. Xoşbəxtlik edə bilməyəcəksənsə, xoşbəxt olduqları yerdə gərək buraxasan. Axı, xoşbəxtlik xoş sözündən yaranır. Deməli, bir insanın xoşbəxtliyi ona xoş olanlara olmasından asılıdır, fərqi yoxdur, bu ziyanlıdır, yoxsa xeyirli. O, Yaşarın Dilarəyə olan sevgisindən ziyan çəkdiyini görürdü, ancaq ona bu xoş idisə, Humaya da onun üçün dua eləmək qalırdı. Çünki Yaşar Humayın gözündə o qədər uca idi ki, o, yalnız Dilarə kimi gözəl qıza yaraşa bilərdi. Özünü isə onun yanında təsəvvür belə etmək istəmirdi. Bu ancaq gözəl mənzərəyə "ləkə" ola bilərdi.

- İnşallah, narahat etmədim – Yaşar Humayın göstərdiyi yerdə oturaraq çox alçaq səslə dilləndi.

- Yox, narahat olmayın, qoy mən bir çay gətirim. – Humay mətbəxə doğru getmək istədi.

- Yox, lazım deyil. Görürsən səninlə "sən", "mən"lə danışıram, sən də mənimlə belə danış – Yaşar gülümsəyərək Humayın həyəcanını, təlaşını aradan qaldırmaq istəyirdi.

- Yox, elə indi dəmləmişəm, bu dəqiqə gətirəcəm – Humay tez mətbəxə cumdu.

Yaşar bu anda evə nəzər saldı. Ev sadə köhnə mebellərdən ibarət idi.Televizor, masa və köhnə divan-kreslo. Evin əsas özəlliyi hərə tərəfində çoxlu kitabların olması idi. Hətta servant da qab-qacaq yeri kitab idi. Yaşar gözucu baxıb anladı ki, bu kitabların əksəriyyəti bədii kitablar idi. Humay deyəsən maaşının çoxunu kitab almağa xərcləyirdi. Bu an Humay əlində bir stəkan çayla gələrək onun qabağına qoydu. Sonra qəndqabının yaddan çıxartdığını anlayaraq yenidən mətbəxə yürüdü. Yolüstü ayaq barmaqlarını masanın qırağına vurdusa da, özünü toparlayaraq qəndqabını mətbəxdən alıb gəldi.

- Humay, gör neçə ildir səni görməmişəm. Şükür, yaxşısan, səni yaxşı görürəm.

- Çox sağ ol, sən də yaxşı görünürsən – nəhayət Humay həyəcanını boğaraq danışa biləcəyini anlayırdı.

- Sayəndə. Bu gün ayaq üstəyəmsə, bu sənə görədir. Axı nəyə görə sən həyatını mənim üçün təhlükəyə atdın? Mən sənin borcundan necə çıxacağam, necə təşəkkür edəcəyimi bilmirəm. Sənə borcluyam – Yaşar danışdıqca Humay utancaqcasına başını aşağı salıb, gözünü yerdəki xalçaya sanki o xalçanın ilmələrinə

sayarcasına diqqətlə zilləmişdi. Adətən insan deyiləcək sözləri olmayanda belə eləyir – Humay, mən hər şeyi öyrəndim – Yaşar Humayın başını qaldırıb nəsə deyəcəyini, nəyəsə etiraz eləyəcəyini hiss edərək ona barmağını dodağına qoyaraq susmaq işarəsi verdi və sözünə davam etdi. – Bilirəm, sən bunu kimsənin bilməsini istəməmisən, ancaq mən bunu öyrənməliydim, bilirəm Mehman həkim mənə çox əsəbləşəcək ki, bunu sənə dedim. Mən ikinci dəfə yaşadığım həyatımın səbəbkarının kimliyini bilməli, xilaskarımın tapmalı idim. Çünki, mən xilaskarımın az da olsa, borcundan çıxmasaydım, bu dünyadan nakam köçərdim, özün də görürsən də ölümlü dünyadır, insanın başına hər şey gələ bilər. Məni başa düşürsən də. Mən bunu etməliydim.

- Allah etməsin – nəhayət Humay dilləndi. Çünki insan sevdiyi insanla ölüm sözünün bir arada çəkilməsinə heç vaxt sakit dayana bilməz.
- Yox, Humay. Allah edəndə edir. Bunun şahidi oldum. – Yaşar çayından bir qurtum alaraq sözə davam etdi. – Sənin adını eşidəndə ilk öncə son olsam da, sonra gözümün önünə məktəb illəri gələndə, bunun heç də təsadüfi olmadığını anladım. Çünki, mən həmişə dərsə gələndə, silinmiş stolumu, partamı, bəzən sinifdə çirkli qoyduğum idman ayaqqabılarımın gizlincə kim tərəfindən təmizləndiyini bilirdim. Bunlar yadıma düşdükcə, bugünə qədər sənə nə qədər haqsızlıq etdiyimi və sənin mənim üçün etdiklərini görməməzlikdən gəldiyimi gördüm. Məktəb illərində sənə qarşı etdiyim bütün haqsızlıqlara görə səndən üzr istəyirəm (yəqin ki Yaşar burda hədiyyəni tullamasını işarə edirdi).
- Əstəğfürullah, nə üzr, mən bunların hamısını içimdən gəldiyinə görə etmişəm. Buna görə də, mənə minnətli olmağını istəmirəm. Böyüdüləcək bir şey yoxdur. Mən özümü xoşbəxt etmək üçün bunu etmişəm. Buna görə sənin mənə borcun yoxdur. Bunu belə düşünsən mən sevinərəm. Sənin minnət duymağını istəmirəm. Əgər bununla sənin qüruruna toxunmuşamsa, bağışla. – deyəsən, Humay hələ də özünü günahkar hesab edirdi.
- Sən deyəsən, məni utandırmaqla öldürmək istəyirsən. Nə qürura toxunmaq, nə üzr. Deyəsən, əvəzini belə çıxırsan – Yaşar daha bir təbəssüm dolu ifadə ilə bir az söhbəti isnişdirmək istədi.
- Xeyr, Yaşar. Mən öz halımdan, vəziyyətimdən razıyam. Şükür, özüm də işləyirəm, heç nəyə ehtiyacım yoxdur. Əsas odur, sən sağlam ol, həyatına davam et, onda mənim borcumu artıqlamasıyla qaytararsan, onda mən xoşbəxt olaram.
- Düzdür, mənim sənin borcunu ödəməyə güclü imkanım yoxdur, ancaq söz verirəm, həyatım boyu çalışacağam ki, səni yaxşı yaşatmaq üçün əlimdən gələni edəcəm.
- Bilirəm – Humay istəmədən Yaşar haqqında məlumatlara sahib olduğunu ona bildirdi – İnşallah, olar. Varlılığınla bəzən həll eləyə bilmədiyi problemlər olur – Humay də deyəsən hər kəs kimi yarasını qaşımaqdan həzz duyurdu.

- Əlbəttə. Məsələn, sənin kimi bir gözəl ürəyə, məncə, heç bir pul ilə sahib olmaq olmaz.

- Çox sağ ol, Yaşar. Sənin belə ürəyə ehtiyacın yoxdur. Çünki, sənin ürəyinin də təmizliyini mən çoxdan görmüşəm. Bir də xahiş edirəm, bu "çox sağ ol" söhbətini bitirək.

- Əvvəllər bəlkə də, ancaq indi ürəyimdə kin, nifrət, qisas, nə desən var. – Yaşar əliylə ürəyini göstərdi.

- Üzülmə, mən sənin ürəyindəki sevgi hissinin hər kəsə çatacaq qədər olduğunu bilirəm, inşallah o qızla da problemlərin həll olunar – Humay bunu deməklə Yaşar anladı ki, Humay onun haqqında hər şeyi bilir, can verdiyi insanın başqası ardınca can atmağını, sürünməyini görmək və onlar üçün dua etmək insanda böyük ürək tələb edir. Bağışla, dilimi saxlaya bilmədim. – Humay peşmancasına nəsə ayıb bir söz demiş kimi dilləndi

- Görürəm, məndən fərqli olaraq, sən mənim haqqımda hər şeyi bilirsən. Nə bilim, bu işin məncə inşallahı qalmayıb. – Yaşar danışdıqca Humay utandığından qızarır, başını aşağı salıb, qulaq asırdı.

- Niyə həmişə ümid olan yerdə inşallah var? Əgər həqiqətən də ona sevgindən əminsənsə, geri çəkilmə, sonuna qədər get. Sonunda o da sənin sevginə qarşılıq verəcək – Humay sevdiyi insana başqa bir qadının sevgisi uğrunda mübarizə aparmağı dedikcə gözlərini divana zilləyib deyirdi.

- Nə bilim, bu barədə sonra söhbət edərik. Mənim bura gəlişimin əsas səbəbi sənə təşəkkür etmək və sənin üçün edə biləcəyim bir şey varsa, borcumu az da olsa ödəmək istəməyimdir. Əgər sənin üçün zərrə qədər nəsə eləmiş olsam, özümü xoşbəxt hiss edərəm.

- Yox, borc yoxdur. Demin axı, şükür heç nəyə ehtiyacım yoxdur. Özümü qane edəcək hər şeyim var, əgər nəyəsə ehtiyacım olsa deyərəm sənə.

- Hə, çox şükür, bir daha çox sağ ol. Xahiş edirəm, bax, nəyə ehtiyacın olsa, mütləq məni xəbərdar et.

- Narahat olma, olsa deyəcəm.

- Yaxşı, mən çox vaxtını almayım – Yaşar ayağa durdu – artıq qapını da tanıyıram, nömrəmi də bura yazmışam, nəsə lazım olsa, ürəyin istədiyi vaxt yığa bilərsən – Yaşar ayağa qalxıb, cibindən bir kağız çıxardıb Humaya uzatdı – Nəsə lazım olsa ürəyin istədiyi vaxt yığa bilərsən.

- Çox sağ ol, Yaşar – Humay kağızı alıb, onu qapıya tərəf yola saldı.

Yaşar ayaqqabılarını geydikdən sonra başını qaldırıb dedi:

- Humay, bundan sonra mən sənin qardaşınam. Nəyə ehtiyac olsa, deyərsən. – Yaşar bunu deyib, qapını örtüb, çölə çıxdı.

Onun ardınca qapını örtən Humay qapının soyuq dəmirinə kürəyini söykəyərək fikrə getdi. Ürəyində Yaşarın ona dediyi "qardaş" sözünü bir neçə dəfə təkrar edib,

göz yaşlarını saxlaya bilmədi. Əlbəttə, hər bir qızın həyatda sahib olmaq istədiyi ən böyük varlıqlardan biri də qardaşdır. Ancaq sevdiyi insanın ona “bacı” deməyini heç bir qız istəməz. Bir qadın üçün canından çox sevdiyi bir kişinin ona, “bacı” deməsi böyük zülm, əzab da bu idi. O, xəyal etdiyi qəhrəmanının ağzından bir sıra gözəl söz yerinə “bacı” sözünü eşitdi.

...

Yaşar Humayın yanından çıxan kimi beyninin fikirlər burulğanı olduğunu hiss etdi. O, ancaq bu halda bir yerə gedə bilmədi. O, birbaşa Şamil kişinin yanına yollandı. O, Şamil kişiylə görüşdükdən sonra stul çəkib əyləşdi. O, çatanda Şamil kişi indicə bişirdiyi yeməyi qaba çəkirdi. Yaşar ona ünvanlanan yemək təklifindən imtina edərək sakitcə stula oturdu. Şamil kişi astaca yeməyini yeməyə başladı.

- Hə, Yaşar. Söhbət et, yenə deyəsən başın yaman dumanlıdır.
- Hə, heç demə. Mənim başıma gələn kimin başına gəlsə, yəqin ordan heç duman çəkilməz. Harda qeyri-adi nəsə varsa, gəlib məni tapır.
- Yenə nə olub, başladın gileylənməyə.
- Bugün həyatımın ən böyük günahıyla üzləşdim. Bugünə qədər bilmədiyim günah.
- Bütün günahlar bilmədən olur, çünki insan hər zaman etdiyinin düz olduğunu fikirləşir. Buna görə fərdlərə görə səhv yoxdur. Səhv yalnız cəmiyyətə görə olur. Yəni, əgər bir insan bir hərəkəti edibsə, onu düz hesab etdiyi üçün edib. Burada zaman, məkan amili önəmlidir. Yəni, şüurlu insan heç vaxt bilə-bilə səhv edə bilməz, səhv sonradan zaman, məkan dəyişəndə ortaya çıxa bilən və elədiklərimizə qoyula bilən diaqnozdur.
- Hə, ancaq biz səhvlər, günahlar insanın xisləti, xasiyyəti ilə bağlıdır. Bu da eynidir, dəyişən deyil.
- Niyə belə fikirəşirsən? İnsanın əksər xasiyyətləri dəyişməsə də bəziləri zamanda tərbiyə oluna bilər. Bunu unutma. İndi danış görüm nə olub? – Yaşar içində yığılıb qalan və onu boğan, bayaqdan bölmək istədiyi cümlələrin hamısını danışdı.

Şamil kişi bütün deyilənlərə qulaq asdıqdan sonra Yaşara ürəyində haqq verib, “həqiqətən qəribə işlər bu oğlanı tapır” fikirləşdi. Yaşarın Humay haqqında hər şey danışması bütün baş verənlər və belə ürək sahibi olan bir qızın etdikləri həqiqətən insana təsir etmək gücündə idi.

- Yaşar, şükür allaha ki, onun sevimli bəndəsisən ki, sənin qarşına belə bir insan çıxıb. Deməli qarşımıza “can alan”larla birgə “can verən”lər də çıxa bilər. Burda özünü günahlandırmanın yeri yoxdur. Heç kəs insanın heç nədən quru görünüşlə belə sevməz. Yalnız istəyə bilər. Bəli, bir insan üçün fədakarlıq edərcəsinə sevmək üçün gərək onun ürəyinə vurulasan. Görünən odur ki, bu qız istəməyib,

sevib. O da yəqin ürəyinin gözəlliyini gördüyü üçündür. Görünür ki, bu qız sənin ürəyinə aşiq olub, özü deyib axı, özümü belə xoşbəxt hiss edirəm. Burda üzüləcək bir şey yoxdur. Bir də, şükür allaha,  özü də səhhəti də yaxşıdır.

- Var, Şamil əmi, var. Bu həyatda qarşılığını verə bilmədiyin ən böyük yük məhəbbətdir. Mən bu qızın sevgisinin qarşılığını verə bilmərəm və buna görə də həmişə ona borclu qalacağam.

- Bəzi sevgilər qarşılıqsız daha sağ, ülvi, təmiz, gözəl olur. Həm də sevgi alver deyil ki, aldığının hesabını o dəqiqə verəsən. Əsl sevgi borcunu heç vaxt istəmir, faiz tələb etmir, vaxt qoymur. Cəza vermir, ancaq gözləyir.

- Yox, Şamil əmi, bu ümidsiz sevgidir. Bu, qaytarılmayacaq borc kimidir, onu gözləmək də xəyal qırıqlığı gətirə bilər. Mən onu heç vaxt sevə bilmərəm. Bilirsən, yadındadır, sənlə keçən dəfə söhbət edəndə sən dedin ki, insanlar üçün əsas xarici görünüşdür, daxilə sonra fikir verirlər. Ondan mən sənin səhv olduğunu düşünmüşdüm. Ancaq bugün gördün ki, sən düz deyirsən. Mən Humayla bugün üz-üzə gələndə ən çox bu barədə fikirləşdim. Budur qarşımda daxili gözəl, saf ürəyə, mənə qarşı ürəyində böyük bir sevgi bəsləyən bir qız var, ancaq heç onun üzünə baxa bilmirəm, çünki onun xarici görünüşü eybəcərdir. Bəs hanı ədalət, haqq? Axı gərək əslində mənim ürəyim ancaq onu istəsin, belə gözəl xasiyyətə malik bir insan görmüşkən, məncə, bu tanrının bizə ən böyük əziyyətidir ki, insanlar başqa canlılar kimi eyni formada deyil, müxtəlif formalarda yaradılaraq onlara gözəllik və eybəcərlik təsirləri bəxş olunan sima, görünüş verilmişdir.

- Məncə, sən nəyisə unudursan, bizə digər canlılardan fərqli, daha artıq nəsə verib. Bu şüurdur. Şüurumuzda gözümüzdən gələn siqnalları qəbul edir. Bunda əsas məsələ gözdür. Yəni necə baxmağın önəmlidir, qarşındakının necə olmağı deyil. Nə gördüyün görünəndən vacibdir. Sən gözünü nəyə necə baxmağa, hər şeydə düzgün olmağa yönəltsən, hər kəs belə etsə, bax, ədalət budur. Ədalət hər kəsin eyni gördüyünün deyil, eyni görmək istədiyidir. Məsələn, bir ağac hər kəsə başqa formada görünə bilər. Dülgərə yaxşı məhsul kimi, səyyaha kölgəlik kimi, quşlara daldanacaq kimi, rəssama mənzərə kimi, dindara ilahi təcəssüm kimi. Bəzən də həyatdan bezmiş bir insana dar ağacı kimi görsənə bilər.

- Axı, deməyim odur ki, ümumi qəbul olunmuş gözəllik, eybəcərlik bə üçündür?

- Bilirsən, bir Şərq hekayəsində deyilir ki, bir dəfə gözəlliyə eybəcərlik çayda çimirmişlər. Birdən eybəcərlik sudan tez çıxıb gözəlliyin paltarın geyinir, qaçır. Gözəllik  nə qədər onu çağırsa da, eybəcərlik geri qayıtmır, gözəllik məcbur qalıb eybəcərliyin paltarını geyir. O vaxtdan insanlar gözəlliklə eybəcərliyi səhv salmağa başlayıblar. Bəzən eybəcərlik libasına girmiş gözəllik, bəzən gözəllik donunda gizlənmiş eybəcərlik qarşımıza çıxa bilər. İnsanlıq bunları səhv

salmamaqdadır. Görürsən, bu məsələ hələ lap qədimdən alimləri, filosofları düşündürmüşdür.

- Təsadüfə bir bax, ikisi də mənim qarşıma çıxıb. Mən neyləyəcəimi bilmirəm. Eybəcərlik donunda gözəllik çıxıb, bir də gözəllik libasında eybəcərlik. Bəlkə bu libası birindən alıb o birinə keçirim?!
- Hə, bax, bu çətin məsələdir. Məncə sən seçimini eləməlisən.
- Mən Humaya qarşı, bilirəm, heç nə hiss edə bilməyəcəm. Onu da, özümü də aldatmağın yeri yoxdur. Həm də, bilirsən, mən ona dedim ki, məni özünə qardaş bilsin.
- Hə, sən lap qıza əməlli-başlı zülm etmisən.
- Neyləyim. Açığını deyim ki, bütün elədiklərimdən, mənə dediklərindən sonra mən yenə də Dilarəyə qarşı içimdə nəsə hiss edirəm. Bilirəm, bu yalançı ümiddir. Ancaq yenə də nə isə ümidim var.
- Hədər deməyiblər. İnsan hislərindən ən sonda öldüyü üçün insana ən çox zülm verəni ümiddir.
- Hə, deyəsən bunu Nitşe deyib, oxumuşdum. Nə idi, "gözəllik qurban tələb edir, amma eybəcərlik özü qurban olur". Ən yaxşısı, iki seçim arasında qalanda ikisini də buraxıb yola davam etməkdir. – Yaşar bunu deyib ayağa qalxdı – Yaxşı, gecdir, daha mən gedim, evdə narahat olmasınlar.
- Ən yaxşısı, zamana burax, o ən doğru olanı özü sənə göstərəcək.
- Qorxuram, zamanın məndən gətirdiyi yox, apardığı daha çox olsun.
- Zaman sənin olmayanları aparır, narahat olma, sənin olanı heç bir qüvvə apara bilməz.
- Yaxşı, xudahafiz – Yaşar sağollaşıb evinə getdi.

Şamil kişi Yaşarı yola saldıqdan sonra stulda oturub bir siqaret yandıraraq fikrə getdi. Həqiqətən, o, bütün olanları düşünəndə həyatının çox qəribə olduğunu bir daha öz-özünə təsdiq edirdi.

...

Yaşar növbəti bir neçə günü də birtəhər başa vurdu. Ancaq bütün gün boyu olanları fikirləşir və bundan sonra həyatın ona daha hansı sürpriz hazırladığını fikirləşirdi. Dilarəgilin yaşadığı ev onların binalarıyla üzbəüz yolun qarşı tərəfində tikilmiş təzə yaşayış binasında idi. Hər axşam evə gələndə özündən asılı olmayaraq boynu həmin binalara sarı dönürdü. O, burda nə axtardığını özü də bilmirdi. Bəlkə də bilirdi, özünə etiraf eləyə bilmirdi. Ancaq dərhal o, içindəki hissi buxovlamağa çalışır və olanları Dilarənın ona dediklərini yaddaşından qaytararaq, sanki beyninə təsir edərək ordakı nifrət, kin canavarını tərbiyə edirdi. Birdən yenə ümidlər, xəyallar baş

qaldırır. Bəlkə fikirləşirdi  ki, var qüvvəsiylə işləsə, əlləşsə, pulu olsa, mövqeyi olsa, güclü insan olsa bəlkə Dilarəni əldə edə bilər. Ancaq, qürur belə tez təslim olmaz. Nə mənası var. Bəlkə əsəbi olub deyib, ürəyindən gəlməyib, axı Dilarə tez özündən çıxandır. Belə insanların da xalq arasında tərifi "nə var dilində var, ürəyi təmizdir" olur.

Yenə ümid araya girirdi. Yox, özünü aldatma, bu iş alınan deyil. Şüur hərəkətə keçir. Nə isə, Yaşar artıq bloklarının qarşısında biraz durduqdan, bir xeyli düşündükdən sonra yavaş-yavaş evə doğru addımlayırdı. Birdən içindən bir hiss başını sola döndərməyi istədi. Bəli, solda o, Humayın yaşadığı evin pəncərəsini gördü. İndi bir anlıq fikirlərini ona yönəldərək onunla bağlı düşünməyə başladı. Ürəyindən bir hiss ona deyirdi ki, Humay pərdə arxasından onu güdür, ona baxır. Əslində həqiqətən də, bu belə idi. Humay həmişəki kimi, pərdə arxasından ona baxırdı. Sanki, məhəbbət özü də bilmədən öz kor bucağını yaratmışdır. Soldan diaqonal Yaşara baxan Humay və mərkəzdən düz Dilarəyə doğru baxmağa çalışan Yaşar. Bəli, bu məhəbbətin kor bucağı idi həqiqətən. Və kor məhəbbətdən heç kəsə xeyir gəlməz deyə Yaşar düşündü. Məhəbbətin gözü kor deyilmiş, özü də kor imiş. Yaşar çəkdiyi ahdan havaya buraxdığı nəfəsi ordunda qoyaraq yuxarı evə qalxdı. Ev qapısını açıb içəri keçdi. Evdə sakitçilik idi. Görəsən, ev əhli harda idi? Atası zalda divanda yatan gördü. Yəqin yaşlılıq insanı elə-belə yerlərdə sıx oturduğu divanda yaxalayaraq ona yuxu kimi gələrək onu yatırdır. Bacısıgilin otağınını qarşısından keçəndə birdən anasının səsini eşitdi.

- Yaxşı, birdən bunu Yaşarın yanında deməyin, o, bilməsin – Xavər qızlarına nəsə xəbərdarlıq edirdi.
- Birdən yemə təkrarlansa, onda neyləsin? – Nərmin dilləndi. Mən özüm o əclafı sabah tapıb onun başını əlimə keçənlə əzərəm.
- Yaxşı, uşaqdır, bilməyib, bir qələtdi eləyib. Nərmin, sən də sakit ol. Qoy söz-söhbət çıxmasın. Sonra qardaşınızın qulağına çatar. Onsuz da yazıq uşaq min fikirlə əlləşir. İstəyirsiniz, nəsə dəlilik eləsin? Qardaşınızı düşünmürsüz?
- Yaxşı, yaxşı, ana. Yəqin daha qarşıma çıxmaq – Asudə dilləndi. Səsində nəsə bir titrəməsindən hiss olunurdu ki, biraz bundan qabaq o, ağlayıb – Keçin içəri, birdən Yaşar gələr.

Birdən bu an səhərdən danışılanları eşidən və nəsə pis bir şey olduğunu hiss edən Yaşar qapıdan içəri keçdi.

- Nə olub burda, nəsə olub ona?

Narahat altı göz bir-birinə baxıb tutuldular. Həmişəki kimi, ortanı yığışdırmaq ananın üzərinə düşürdü deyəsən.

- Heç nə, ay bala. Gəlib çıxdın, yemək hazırdır. Səni gözləyirdik, gedək yeyək. Atan səhərdən acam deyə qışqırır.

- Ana, sual verdim, nə olub? Kim Asudənin qarşısına çıxıb. Asudə, nə olub, nə gizlədirsiz məndən? – Yaşar içəri girəndən başını aşağı salan Asudə hıçqırıb ağlamamaqdan özünü güclə saxlayırdı. – Asudə, niyə ağlamısan sən? Nə gizlədirsiz?
- Heç nə, nə olacaq!? – Asudə sakitcə dilləndi.
- Nə olacaq? O sevgilinin qardaşı, Orxandır, nə zibildir. Dərsdən gələndə qızın qabağını tutub dostları ilə buna sataşıb. Deyib ki, qardaşı bacımın ardınca tula kimi düşüb, mən də bacısının ardınca düşəcəm. – bayaqdan özünü güclə saxlayan Nərmin partlayaraq bir anda hər şeyi dedi.
- Eybi yox, ay oğul. Uşaqdır, bilməyib, bir qələt eləyib. Bacın cavabını verib. Narahat olma. Sənə əsəbləşmək olmaz – Xavər bir tərəfdən əsəbdən əlləri əsən oğlunu tutaraq bunları deyərkən bir gözüylə də Nərminə tərs-tərs baxaraq sakit qalmağını işarə edirdi.
- Yaxşı, ana, yaxşı. Narahat olma, hər şey qaydasındadır. – Yaşar anasının narahatlığını görüb onu sakitləşdirmək üçün dedi.
- Hə, heçnə. Gedək yemək yeyək. Qızlar, siz də gəlin, kömək edin süfrəni salaq.

Yaşar əvvəlcə hamama girib əl-üzünü yudu ki, biraz özünə gəlsin. O, ona görə yenə də ailəsinin əziyyət çəkməsini artıq özünə bağışlaya bilmirdi. Əlüzyuyanın qarşısında üzünə xeyli su vuran Yaşar birdən güzgüdə özüylə sataşdı. Bəli, bu güzgüdəki o idi. Ancaq o, özüylə üzləşmək istəmirdi. İnsan özünü bağışlaya bilməyəndə bu zaman onun ən görmək istəmədiyi sima öz sifəti olur. Yaşar bir müddət özünə baxdı. O, sadəcə özünü tanımaq istəyirdi. Doğrudanmı o, bu qədər dəyişib? Qürurunu itirdikdən sonra indi də qeyrətinin əzilməsinə göz yumacaq? Yox, bu belə ola bilməz. Dərhal sabah o, Orxan deyilən şərəfsizi tapıb ona bir-iki yağlı kötək ilişdirməlidir ki, birdə belə alçaqlıqlar eləməsin. Əlbəttə, o, bu cür kötəkləri tam haqqıyla qazanmışdır. Birdən yenə başqa problemlər yaransa, bundan sonra yenə Dilarəylə rastlaşsa, yəqin ki, o qardaşının döyülməsini heç cur qəbul etməyəcək. Bununla Yaşar bütün körpüləri yandıraraq geriyə yol qoymur. Yox, axı o buna hələ hazır deyildir. Hələ içində ölməyən bir hiss, mübarizə tələb eləyən bir yol, işlərinin düzələcəyi ümidi var idi. Yox, yox. O, əgər bunu keçsə, Orxana bağışlasa, özünə bir ömür bağışlaya bilməyəcək. Lap bir ömrü Dilarəylə birgə keçirtsə belə. Asudənin gözlərinə necə baxacaq. Axı, bir qardaşın ən böyük vəzifələrindən biri bacısını qorumaqdır. Bu bir kişiyə düşən, ən şərəfli ilahi vəzifələrdən biridir. Bəli, biziz qanımızda kişilik hormonlarından başqa bir də qoruyucu hormonlar gəzir. Axı, dədə-babalarımız bizə belə öyrədib. Bu hormon bizdə hətta kişilik hormonunu da veribdir. Çünki, ikincinin zəifliyini gizlədə və buna görə cəmiyyətdə dolana bilərsən, ancaq birincinin zəifliyini nə gizlədə bilərsən, nə buna görə cəmiyyətdə rahat yaşaya bilərsən, nə də özünlə sakit yaşaya bilərsən. Yaşar axı hökmən öz vəzifəsini yerinə yetirməli, bu vəzifə ona qardaş kimi bir qadının xitab edə biləcəyi ən böyük kəlməni

söyləyən insanı qorumalı idi. Sonu nə olursa olsun. Elə bu zaman anasını səsi onu fikirlərindən ayırdı.

- Yaşar, harda qaldın, ay bala? Səni gözləyirik.
- Gəldim, ay ana, gəldim – Yaşar dəsmalla əlini qurutduqdan sonra onu gözləyən ailəsinin yanına gedərək süfrə başına əyləşdi.

Yemək yeyərkən o, Asudənin üzünə baxmamağa çalışırdı. Çünki, işindəki hiss hələ də o şərəfsizin cavabını vermədikcə buna haqqı olmadığını deyirdi. Asudədə yemək boyu narahatlıq var idi. Çünki o da Yaşarı çətin vəziyyətə qoyduğuna görə və nəsə başına bir oyun gətirəcək deyə bacı narahatlığı duyurdu. Bütün olanlara baxmayaraq Yaşar düşündü ki, dünyadolu ən gözəl tablo budur. Qala başında oturan ata, yemək çəkərək qalanı idarə edən ana, qalanın qoruyucusu oğul, qalanın sərvəti qızlar. Bəli, bu sərvəti qorumaq qalanın şərəf məsələsidir.

**...**

Yaşar ertəsi gün işdə demək olar ki, ancaq dünənki məsələ barəsində düşündü. Orxanın hərəkəti, o nə qədər pis təsir etsə də, ortada Dilarənin verdiyi sula doğururdu, əlbəttə, bunu başqa birisi eləsəydi. O, bu haqda heç fikirləşməyə belə ehtiyac duymaz, dərhal həmin insanın cəzasını verərdi. Ancaq indi, yenə də məsələyə ürək müdaxilə edirdi. Yaşar fikirləşib elə bir yol tapmaq istəyirdi ki, bu həm Orxanın cavabı olsun, həm də onunla Dilarə arasındalı məsələyə sıçramasın. Ancaq o, uzun götür-qoydan sonra o qərara gəldi ki, nə olursa olsun, o, Orxanın qarşısına çıxmalı, ona elədiyi hərəkətin düzgün olmadığını başa salmalıdır. Bəlkə o da səhvini başa düşər və ondan üzr istəyər və bir daha belə hərəkət eləməməyinə söz verər (Yaşarı narahat edən bunun birdən yenə də təkrarlanmağı idi) və bununla da məsələ bağlanar.

Yaşar bu fikirlə də bugün işdən erkən ayrılıb yenə Dilarəgilin binalarının qarşısına getdi. Bu səfər o Dilarəni yox, Orxanı gözləməyə gəlmişdi. Çünki, onun fikrincə Orxan bu vaxtı hazırlıqdan qayıtmalı idi. O, burada onunla rastlaşıb söhbət eləməyi uyğun hesab etmişdi. Bəli, söhbət eləmək, o, içinə yalnız bu sözü təlqin eləyirdi. Başqa heç nəyə ehtiyac yoxdur. O, nə özünə, nə də ailəsinə yeni problem yaratmaq istəmirdi.

O, bir xeyli burda gözləməli oldu. Fikirləşdi ki, deyəsən ya gecikib, ya da hər halda belələrinin əylənməyə yerləri və pulları çoxdur. Yəqin hardasa istirahət eləyir, gec gələr. Yaşar düşündü ki, bir az da gözləsin, əgər Orxanı indi görməsə, sabah birbaşa məktəbə gedib orda onu tapıb söhbət edə bilər. Birdən o, uzaqda Orxanın gəldiyini gördü. Ona yaxınlaşmaq istərkən o, birdən Dilarənin də inun yanında olduğunu gördü. Dilarə yaşıl ətəyi biraz qısa olan libasda idi. Paltarın rəngi və uzun açılan saçların onun kürəyinə tökülməsi onu həqiqət uzaqdan bir mələyə oxşadırdı. Yaşar artıq hər şeyi unudub uzaqdan bu gözəlliyə tamaşa eləməyə başladı. Dilarə

bugün həqiqətən gözəlliyinə söz olmayacaq qədər qəşəng görünürdü. Yaşar özünə etiraf etdi ki, bu onun gördüyü ən böyük gözəllikdir və o, uzaqdan da olsa ona baxmaqdan zövq alır. Dilarə gözəlliyini müşayiət edən varlı yerişi, oğrun baxışlarıyla qardaşıyla birgə bloka girib gözdən itəndə Yaşar özünə gəldi. O, indi ayıldan bura gəlməsinin əsas səbəbi ilə işi yerinə yetirə bilmədiyini anlaması idi. Axı, o, bura Orxanla danışmağa gəlmişdi. Lənət şeytana, o, yenə də Dilarəni görən kimi özünü itirdi və görməli olacağı işi unutdu. Nə isə, indi onların ardınca gedə bilməz, bir də sabah işdən yenə də icazə alın burda gözləyə bilməz. Yaşar yenə özünə əsəbləşmişdi və elə yaramaz olduğunu öz-özünə deyirdi. O, ediləcək bir şey olmadığını anlayıb yavaş-yavaş evə doğru yollandı. Yol boyu yenə onu müxtəlif fikirlər yaxaladı. Gah Dilarənin gözəlliyini yada salaraq yenə müxtəlif ümidlərə və xəyallar quraraq axsayan qıçını da dartaraq sürətlə yeriyir, gah da hər qıçın dartdıqda bütün olanlar, Dilarənin ona dedikləri və qardaşının elədiyini yada salaraq sürətini yavaşladır və öz susqunluğunu, acizliyini başa düşdükcə özü də içində ən böyük qarğışları yağdıraraq hətta iki qıçının da şikəst olmağa layiq adam olduğunu deyirdi.

O, gəlib evə çatanda gərgin olduğunu və otağında uzanacağını deyərək öz otağına keçdi. Burda tək qalaraq bir az kitab oxuyaraq fikrini dağıtmaq istəyirdi. Ancaq kitabı əlinə alıb oxuyub başa çatdığı hər səhifənin sonunda heç nə anlamadığını başa düşərək yenidən geri qayıdırdı. Bugün baş verənləri heç cür unuda bilmirdi. Yəni, bu onun məhəbbət dediyinin ona vurduğu daha bir zərbə idimi?! O, hətta qeyrətinin tələb etdiyini də ona qurban vermişdi. Bu həqiqət deyəsən çox ziyanlı idi. Əgər bu eşq səndən bu qədər olacaqsa onun verdiyi heç nəyə əvəz da bilməz. Birdən Yaşarın qapısı döyüldü və anası içəri girdi. Giriş vəziyyətindən asılı olaraq Yaşar anasının onunla nəsə xəlvəti bir söhbəti olduğunu anladı. Çünki, oğlunun yanına həmişə oğrun-oğrun gələn anaların adətən onlarla şəxsi söhbətləri olur.

- Yaşar, necəsən? Ay oğul, niyə yeməyə gəlmədin? Acsansa sənə bura nəsə gətirim. Ağrın yoxdur ki?

- Yox, ay ana, narahat olma. Nəsə biraz kitab oxumaq istədim, bir azdan gələcəm, narahat olma. Asudə necədir? Oğlan bugün onu narahat eləməyib ki?

- Yox, yox. Vallah yox. Bilirsən ki, sənə yalan demərəm. Uşaqdır da, bir qələtdir oldu, qurtardı. Mən səninlə başqa bir söhbət eləmək istəyirəm, Yaşar. Atanla mən belə qərara gəldik ki, səni artıq evləndirmək lazımdır. Qulaq as, sözümü kəsmə, qurban olum – Xavər Yaşarın deyəcəyi cümləni boğazında qoyaraq sözünə davam elədi. Bilirsən, bütün bu olanlar sənə çox təsir elədi. Evlilik yaxşıdır. Evlilik insanı bütün fikirlərdən, problemlərdən məşğuliyyətlərdən ayıraraq ona yeni bir vəzifə verir. Ailə və sənə bundan sonra bu günə qədər bütün qayğı və fikirlərin cəfəngiyat olduğunu göstərir. Həm də sənin daha qulluğa, qayğıya, yəni, xanım qulluğuna ehtiyacım var.

- Yəni, sən artıq bir topala qulluq eləməkdən yorulmusan? – Yaşar hər sözdən bir söz çıxarmaq xüsusiyyətini bir daha incik şəkildə göstərdi və dərhal da anasına qarşı haqsızlıq elədiyini və onu əsla belə bir mənada söz deməyəcəyini anladı.

- Yox, sən niyə belə deyib məni kövrəldirsən? Şükür, yaxşısan. Topal, şikəst deyib özünü əzmə. Allahın verdiyi bu qismət idi. Oldu, qurtardı. İnşallah bu da keçər. Bir toy, inşallah, son zamanlar başımıza gələn bu pis hadisələrin ağırlığından qalxmağa kömək eləyər.

- Ay ana, görürəm sən hər şeyi həll eləmisən. Deyəsən, şadlıq evini də artıq danışmısan. Hətta bu paltarlarımın arasından bəylik geyimi çıxsa, təəccüblənmərəm.

- Bəs nə. Sən ananı nə bilirsən?!

- Bəs gəlini tapmısan? Axı deyəsən, səhv eləmirəmsə, bu sünnət toyu deyil, yəqin ki, ağ paltarlı bir nəfər olmalıdır yanımda.

- Bax belə, sən deyib güləndə, zarafat edəndə hamımızın eyni açılır. Bilirsən, sənin pil olmağın bütün ailənin halına təsir eləyir. Axı ailə acıları bir yerdə çəkir. O məsələni də yəqin həll eləməmiş bura gəlməyəcəyimi bilirsən. Sənə Validə xalanın qızı Nigarı almaq istəyirəm. Yaxşı qızdır. Sakit, mədəni, oxumuş, əsl ideal ana reseptində olan hər qabiliyyəti var. Özü də bilirsənə təzəliklə neft şirkətində yaxşı işə düzəlib, normal maaşı da olacaq deyəsən. Ailəsinin də tək qızıdır. Əgər sən razılıq versən bu işi, inşallah, həll eləyərik. Mən ------------ ağzını aramışam, onlar da bu işə pis baxmırlar.

- Ehh, ay ana. İndi mənim harama yaraşır evlənmək, nə evim var, bə şəraitim, bu qədər problem, borclar içində.

- Hamısı düzələr, oğul. Evin niyə yoxdur? Bura bəs nədir? Yoxsa arvadına qaynana qulluğu tutmağa qıymayacaqsan? Toydan da yəqin biraz pul qalar, axı bu bizim birinci toyumuzdur. Sən belə şeylərin fikrini eləmə.

- Ana, tələsmə. Hələ zamanı deyil, necə deyim, mən hələ hazır deyiləm. Qoy birinci Nərmini köçürək, sonra. Mən də qoy özümü toparlayım, bu uşaq oyuncağı deyil tələsik qərar verəsən. Hər tərəfli düşünmək lazımdır. Başqasının balasını da bədbəxt eləmək olmaz.

- Sən də az bəhanə elə. Nərmin hələ, bilirsən, ərə getmək istəmir. İstəyənləri də olub, görürsən ki, istəmir. Başqasının balasına görə də narahat olma. Səndən yaxşısını tapmayacaqlar. Bax, Yaşar, səninlə açıq danışacam. O qız bizim tayımız deyil. Doğrusu, bilirsən, səninlə bu barədə heç söhbət eləməmişəm. Çünki bizim üçün əsas sənin xoşbəxtliyindir. Sən istəmisən, yaxşı eləmisəm. Ancaq, özün görürsən də, ondan sənə xeyir tapılmır. Ümumiyyətlə, belə ailələr bizə qız verməzlər. Onları da başa düşmək olur. Bu, həmişə belə olur. Cavansan. Bir az sonra uşağın olanda bütün bunlar sənə mənasız, boş şeylər kimi gələcək. İnan mənə.

- Narahat olma, ana. Mən də başa düşürəm. Ancaq bir az zaman lazımdır. Sənin də bilmədiklərin var.
- Vallah, mənim bildiyim ana ürəyinin hiss etdiyidir. Mən də səninlə bu qızı bir yerdə yaxşı hadisələrin içində görə bilmirəm. Bilirsən, qonşumuz Nəsibənin onlarla tanışlığı var. Ondan eşitdim. Deyir, qız bir oğlanla gəlir-gedir. Deyəsən atasının dostunun oğludur. Ailələrinin də xəbəri var. Yəqin, özləri təşkil ediblər. Özün də məndən yaxşı bilirsən ki, belə ailələr adətən içərilərinə başqalarına buraxmamaq üçün elə bir-birlərinə qız alıb-verirlər. Deməkdə məqsədim o deyil ki, üzüləsən. Yəni, boşuna ümid saxlayıb zamanı itirməyəsən. Ümid yaxşıdır. Ancaq aldığı zamanla müqayisədə gətirəcəyi bir şey yoxdursa, zülmdür.

Yaşar bu sözləri eşidəndə bir az təəccüblənsə də, sonra ona bu adi gəldi. Niyə də yox. Bu, normal bir hadisədir. Əslində içindəki bədbin proqnozlar ona elə çox vaxt bunu deyirdi. İndi anası da təsdiqlədi.

- Nə isə, ana. Narahat olma. Mən biraz tək qalım. Mənə biraz vaxt ver. İnşallah, qismətdə nə varsa, o olar.
- Hə, ay oğul. Sən də çox fikir eləmə. Sən bilirsən, hələ tam sağalmamısan – anası yavaşca qapıdan çıxaraq Yaşarı tək qoydu.

Yaşar pəncərənin qarşısında dayanaraq düşüncələrə daldı. Bəli, ana ürəyi. Çox vaxt analar üçün ən ideal gəlin seçimi bacısı qızları olur. Yaşar heç vaxt anasının sözünü yerə salmaq istəməzdi. Ancaq o, özünü Nigarla birlikdə ər-arvad kimi təsəvvür eləməyə çətinlik çəkirdi. Nigar ondan iki yaş böyük idi. Ən xoşlamadıöı cəhətlərdən biri də bu idi. Bəs görəsən, Dilarə haqqında deyilənlər necə, düzdür?! Cəhənnəm olsun hər şey! Birdən içindəki özünümüdafiə bunu dedi. Nə qədər çox fikirləşirəm, o qədər çətinliyə düşürəm. Anasını daha çox üzməmək üçün otağından çıxaraq zala, ailəsinin yanına getdi.

...

Yaşar növbəti günə başlayarkən dünən "cəhənnəm olsun" dediyi hər şeyi xatırlamağa başladı. O, səhər tezdən işə gedərkən özü də hiss etmədən yolunu uzadaraq Dilarəgilin binası tərəfdən saldı. O, burada nə axtaracağını heç özü də bilmirdi. Bəzən insanın gəldiyi yollarda nə axtardığı sualına cavabı yol qurtarana kimi tapılmaz. Dilarənimi uzaqdan görmək imkanı əldə etmək istəyirdi, yoxsa anasının dünən dediyi o qara xəbəri yoxlamaq istəyirdi. Birdən elə təsadüfən Yaşar binanın qarşısında bir son model "Range Rover" markalı maşının qaldığını gördü. Hiss olunurdu ki, maşının içindəki, bu maşının qabaq oturacaqlarının quruluşuna xas, insanı hündür, canlı göstərmək xüsusiyyətindən yararlanan bir saqqallı oğlanın kimisə gözləyirdi. Yaşar bu haqda fikir yürütməyə macal tapmamış, birdən Dilarənin qaçaraq maşının yanında peyda olmuş surətini gördü. Maşından düşən saqqallı,

boylu-buxunlu, yaraşıqlı oğlan Dilarəylə səmimi görüşdükdən sonra Dilarə ona – "Əzizim, bağışla, bir az gözlətdim" deməsi və maşına oturub bir anda gözdən itmələri Yaşara yuxu, xəyal kimi göründü. Şütüyən "Range Rover"in təkərlərinə ixtixarla baxan Yaşar birdən-birə axsayan qıçına baxaraq onu nifrətlə ardınca çəkməyə başladı. O, özünə izah etməyə çalışırdı və sanki ilk dəfə onun qıçından yox, qıçının ondan utandığını hiss etdi. Yəqin ki, indi onun hiss etdiyi bir insana daşınması ən böyük yük olan duyğulardır. Axı, o, qıçını nə vaxtsa, bir şütüyən təkərli maşına minib, gözü qarşısında gedən insana görə itirməmişdi. Ancaq Yaşar özü də başa salmağa və özü də anlamağa çalışırdı ki, sağlam düşüncəylə düşündükdə burda qəribə bir hadisə yoxdur. Anası necə demişdi: "Su çuxurunu tapar". Burda təəccüblənəcək heç nə yoxdur. "Yola və həyata davam" – deyib Yaşar işinə doğru yollandı. Ancaq içinə dolan suallar və bir az bundan qabaq onun xəyallarının şahzadəsini gözünün önündə kiminsə qara atına (maşınına) minib getməsi Yaşarın beynini daha da dumanlandırdı. Yaşar bu oğlanın kimliyini və onlar arasında münasibətin nə olduğunu öyrənmək istəyirdi. Buna görə də, o, Səidəyə zəng edərək ondan kef-əhval soruşduqdan sonra utana-utana olsa da, səhər gördüyü mənzərəylə bağlı ona bir neçə sual verdi. Səidə könülsüz də olsa, onun suallarına cavab verdi. Onun cavabları Yaşarının anasının dedikləriylə üst-üstə düşürdü. Sonra Səidə Yaşara yenə təsəlli verərək onun üzülməməsini öz həyatına davam etməsini dedi. Yaşar da Səidəyə olanları yaddan çıxaracağına dair yalandan da olsa söz verdi. Öz-özünə vermiş sözləri tuta bilməyən insanları başqasına verdiyi sözləri tutmaq o qədər də maraqlandırmır.

Gün bitənə qədər Yaşar nədənsə bir neçə dəfə Humay barəsində düşündü, bu həm bugün arada bir onun qaraciyərində ağrılar hiss etməsiylə bağlı idi, həm də ümumiyyətlə bugünə qədər olanları düşünməsiylə bağlı idi. Hər əlini ağrıyan qaraciyərinə aparanda ona gözünü belə qırpmadan öz ciyərini verən bir insanı yada salır və düşünürdü. Axı niyə o, bu insanın fədakarlığına, sevgisinə cavab verə bilmir. Bəlkə sahib olmaq, birinci aid olmaqdır. İnsan aid olduğuna sahib olmalıdır ki, həyatı, sabit sevgisi sadiq olsun. Ona aid olmayan Dilarənin ardınca qaçmaqdansa, niyə ona sevgisini göstərmiş Humayla birgə həyat qura bilmir? Niyə? Cavab həm sadə, həm də çətin idi. Yəqin ailəsinin də heç ürəyindən olmazdı. Heç kəs onu Yaşarla yaraşdıra bilməzdi və o da heç kəsə nəyisə başa sala bilməzdi. Kaş bir sehrli çubuq olardı, o, bu qıza toxundurub onu ürəyi gözəl görünüşə sahib insana çevirərdi. Axı bilirdi ki, o, kiminlə evlənirsə evlənsin, yuxarı pəncərələrin birində ağlayan və gizlincə ona baxan bir qız olacaqdır. Yaşar nədənsə, bu mənzərəni təsəvvür edəndə, özünü vicdanına xəyanət etmiş insan kimi təsəvvür etdi. Bəli, yəqin ki, o, Humayı pəncərə başında qoyduğuna görə və onun etdiklərinin qarşılığını hələ heç nəylə çıxa bilmədiyi müddətcə onun heç nə olmamış kimi, belə bir addım atması insafsızlıq olar. Nədənsə içindən bir hiss bir dəfəlik burdan baş götürüb uzaqlara getməsini istəyirdi. Belə bir hiss çarəsizliyə düşmüş hər bir insanın içinə zamanla baş çəkə bilir. İnsanlar

yalnız qalmağı deyil, yalnız görünməyi xoşlayırlar. Bəli, indi görünüş daha vacib məna kəsb edir, insanlara görə bir xoşbəxt olmaqdan çox xoşbəxt görünməyə və ətrafa bunu hiss elətdirməyə çalışırıq. Əslində xoşbəxt insanın bunu kiməsə göstərmək kimi bir problemi olmur. Yəni, göstərilən xoşbəxtlik varsa, əslində olan xoşbəxtlik yoxdur. Elə bu zaman hansısa bir dahinin sözü Yaşarın qulaqlarında cingildədi: "Bəzi insanlar xoşbəxt olmaqdan daha çox, bir-birində daha xoşbəxt olmaq yarışındadırlar ki, bu da səhv mübarizədir, çünki heç kəs göründüyü qədər xoşbəxt deyil". Yəqin əcdadlarımız mağaralarda görünüşə o qədər önəm verməyiblər. Bu insan övladının, sonradan bəşəriyyətin və insan cəmiyyətinin inkişafıyla ortaya çıxan xəstəlikdir və bu xəstəlik çox qurban tələb edir. Yaşar da düşünürdü ki, onun indiki halı bəlkə heç Şamil kişinin dediyi kimi əslində sevgi hissi deyil, gözəl görünüşə malik bir qıza sahib olmaq istəyən görünüş xəstəliyidir. Axı kimi bunu evə, kimi maşına, kimi geyimə, kimi də kişilik qüruruna görə yanında gözəl qız istəyir. Bəli, belə olmasaydı, o, daxilində eybəcər, xaricində gözəl görünən bir qadının arxasınca düşməz və bu qədər alçalmazdı. Yoxsa onu sevən xarici eybəcər, daxili gözəl olan bir qadını qürurla qoluna taxaraq çöldə gəzərdi. Nədənsə o, bugün Humaya baş çəkib onunla söhbət etməjk istəyirdi. Axı qızla arada bir maraqlanmaq lazımdır. Axı həkim ona bildirmişdi ki, donorun sağlamlığının qeydinə qalmaq və nəzarətdə saxlamaq lazımdır. O, Humayın ona qarşı keçirdiyi hisləri anladığından onunla tez-tez ünsiyyətdə olmağı da düzgün hesab etmirdi. O, işdən çıxarkən Humaya baş çəkdi. Həmişəki kimi, işdən yorğun gələn Humayın sakitcə köhnə divanı üstdə oturub, kitab oxuyurdu. Yaşar anlayırdı ki, Humayı real cəmiyyətdə gördüyü obrazlardan daha çox kitablarda təsvir olunan obrazlar daha çox xoş təsir edir. Onların hansının xeyir, hansının şər olduğunu bilir və öz təxəyyülündə canlandırırdı. Ancaq real həyatda bu səndən asılı olan deyildir. Çünki, sən hər kəsə, hər nəyə verilən formayla, quruluşla onu görə bilərsən. Axı kitablardakı obrazları o, özü təsvir edə bilər. Yaşar özü də bilmədən bugün Humayla xeyli söhbət edib dərdləşdi. İlk görüşdən fərqli olaraq Humay da bu səfər ilk həyəcanını yıxmış, artıq daha rahat davranır və Yaşarla sərbəst ünsiyyət yaradırdı. Onun fikirləri, dünyagörüşü, həyata baxışları Yaşara çox maraqlı gəlirdi. O, bu qızın dünyagörüşünə və fikirlərinə heyranlığını gizlədə bilmirdi. Yaşar son günlər yaşadığı hər şeyi ona danışdı. O, Humay kimi ağıllı bir qızın məsləhətinə qulaq asmaq istəyirdi. Bəlkə bu onun içiylə danışan nitqi özü də bilmədən çölə çıxmış hıçqırıqları, səsi idi. Humay da ona yalnız düz bildiklərini dedi və sonda sanki, Yaşarın nə hiss etdiyini anlayaraq ona kömək eləməyə çalışdı.

- Yaşar, sən niyə bu qədər hər şeyi sərininə fikirləşirsən? Əgər Dilarəylə bu həyatı paylaşa bilməyəcəyini özün də başa düşürsənsə, beynini daha artıq onda məşğul etmə. İncimə, bu sevgidən çox eqoya, məqsədə oxşayır. Sanki, sən qarşına markivalistcəsinə bir məqsəd qoymusan və məqsədə çatmamağını özünə yedirdə

bilmirsən və buna görə hər şeyə hazırsan. Əslində sənin bu sevgi dediyin də, sevgidən qurtarıb artıq. Səninki isə sevgiyə oxşamır. Çünki, əsl segvidə məqsəd və qürur olmur. Məncə sənin artıq ona qarşı hiss elədiklərinin içində təkcə pak hislər deyil, pis hislər də var. Açıq danışsaq, məncə, ən düzgün sənin ananın arzusunu yerinə yetirməyindir. Axı özünə gəlin seçmək hər ananın haqqıdır. Bilirəm mənə görə bəlkə vicdan borcu hiss edirsən, narahat olursan, olma, xahiş edirəm. İnan ki, sənin xoşbəxt olduğunu görmək mənim üçün ən böyük sevincdir. Xoşbəxt olmaq üçün də insan gərək yaxşı olanı ilə deyil, səni daha yaxşı hiss etdirəni ilə birlikdə olmalıdır. Mən də sənin, necə deyərlər – Humay bir an tutulu qalaraq bura hansı sözün düşəcəyini fikirləşdi və ağlına "dost"dan başqa bir söz gəlmədi – Bir dost kimi sənin xoşbəxtliyinə şad olaram. İnan ki, mən bu balaca otağımda, bu kitablarla birgə çox insanın sahib olduqlarıyla xoşbəxt, rahat olmayacağı qədər xoşbəxt, rahatam. – Yaşar Humaya qulaq asdıqca bur daha onun ağlına, insanlığa heyran qalırdı.

- Bəli, sən düz deyirsən. Ancaq unutma, sən tək deyilsən. Əgər səni xoşbəxt, rahat edəcək zərrə qədər başqa bir şey olsa, bunu mənə deməyə borclusan.
- Narahat olma. Mən, ümumiyyətlə, bilirsən, səni həmişə yad yox, yaxın hesab etmişəm. Sənin mənə başqalarından fərqli münasibətin buna haqq verir. İnşallah, sən də gözəl ürəyinin mükafatını alarsan.
- Hə, inşallah. Gedim mən. Yenə vaxt etdikcə gələcəyəm. Özündən muğayat ol.
- Oldu, sağ ol. Bir az fikirləşəndən sonra düz yolu tapacağına əminəm. Hələlik.

Yaşar Humayla ayrıldıqdan sonra evə getdi. O, bu söhbətdən sonra özündə xeyli yüngüllük, mənəvi rahatlıq hiss edirdi.

...

Yaşar növbəti günə səhər oyanarkən içində bir ağrı, sancı hiss etdi. Əvvəlcə o, bunun axşam narahat yatmasıyla bağlı olduğunu düşünsə də, get-gedə güclənən bu ağrı onu bu fikirdən yayındırdı. İnsanın qeyri-şüuri hərəkətlərindən biri də onun əlini ağrıyan yerinə apararaq oranı əliylə örtməsidir. Deyəsən, bu qədim əcdadlarımızdan gələn bir insani davranışdır ki, insan özü də bilmədən ağrıyan yerini əlinin içiylə tutmağa çalışır. Və bəlkə buna görə də, bəzi dini inanclarda insan ruhunun onun əlinin içində-ovucunda saxlamasıyla bağlı inanclar var.

Yaşar əlini ciyərləri üstünə apardığında anladı ki, ağrı əməliyyat yerindən gəlir. Sanki nəfəs aldıqca çoxalan küt bir ağrı onu ələ keçirməyə çalışırdı. O, əl-üzünü yuyaraq, özünü toparlamağa və ələ almağa çalışsa da artıq ağrının gücü və şiddəti çoxalırdı. Yaşar hazırlanmış səhər süfrəsinə yaxınlaşaraq acısını boğaraq evdəkilərə heç nə hiss etdirməməyə çalışsa da, çox əziyyət çəkirdi. O, tez masaya oturaraq heç

nə bildirməmək üçün evdəkilərin gözlərindən yayınmağa çalışdı. Ancaq elə ilk tikəsini ağzına aparanda onun halı tamam dəyişdi və o, yavaş-yavaş gpzlərinin qaranlıqlaşdığını və onu yerə sıxan ağrının təsiriylə müvazinətini itirdi və yerə yıxıldı. O, ona tərəf gələn ayaqları və qışqırıqları uzadan eşidərək tamam şüurunu itirdi və gözləri yumularaq hər şeydən uzaqlaşdı. Yaşarı dərhal xəstəxanaya gətirib, Mehman həkimə xəbər verdilər. İlk müdaxilələr olunduqdan sonra Mehman həkim dərhal yoxlamalara başladı. Yaşar koma halında idi. Mehman həkim müayinələri bildirəndən sonra çox üzgün halda Yaşarın ailəsi qarşısına çıxaraq onlara məlumat verdi. Bu məlumatları eşitmək xəstə yaxınlarına, ailəsinə bunları çatdıran insan qədər çətin olsa da, indiki halda bəlkə ən çətin iş məhz həkimin üzərinə düşmüşdü. O, üzülərək də olsa vəziyyəti izah etdi.

- Yaşarın halı yaxşı deyil. Hal-hazırda o koma halındadır. Çünki, onun əməliyyat olunmuş orqanı – ciyəri yenidən sıradan çıxmışdır. Qara ciyərə əməliyyatla birləşdirilən donor hissəsi zədələnərək bütün qaraciyəri sıradan çıxartmışdı. Bunun nəticəsində bütün qaraciyər sıradan çıxmışdır. Yaşara dərhal yeni donor tapılmalıdır. Yoxsa... – ardını deməyə həkimin özü də nə qədər çalışsa da deməyə gücü çatmadı.

- Niyə, axı niyə? Axı siz dediniz bundan sonra heç bir problem olmayacaq. Niyə mənim balamın hər işi belə zülm olur? Axi, sağalmışdı. Siz də demişdiniz ki, hər şey yaxşıdır. Ciyəri də bitişir. – ağlayan ananın hıçqırıqları arasında soruşulan bu sözlərin sual, yalvarış, nisbət olduğunu anlamaq çətin idi.

- Bəli, əlbəttə, hər şey yaxşı keçmişdi. Əməliyyat da uğurla keçmişdi. Yəqin Yaşar hardasa bilmədən özünü əzərək və ya orqanizmini gücə salaraq belə vəziyyətə düşmüşdü. Çünki, bu cür ağır əməliyyatlardan sonra insanlar uzun müddət istirahət etməli, uzanmalı və öz orqanizminə qarşı həssas olmalıdır. Mən bunu Yaşara demişdim. O isə ayağa durar-durmaq işləməyə atılaraq özünə zərər verdi. Yəqin özü də bilmədən bu olub. Ümumiyyətlə, qaraciyər həmişə xəstəliyin ən son anında özünü göstərən orqandır.

- Bəlkə ona verilən donor düzgün olmayıb, donorda nəsə problem olub? – Mahir təlaşla soruşdu.

- Yox, özünüz bilirsiniz ki, donoru mən özüm şəxsən yoxlayıb, əməliyyat etmişəm. Heç bir problem ola bilməz. Bu sonradan yaranıb. Dediyim kimi, müayinələr ancaq bunu göstərir. – Bu zaman Mehman həkim xəyala dalaraq Humayı xatırladı.

Bəli, donorun kimliyini burda heç kəs bilmirdi. Yaşarın ailəsinə donorun Mehman həkimin öz xəstəsi olduğu deyilmişdi. Adını, ünvanını soruşduqda Mehman həkim o şəxsin adını bilmənizi istəmədiyini söyləmişdi. Guya Mehman həkimi xəstəsi olmuş bu şəxs könüllü özü razılıq vermiş və tək şərti adının gizli qalması olmuşdu. Buna görə də, Mehman həkim donor barəsində əlavə danışmağı ehtiyac bilməyərək tez söhbəti dəyişdi.

- Nə isə, indi olanlar yox, olacaqlar önəmlidir. Dərhal biz yenə də Yaşara donor qaraciyər tapmalıyıq. Ancaq bu səfər bizə qaraciyərin üçdə iki hissəsi lazımdır. Ümid ancaq allahadır. İnşallah, uyğun olanı taparıq. Yaşarın yenidən sağalmağına qovuşmasına nail ola bilərik. Dualarınızı əsirgəməyin. – Mehman həkim bu sözlərdən sonra dərhal üzünü geri döndərərək otağına sarı addımladı ki, onu bu sözləri deyərkən ümidləndirdiyi insanların üzündəki ümid dolu nəzərlərdən öz gözlərindəki ümidsizliyi gizlətsin.

Mehman həkim dərhal içəri keçərək qapını içəridən bağladı. Arxada qoyduğu insanlar qədər o da üzülmüşdü. Çünki, o, gözəl bir hadisəyə şahid olaraq, yad insanların bir-birinə can bağışlanmasına vəsilə olmuş və bir gənci həyata qaytarmışdı. Ancaq indi onun bütün zəhməti gözünün qabağında hədər olurdu. O, tikdiyi evi gözünün qarşısında uçulduğunu görən usta kimi hiss edirdi özünü. Bəzən həyat insanı qurduğunun dağılmaq səhnəsinə tamaşa etdirərək, bəlkə ən ağır tamaşalarından birini verir. Bu tamaşaların sonunda əl çalmasa heç kəsin bacaracağı iş deyil. Mehman həkim özünü belə ağır bir səhnəyə tamaşa etmək məcburiyyətində qalacağını xəyal belə etmək istəmirdi. Axı insan həmişə xoş hadisələri xəyal edə bilməz, bəzən də pis hadisələri xəyal edərək özünü onlara hazırlamalıdır. Bəlkə belə olarsa, acılarımız daha yüngül olar. Yaşarı az zamanda tanımasına baxmayaraq, Mehman həkim onu çox sevmişdi. Bəli, insan gərək əzaba dözə biləcəyi qədər sevsin. Bəlkə əzrayılı da bizə çox sevdirtsələr idilər, ölüm də bizə həyat kimi şirin olardı, əzab olmazdı. Yaşara olan sevgisi və onun həyatını xilas etmək üçün bir şey edə bilməyəcəyi duyğusu onu dəli edirdi. Bəlkə buna görə insan gücünün çatdığı qədər sevməlidir ki, sevdikləri üçün gücünün aciz qaldığı anlar olmasın. Çünki, sevdiklərin üçün nəyisə deyişməyi gücü çatmayan insanın keçirdiyi əzab cəhənnəm əzabından ağırdır. İndi Yaşarın anası, atası, bacıları, dostu Nihadın, Mehman həkimin də onlarla birgə çəkdiyi bu əzab əsil əzab idi. Əzab istəyi dəyişə bilməyəcəyin şeylərə tanrının verdiyi dözmək zülmüdür.

**...**

Yaşar iik gün idi ki, xəstəxanada idi. Onu aparat vasitəsiylə həyatda tutmağa çalışırdılar. Həkim onun üçün əlindən gələni edirdi. Həkim Mehmanın bu xəstəyə qarşı olan xüsusi həssaslığı bütün xəstəxananın Yaşara qayğı göstərməsinə səbəb olurdu. Ölkədəki bütün xəstəxanalara donor üçün müraciət olunmuşdu, hətta xaricdəki əksər xəstəxanalara da müraciət olunmuşdu. Ancaq heç bir xəbər yox idi. Vaxt getdikcə Yaşarın yaşama ehtimalı da azalırdı. Qısa bir müddət ərzində Yaşara təcili donor tapılmalı idi. Onunla bağlı yenə bir sıra insanlar analiz versələr də, sanki işlərin tərs getməyi üçün əlləşən xüsusi bir qüvvə var idi ki, və o, heç cür Yaşarın ayağa qalxmasına izn vermək fikrində deyildi. Mehman həkim çox fikirli halda

otağına gələndə onu burda iki gündür gələn qonağının yenə gözlədiyini dedilər. Mehman həkim otağa girəndə ayağa qalxan bu tərs və sözəbaxmaz qonağa salam da vermədən birbaşa öz yerinə keçdi. Bir müddət stol üstəki kağızlarla qurdalanmağa çalışaraq özünə "məşğul insan" görünüşü verməyə çalışsa da buna səbri çatmadı və başını qaldıraraq ondan bir kəlmə lütf gözləyən bu sırtıq qonağa baxaraq dilləndi:

- Qızım, sən yenə də bura gəlmisən? Axı səni iki dəfə başa salmışam. Niyə başa düşmək istəmirsən? Başa düş, bu alınan məsələ deyil, səni yenə donor kimi qəbul edə bilmərəm.

- Niyə axı, həkim? Qorxursunuz? Mən özüm belə istəyirəm. Hara istəyirsiniz müraciət edim, qol çəkim. Mən inanıram ki, heç nə olmayacaq. – bu yalvarıcı səslə müraciət edən Humay idi.

O, Yaşarın bura düşdüyünü öyrənər-öyrənməz Mehman həkimin yanına gəlmiş, Yaşarın vəziyyətini öyrəndikdən sonra, yenə ona təcili donor lazım olduğunu bilmişdi. Yaşarın həyatının qısa zaman ərzində tapılmalı olacaq bu donordan asılı olduğunu öyrəndiyinə görə Mehman həkimə israr edirdi ki, onu yenə donor olmağına icazə versin. Ancaq Mehman həkim onu yenicə donor olduğuna görə bu səfər donor olacağı halda onun sağlamlığı ciddi təhlükə qarşısında qalacağını ona bildirmiş və buna nə xəstəxana heyətinin, nə də özünün icazə verə bilməyəcəyini demişdi. Ancaq Humay öz fikrində israrla dururdu.

- Humay, sən özün bilirsən, mən Yaşarı da, səni də nə qədər istəyirəm. Həkimlik müddətində bir çox xəstələri müalicə etsən də, onların bəziləriylə belə mənəvi tellər yarada bilirik. Siz də mənim üçün belə xəstələrsiz. Xüsusən, sənin keçən dəfə etdiyin insanlıq, dostluq, hər nədisə (aydın görünürdü ki, Mehman həkim də burea hansısa sözü uyğunlaşdırmağa çətinlik çəkirdi), nümunə göstəriləcək hərəkətdir. Ancaq unutma, bu işdə birinci qanun donorun sağlamlığının qorunmasıdır. Həm də sən ayaq üstə qalxan və sənə yenə özünü borclu hiss edən Yaşarı necə təsəvvür edirsən. Axı onun ürəyi, vicdanı bilirsən ki, buna necə reaksiya verəcək.

- Həkim, axı neyləyək? Siz məndən yaxşı bilirsiz ki, zaman azdır. Hər saniyə inu bizdən aparır. Biz axı belə otura bilmərik.

- Bilirəm, qızım, bilirəm. Ancaq görürsən əlləşirik. Allahdan ümid kəsilməz. İnşallah bir yerdən tapılar. Əslində belə hallar çox olur ölkəmizdə. Mən özüm adi bir orqanın tapılmadığına görə həyatdan itən çox insan görmüşəm. Bilirsən, hamının bunu xaricdə etməyə imkanı çatmır. Ancaq bizdə çatışmayan əsas faktor "özü donorun" olmamasıdır. Sən təsəvvür edirsən, hələ ölkəmizdə indiyənə kimi belə bir hadisə olmayıb, baxmayaraq ki, buna icazə verilən qanunlar var. Mentalitetimizdən gələn dəyərlərə görə heç kəs öz ölüsünün yarılmasına onun orqanlarının kiməsə verilməsinə razı olmur. Hətta bəzi şübhəli ölümlərin araşdırılması məqsədilə istintaq orqanlarında aparılan bədən yarıb ekspertiza

aparmaq, analiz nümunələri götürmək kimi prosedurlara da çox vaxt özü yiyələri tərəfindən icazə verilmir. Bəli, bu müsəlmançılıq, mentalitetə bağlı olaraq, hər kəs öz ölüsünü tam dəfn etmək istəyiylə bağlıdır. Ancaq biz unuduruq ki, dində ölüm cismani bir hadisədir. Ancaq nə gözəl olardı ki, biz öz həyatını başa vurmuş insanların orqanlarını kiməsə bağışlayaraq və bununla başqa bir insanın həyatda yaşamağına vəsilə olaq. Axı buna dinimiz də icazə verir. Əfsus ki, ölkəmizdə hələ bu addımı atan şəxs yoxdur və buna görə nə qədər insan öz həyatını itirir.

- Həkim, siz nə demək istəyirsiniz? Yəni, siz bugünə qədər olmayan bir hadisənin baş tutacağını gözləyirsiniz, kiminsə rəhmətə gedəninin orqanlarını Yaşara bağışlanmasını gözləyirsiniz? Axı bu möcüzə gözlənilməz bir şeydir.

- Neyləmək olar, qızım? Görürsən ki, analizə gələnlərin də cavabları müsbət deyil. Ancaq möcüzəyə ümid etmək olar.

- Niyə axı biz baş tutmayacaq bir möcüzəyə ümid etməliyik? Sizdən xahiş edirəm, hər kəsi razı salın və məni donor kimi qəbul edin, yoxsa sizdə, məndə əgər bir şey olsa – Humay sanki olacaq hadisəni təsəvvür etməyin nə qədər çətin olduğunu öz xəyalında inu canlandırmaq belə istəməyərək başını aşağı salaraq söyləyirdi. Özümüzü heç vaxt bağışlamayaraq, axı bizim əlimizdə şans var idi.

- Sən niyə başa düşmürsən? – əsəbi halda ayağa qalxan Mehman həkim Humaya tərəf boylandı. – Sən mənim həkimlik fəaliyyətimi də məhv etmək istəyirsən? Bu alınan iş deyil, mənim də, sənin də. Ancaq dua etməkdən başqa edəcəyimiz bir şey yoxdur.

- Həkim, siz məni anlamağa çalışın. Mən onsuz bu həyata, allahın lənəti – bu ləkəylə, qüsurla gəlmişəm – artıq Humayın hıçqırıq dolu bu sözləri içəri yığılmış bir hüznlü musiqinin çoxdan səsini duyurmaq istəyən notları idi. Buna görə hamı məndən qaçıb. Hətta doğma valideynim məni öz yanında saxlamağa utanıb. Mən qarşılaşdığım insanlardan ilk bu insandan az da olsa nəvaziş, özümə qarşı qeyri-adi məxluq yox, insan kimi baxan baxışlar görmüşəm. Bəlkə mənim dəfələrlə məktəb uşaqlarından sıxılıb intihar etmək istəyən həyatımın qarşısında duran baxışlar onun baxışları olub. O, mənim yaşama səbəbim, həyata bağlanma səbəbim olub. O yox, mən ona həyatımı borcluyam əslində. Axı o, mənim xəyallarımın qəhrəmanı və dünyada hər kəsin eyni olmadığını göstərən canlı nümunə olub. Mən belə çarəsizcə otura bilmərəm. – Humay cümlənin sonuna yaxın artıq hönkür-hönkür ağlayırdı.

- Ağlama, Humay, ağlama. Bilmək olmaz gün doğmadan nələr doğar.

- Həkim, mənə düzünü deyin, neçə gün vaxtımız var?

- Hələ 1-2 gün var. Allah böyükdür. Ondan ümid kəsilməz. Sən get evə. Mənim də işlərim var, xəstələrə dəyməliyəm. Mən təzə xəbər olan kimi sənə mütləq deyəcəm.

- Yaxşı, sağ olun, həkim. – Humay çarəsizcə başını aşağı salaraq otaqdan çıxdı.

Hiss olunurdu ki, o, hansısa xəyallar aləmində suallar arasında dolanırdı və dolanmaq hansısa bir körpünü seçməklə nəticələnməli idi. Həyat sırat körpüsünə qədər qarşımıza o qədər körpülər çıxardır ki, bizim sırat körpümüzə çatmağımız bunlardan asılı olur.

...

Humay evə gələndən sonra özünə bir çay dəmləyib içdi. O, xeyli düşündü. O, Yaşar üçün bir ömür boyu dua edə bilərdi. Ancaq anlayırdı ki, artıq ediləcək bir şey yoxdur. Yalnız bir şeydən başqa. Bəli, əslində çıxış yolu var idi. Bunu Mehman həkim özü də bilmədən ona göstərmişdi. “Ölü donor”. Bəli, belə bir insanın kimliyi ilə maraqlanmırlar, dərhal onun orqanlarını ehtiyac olan insanlara köçürürlər. Yalnız belə o, Yaşara yardım edə bilərdi. Doğrudur, Azərbaycanda bunun ilki olmayıb, deməli, bunun ilkini yaşamaq və bu gözəl ənənənin əsasını qoymaq ona qismət olmalıymış. Qismətləri tanrı bildiyinə görə deməli, bunu da ona rəva görmüşdü. İnsan tanrının əseridisə, deməli tanrı qüsurla əsərlərini bəlkə də, başqa qüsursuz əsərlərinin əskikliyini tamamlamaq üçün yaradıb. Bəli, tanrının bu minnətindən qurtulmaq, onun vəzifəsini icra etmək lazım idi. Axı bütün müqəddəslər də bunu deyib ki, biz tanrının qoyduğu missiyaları yerinə yetirmək və açdığı yolları getmək üçün yaradılmışıq. Bəlkə tanrının başqa dünyalarında, aləmlərində belə deyil, ancaq bizim yaşadığımız planetdə bu belədir. Yer planetində xoşbəxtlik çox çətin və bahadır. Həyat qəribə adətlərdən və əziyyətlərdən ibarətdir. Burada xoşbəxtlik acları toxlardan az və acizdirlər.

Yaşarın həyatını qurtarmağın bir yolu olsaydı onu nəyin bahasına olursa olsun edəcəyinə özünə söz vermişdi və o, artıq bunun yolunu bilirdi, o, bunu etməliydi. Həyatı bahasına olsa belə! Axı, Yaşarın olmadığı dünyada yaşamağın nə mənası. Onsuz o, doğulandan həyat nu zəif bənd, əskik halqa edərək uduzmuşlar cərgəsinə salmışdı. İndi o, bu həyata qalib gələcəkdir. O, taleyi üzərində qələbə çalacaqdır. Utanılacaq ömrü ona rəva görmüş taleyi, nümunə göstəriləcək həyata çevirəcək, öz qələbəsini əbədiləşdirəcəkdir. İnsanın qələbəsi qazandıqları, itirdiklərinə dəyəndə uğur sayılır, onun da qazanacağı itirdiyinə dəyəcəkdir. Sevgidə qələbə sevdiyinin xoşbəxtliyidir. O, qələbə qazanacaq. Axı qələbəni hamı sevir. Çay bardağını stol üstə qoyanda onun gözlərində qələbənin sevinci var idi.

Buna görə də, o, çox fikirləşmədi. Əvvəlcə yuyunub qüsullandı. Sonra iki məktub yazaraq ayrı-ayrı zərflərə qoydu. Zərflərin üstlərinə Mehman həkimin və Yaşarın adını yazdı. Sonra telefonla bir sms Mehman həkimə göndərdi. Sonra cəsarətini topladı, balkonda olan ipi gətirərək onu planlaşdırdığı kimi bükərək əzrail formasına gətirdi. Və sonra onu işıq yerinə bağladıqdan sonra digər ilməyini öz boğazına keçirdtdi. Stul ayağının altında, boğazda ip, artıq geriyə yol yox idi. O,

qələbəyə getmək üçün son addım atmalı idi. Bu addım onu bir aləmdən başqa aləmə aparırdı. Axı sevgi dedikləri bu illət ancaq insandan tələb etməyi bilir. Real dünyadan ayırıb xəyal dünyasına, mümkünlükdən qeyri-mümkünlüyə, indi də bu dünyadan o dünyaya  aparmağı tələb edir. Artıq Humayda bir tələb yox, ciddi komandirin əmri idi. Əmr müzakirə olunmur, icra olunur. İcraat vaxtı Humay uca səslə əmr oxudu:

- Əşhədü ənnə lə ilahə illalah, əşhədü ənnə Muhəmmədən Rəsul allah – və ayaq atından yıxıdılan stul, qurtaran bir ömür, icra olunan əmr.

Mehman həkim onun teıefonuna gələn sms oxuyar-oxumaz tez özünün maşınına oturaraq Humayın mənzilinə gəldi. Humay qapını içəridən bağlamamışdı. O, qapını açarkən gördüyü mənzərə qarşısında şoka düşmüşdü. Tavandan Humayın cansız bədəni sallanmışdı. Həkimə bir anlıq elə gəldi ki, cəsəd gülümsəyirdi. Çünki Humay eydiyi hərəkəti peşmanlıq duymadan etmişdi, buna da çox sevinirdi sanki. Mehman həkim artıq onun məqsədini başa düşmüş və onun sifətindəki son cizginin niyə belə donuq sevinc olduğunu anlamışdı. Deməli, sevgi növbəti qurbanını almışdı. Yaşarın həyatını qurtarmaq üçün Humay öz həyatına qoymuşdu. Bir müddət yerində donub qalan Mehman həkim çarəsizcə stola oturdu. Çünki, o, hələ də şokda idi. Və bir insanın bu cür böyük ürəyə sahib olacağını gözləmirdi. Onun gözü stolun üstndəki zərflərə sataşdı. Üzərinə adı yazılan zərfi açaraq mərhumun sonra yazdığı sözləri oxumağa başladı:

“Mehman həkim, siz mənim qarşıma çıxan ən gözəl insanlardan biri və əsl sənətini, peşəsini vicdanla yerinə yetirən şəxslərdən birisiniz. Sizi qısa zaman içində tanımağıma baxmayaraq, sizi bir böyüyüm kimi sevib, hörmət qoydum. Əlbəttə, həyat bizi yazxı şərtlərdə bir-birimizlə qarşılaşdırmadı. Ancaq insan bəzən düşdüyü çətin vəziyyətlərdə, pis günlərdə elə insanlarla tanış edir ki, az qalır o insanı tanıdığınıza görə düşdüyü çətinliklərə şükür desin. Bunu allahın lütfü hesab etsin. Sizdən, bir qızınız olaraq, xahiş edirəm. Olanlara görə heç vaxt özünüzü günahkar hiss etməyin. Deməli, allah belə istəyib, ona görə də belə olur. Həyatda birinci olaraq, nəyinsə ilkini yaşamaq xoşbəxtliyi az-az insanlara qismət olur. Mənə də deməli bu xoşbəxtlik qismət olubmuş. Bəli, mən ölkəmizdə orqanlarını bağışlayan ilk ölü olmaq istəyirəm. Buna görə mənə kömək etmək, bu şərəfli işdə mənə yoldaş olmaq şərəfi də sizə düşür. Xahiş edirəm, mənim vəsiyyətimin yerinə yetməsinə yardımçı olasız. Mən bütün orqanlarımı ehtiyacı olan ağır halda olan bacı, qardaşlarıma bağışlayıram. Mən bu həyata yeridən onlarla gələcəyəm, onlarla görəcək, onlarla döyünəcək, onlarla nəfəs alacaq, onlarla gəzəcək, bir sözlə onlarla yaşayacağam. Buna görə mən ölən bir Humayın yerinə, onlarla Humay yaşadacağam. Onsuz da, sonda şərəflə, durğun ölmək hər bir insanın yaşamağının ən böyük qayəsi, arzusudur. Mən də, şükür Allaha, bu mərtəbəyə sizin köməkliyinizlə layiq görüləcəyəm. İndidən buna görə də sizə çox sağ ol deyirəm. Yəqin deməyə ehtiyac yoxdur, siz də başa düşürsünüz ki, ən birinci Yaşarın ayağa qalxması ən böyük arzumdur. Ona lazım olan orqanını götürüb,

onun əməliyyatını başa vurun. İnşallah, inanıram onun əməliyyatı sizin sayənizdə uğurla keçəcək və o, yenidən ayağa qalxacaq və çox xoşbəxt olacaq. Onda onun üçün yazdığım məktubu ona verərsiniz. Ona deyin ki, mən etdiyimə görə heç vaxt peşman deyiləm , o da buna görə heç vaxt peşmanlıq duymasın, əksinə çox xoşbəxt olsun ki, buna dəysin. Məni başa düşün. Onun yaşamadığı bir dünyada mən heç vaxt yaşaya bilmərəm, mən həyata onun sayəsində bağlanmışam. Ona deyin ki, çox xoşbəxt olsun, mənim ruhum yalnız o zaman dinclik tapa bilər. Sizdən bir xahişim də var. Heç kəs mənim bunları etdiyimi bilməsin. Haqqınızı halal edin."

Mehman həkim məktubun sonuna yaxın artıq göz yaşlarına hakim ola bilmədi və onlar sel kimi axdı. Bəli, o, bu cür insan qarşısında içindən gələn baş əymək, səcdə etmək hissini dayandıra bilmədi. O, bir ilahəylə, mələklə üz-üzə dayanmışdı, çünki belə hərəkəti yalnız mələk, ilahə edə bilərdi. Mehman həkim başa düşürdü ki, onun çiyinlərinə böyük yük düşür. O, tez bir zamanda hərəkətə keçməli və Humayın vəziyyətini yerinə yetirməli idi ki, Yaşarı xilas etsin. Özünü toparlayan Mehman həkim öz güclü iradəsiylə, əzmiylə onu heyran qoymuş Humayın nəşinə baxdı və ona söz verdi ki, onun vəsiyyətini yerinə yetirəcək və şərəflə başa çatmış bir ömrü nümunəvi əbədiyyətə çevirəcək. Telefonu əlinə alıb aidiyyatı orqan və qurumlara zəng vurdu.

...

Yaşar gözlərini açanda başının üstündə sevinc dolu baxışlarla ona baxan Mehman həkimi gördü**.** Onun yavaş-yavaş özünü bərpa edən şüuru vəziyyəti başa düşməkdə ona kömək edirdi. Hə, deyəsən, o, yenə də kəfəni cırmışdı. Allah yenə ona yaşamaq şansı vermişdi. O, bədənini tərpətməyə çalışsa da, bunun ağrılı olduğunu hiss etdi. Əliylə onu tutan Mehman həkim ona tərpənməyə icazə vermədi.

- Yox, yox, Yaşar. Tələsmə, hələ tikişlər tam sağalmayıb. Hal-hazırda sənə sistem qoşulub, tərpənməsən yaxşı olar. Özünü necə hiss edirsən?

Yaşar hələ də həkimə təəccüblə baxan gözlərini başqa səmtə döndərə bilmirdi.

- Yaxşıyam, həkim. Deyəsən sizi yenə də yormuşam. Canınız qurtula bilmədi məndən – Yaşar çətin nəfəs ala-ala dediyi bu sözlər öz canından vezmiş xəstə ahları idi.

- Sən bizdən belə asan qurtula biləcəyini fikirləşirsən? Qoy anangilə şad xəbəri verim. Yazıq qadın bu neçə günü həlak oldu. Onun sevincini təsəvvür edirəm. Qoy çağırım.

- Mehman əmi (artıq bu insana duyduğu yaxınlığa görə onu belə çağırırdı), mənə nə olmuşdu? Yenə məni kim xilas etdi? – Sanki Yaşar ürəyinə yenə nəsə şübhə dolmuşdu.

Onun bu sualını gözləyən və bundan qorxan Mehman həkim bir an özünü itirsə də, tez toparlamağa çalışdı.

- Başa düşmədim, sən mənim səni başqa həkimə etibar edəcəyimi düşünürsən? Yoxsa məndən narazısan? Düz edirsən, bəlkə birinci dəfə öz işimi yaxşı görsəydim, ikinci dəfə bura gəlməzdim. Qorxma, sənə söz verirəm, daha mənim üzümü də görməyəcəksən. Sükür allaha, bundan sonr ahəyatına tam sağlam, normal şəkildə davam edəcəksən – Mehman həkim soyuqqanlıqla özünü ələ alaraq etdiyi bu zarafatlarla Yaşarın fikrini yayındırmaq istəyirdi.

- Yaxşı, Mehman əmi. Sən bilirsən mənim nə soruşduğumu, mən ki, uşaq deyiləm. Onsuz da, suallarıma cavab almayınca sizdən əl çəkən deyiləm. Burdan da çıxan deyiləm. Keçən dəfəki kimi məni yayındıra bilməzsiniz.

- Yaşar, özünü uşaq kimi aparma. Hələ indi ayılmısan, hələ söhbət etməyə çox vaxtımız olacaq. Qoy ananı çağırım, neçə gündür burdan heç yerə getmir, qapılarda yatır. Bax, sənə xəbərdarlıq eləyirəm, təkcə özünün yox, ananın da sağlamlığı səndən asılıdır. Yüksək təzyiq tapıb. Ona görə bundan sonra öz sağlamlığını düşünmürsənsə o yazıq arvada yazığın gəlsin. Ona əsəbləşmək, narahat olmaq olmaz. Öz sağlamlığına etdiyin biganəlik həm özünə, həm də anana ziyan verir. Əgər ananın başına bir iş gəlsə, özünü bağışlaya bilərsən? Onun üçün sən yalnız tez sağalmağına, onu sevindirmənə bax. İndi sənin ona baxan vaxtındır, onun sənə yox. Ölməyə nə var ki. Elə bilirsən qəhrəmanlıq edirsən. Ancaq bunun əzabını ailən çəkir. – Mehman həkim bu sözlərlə çox gözəl psixoloji manevr edərək xəstəyə təsir etdi, onu sakitləşdirdi. Bəli, dünyada ən böyük şantaj sevdiklərimizin həyatı ilə olanıdır.

Yaşar bir anlıq anasının, ailəsinin çəkdiyi əzab-əziyyəti, yaxınlarının təlaşını fikirləşdi və anladı ki, onun özü üçün bir qəpiyə dəyməyən cismi sevlənləri üçün dünyalara dəyir. Və o buna dəyərsiz yanaşdıqca sevənlərinin dünyasını qaraldır. Onun buna haqqı yoxdur, qohumlarına, ailəsinə, hələ anasına bu əziyyəti, zülmü yaşatdığı üçün Yaşar bir anlıq özünə çox əsəbləşdi. “Mehman həkim düz deyir”, o, tez zamanda sağalıb ayağa durmalı və onların qayğısına qalmalı idi. Axı qəhrəmanlıq ölmək deyil, savaşmaqdır. Bəzən də savaşaraq ölməkdir. Yaşar Mehman həkimə başını sallayaraq onunla razılaşdığını dedi və onu anladığını göstərdi.

- Yaşar, indi gedim xəbər verim ailənə. Sən çalış tez sağal, ayağa qalx. Bəsdir uzatdığın. Hələ səni yol gözləyir. Anan əhd edib, burdan çıxan kimi səni evləndirəcək. Arvad nəvə istəyir. Məncə bu onun haqqıdır. Bunu ona çox görmə. Gözaltısı da var, deyəsən. Sən burda olanda hər gün gəlirdi bura. Maşallah qabiliyyətli, mədəni qızdır. Özü də səni çox istəyir. Bir-birinizə çox yaraşırsınız.

- Görürəm, siz də anamla bir cəbhədə vuruşursunuz? Deyəsən, məsələni tamam həll etmisiniz.

- Əlbəttə, Yaşar. Sən gözlə, bu dəqiqə - bunu deyib həkim bayıra çıxdı.

Yaşar həkimin kimi nəzərdə tutduğunu gözəl anlayırdı. Yəqin ki, Nigar anasıyla birgə xəstəxanaya gəlmiş, Xavər anaya dəstək olmuşlar. Yaşarın üzündə yaranan təbəssüm bir anda dərin mənalı düşüncələrlə həll olundu. O, artıq anlayırdı ki, anası bu qızdan başqa özünə gəlin qəbul etməyəcək. Yaşar da onun üçün hər cür əzabı çəkmiş şəxsin bu istəyini yerinə yetirməyə məcburdur. Yəqin ki, bu gəliş-gedişlə artıq söz-söhbət də yaranmış, necə deyərlər, qızın adı artıq Yaşarla birgə çəkilirsə, bundan sonra başqa yol yoxdur. Bəlkə də düz olanı elə budur. Artıq bundan sonra sevgi-mevgi ardınca düşməyin vaxtı deyil. Yaşar düşündü, bəlkə ilk dəfə anladı ki, hər sevgi bir oyundur. Oynadı və qurtardı.

Bəzən uduzanın mükafatı oyunun dəyərindən baha olur. O, indi hiss edirdi ki, o, Dilarə haqqında bir daha fikirləşmək istəmir. Yəqin artıq sevgi dedikləri hiss, oyun qurtarmışdı. Təktərəfli oynanılar oyunlar qurtarmağı həmişə bir nəfərin nə vaxt masadan qalxmağa qərar verdiyində olur. Artıq masadan qalxmaq və bu oyunu bitirmək lazımdır. Çünki, bu, öz-özü ilə oynamaqdır və kənardan çox axmaq görsənir və udduğun özün, uduzduğun özün olursan. İnsan bəzən yüz söz versə də, and içsə də ancaq bitirə bilmir. Çünki, bitirmək də bir hisdir və o, insanın içində gizlənir və gözlədiyi anda üzə çıxır. Bəli, bu hiss üzə çıxmışdır. Qəribədir, Yaşar əvvəlkindən fərqli olaraq indi içində bir yüngüllük hiss edirdi. Sanki, o, ağır köhnəlmiş və gülüş doğuran bir pencəyi üstündən çıxardaraq tullamışdı. O, artıq azad idi. Bəlkə o, uzun müddət etdiklərini xatırlayanda olanlar ona gülməli və axmaqlıq, öz hərəkətlərində yüngüllük, düşüklük görürdü. Belə oyunların sonunda ancaq itirdiyin zamana yanırsan həmişə. Nə isə. Yaşar "olub, keçib" deyib, bundan sonrakı həyatında belə səhvlər etməyəcəyi qərarına gəlmişdi. O, qərara gəldi ki, tez sağalıb burdan çıxsın, yemə öz ailəsinə dayaq olsun, axı onların ondan başqa heç kəsi yoxdur və anasının arzusuna hə deyərək, Nigarla evlənsin. Birdən o, bir anlıq Humayı düşündü, görəsən o, neyləyir, Yaşarın burda olduğunu bilib? Yəqin ki, bilir, bəlkə də ona baş da çəkib. Bir anlıq Yaşar içində Allaha dua etdi. Allah mənə bu insanın borcundan çıxmağa və ona qarşılığını verə bilmədiyi bu hissin əvəzinə başqa hislərlə köməkliklərlə çıxsın. Hə, o, maraqlanmışdı. Humayın qüsurunun da, az da olsa, artıq müalicəsi var. Xaricdən gələn esttik həkimləri dovşandodaqlıq deyilən bu qüsuru əməliyyatla aradan götürürlər. Ancaq buna xeyli vəsait lazım idi. Kaş Yaşarın əlində bu vəsait olardı. O, bir anda düşünmədən dərhal onu bu qüsurdan xilas edər və onu sevindirərdi. Kim bilir, bəlkə, onun da qarşısına onu sevən, ona layiq bir insan çıxar, o da xoşbəxt olardı. Yaşar da onun xoşbəxt ailə qurması üçün əlindən gələni edərdi. "İnşallah" – Yaşar bir anda özü də hiss etmədən dodaqlarında dedi. Əlbəttə, Yaşar bundan sonra çalışmalı, işləməli, özü və ailəsi üçün, hətta Humay üçün də nə isə etməli və bu çətin günləri onlara yaşatdıqlarının əvəzini çıxmalı idi. Axı həyat davam edir və o, hər davamında yekə bir təkərə bənzəyir ki, onu fırlatmaq üçün bizdən güc, iradə, əzm istəyir.

Elə bu an çoxdan çölə çıxmış Mehman həkim şad xəbəri çatdırdı. Yaşarın ailəsiylə birlikdə içəri girdi. Yaşar öz ailəsini bir yerdə görəndə anladı ki, bu yaradıcının ən gözəl hədiyyəsidir. Səni sevən bir ailə və sevdiyin ailə. Onun üzünə baxaraq sevincdən gülən, gülümsəyən bu insanlar da, deyəsən onunla eyni fikirdə idilər. Özü də hiss etmədən gözlərinin içi güldü.

...

Həmişəki kimi, vaxt ötdükcə zaman bütün yaraları sağaldır və insan bütün vəziyyətlərə uyğunlaşır. Yaşar xəstəxanada tez bir müddətə sağalaraq həm mənəvi, həm cismani təmizlik tapmışdı özündə. İnsanı belə anlarda düşünməyə və qərarlar qəbul etməyə vaxtı çox olur. Yaşar öz qərarını anasına bildirərək, onu xeyli sevindirmişdi. Yaşarın Nigarla evliliyə "hə" deməsi, Xavər ananı çox sevindirmiş, belə demək olarsa, ona dünyaları vermişdi. Bu qərar hər kəsi sevindirmişdi. Çünki həm mənəvi, həm də maddi cəhətdən indiki vəziyyətdə Yaşara dayaq olacaq ömür yoldaşı kimi ən yaxşı namizəd elə Nigar idi. Hətta Yaşarın xəstəxana xərclərinin ödənilməsində də Nigarın ailəsinin az köməyi olmamışdı. Təbii ki, Yaşarın bundan xəbəri yox idi. Onun ən çox düşündüyü məsələlərdən biri də bundan sonra özünə aid yeni bir iş sahəsi qurmaq, dükan açmaq, yeni gəlir əldə etmək idi. O, öz içində olan işgüzarlığa, potensiala güvənərək buna nail ola biləcəyini düşünürdü. Xavər qubanmayaraq elə Yaşarın xəstəxanada olduğu müddətdə el adətinə uyğun olaraq Nigargilə elçi gedərək, onu Yaşara istəmiş və "hə" cavabını aldıqdan sonra qızın barmağına bir üzük keçirmişdi. Artıq ailələr "xeyir işi yubatmaq olmaz" deyilən bu xalq məsələniə söykənərək toyun vaxtını təyin etmişdilər. Yaşar və Nigarın toyu şəhərdəki orta səviyyəli şadlıq evlərindən birində təşkil olunacaqdı. Yaşarın valideynlərinin belə tələsmələrinin əsas səbəblərindən biri Yaşarın nəsə problemli bir işə salınan məsələlərdən uzaq tutmaları idi.

Yaşar xəstəxanadan çıxmağa hazırlaşanda artıq 20 gündən sonra toyunun təyin olunduğunu öyrənəndə bu ona təəccüblü gəlsə də, o, buna o qədər də qəribə baxmadı. Əslində, bu anlaşılan idi. O, valideynlərinin nə etdiklərini gözəl anlayırdı. O, "nə olub qaça-qaçdı" desə də əslində qəlbində bunu daha düzgün məntiqli olduğunu düşündü. Nə qədər tez olsa, o qədər hər şey tez unudular, arxada qalar. Əlbəttə, bütün bu hazırlıqlar aparmasında mahir yaxından iştira etmiş və Yaşara başa salmışdı ki, o, qətiyyən narahat olmasın.

- Hər şey hazırdır, bir dənə xəstəxanadan çıxan kimi özünə kostyum bəyənməyin qalıb.

Yaşar Mahirin bu sözlərini eşitdikdən sonra başını qaldıraraq ona baxmış və bir anlıq düşünmüşdü. Mahir bu günlərdə ən az onun ailəsi qədər onun əziyyətini

çəkmişdir və onun üzündəki sevinc, qürur onu deməyə əsas verirdi ki, o, Yaşarın dostu olmaqdan bir an belə sıxılmır. Yaşar qürurla öz dostuna baxaraq düşündü ki, hədər yerə əsl dostları qardaş, yaxşı qardaşları əsil dost çağırırlar. Qardaş olmaz bəzən eyni qarından doğulmaq yox, eyni qismətdən doğulmaqdır. Buna görə Mahir onun eyni qismətdən doğulan mənəvi qardaşıdır. Bəzən eyni qucaqda böyüyənlərin qismətləri bir-birinə qol aça bilməz. Ancaq eyni qismətdə böyüyənlərin qolları həmişə bir-birinə açıq qucaqdır. Qardaşlıq qarından çıxanda yox, kürəkdə birləşəndə başlayır. Yaşar bir daha Mahir kimi qardaş olduğu üçün fəxr etdi.

Yaşar xəstəxanadan çıxmağa hazırlaşdığı gün onu burdan Mahir və atası götürməyə gəlmişdi. Anası və bacıları evdə sefrə hazırlayırdılar. Həm də toya sayılı günlərin qaldığına görə qadınların toy təlaşları daha çox idi. Xəstəxanada bütün prosedurlar həyata keçirildiyindən Mehman həkim otağın qapısını açaraq içəri girdi.

- Hə, maşallah, deyəsən, artıq bizdən canın qurtarır, təzə bəy!
- Mehman əmi, əziyyət çəkdiniz. Mən özüm də indicə sizin yanınıza gələcəkdim.
- Hə, eybi yox. “Yaxşı aslanın ayağına həkim özü gələr”. Hədər yerə deməyiblər. Özünü necə hiss edirsən? Hələ əsas əməliyyatın qabaqdadır. Evlilik. Qorxub eləmirsən? Düzünü de. Əgər qorxursansa, səni bir az da yatıraq xəstəxanada.
- Yox, nə qorxacaq? Görmürsüz necə tələsir, görən də düşünər ki, evlənmək üçün yalandan özünü xəstəliyə vurubmuş – Mahir söhbətə qatışaraq daha bir zarafat payı özü elədi ki, Mehman həkim tək qalmasın.
- Həkim, siz yəqin ki, toya gələcəksiniz də. Yoxsa əməliyyat-zad bəhanə etməyin. – Zəfər kişi dilləndi.- Sizin yaxşılığınızı nə etsək ödəyə bilmərik, sizi məclislərimizdin ən başında görmək bizim üçün şərəf olar – Zəfər kişi Mehman həkimi qucaqlayaraq dedi.
- Əlbəttə, əlbəttə. Mən indidən artıq hazırlaşıram. Hələ vaxt tapıb arvadla özümə kostyum da bəyənmişəm.
- Mehman əmi, həqiqətən sizin bizim üçün etdiyiniz yaxşılıqların borcundan heç vaxt çıxa bilərik – Yaşar Mehman həkimi qucaqlayaraq, ona minnətdarlığını bildirdi.
- Nə etmişəm ki. İşimi görmüşəm. Sən sağ ol ki, səni belə sevən insanların sevgisini qazanmısan. Nə isə, mən sizi yubatmayım. Yəqin ananın sənin yolunu gözləməkdən səbri yükənib.
- Sağ olun, Mehman qardaş. Vallah bundan sonra siz bizim qapımızı nə vaxt istəsəniz, aça bilərsiniz. Gedək bizə, qonağımız olun, hazır süfrə açılıb.
- Çox sağ ol, Zəfər qardaş. Mənim indi işlərim var. Sizdən bir xahişim var. Məni Yaşarla beş-on dəqiqə tək qoya bilərsiniz, onunla kiçik söhbətim var.
- Əlbəttə, əlbəttə. Biz çöldə gözləyirik.

Zəfərlə Mahir çölə çıxaraq onları tək qoydu.

- Hə, Mehman əmi. Sözün doğrusu, siz deməsəydiniz, mən özüm sizinlə tək qalıb söhbət etmək istəyirdim. Məni qabaqladınızı. Gördüyünüz kimi, mən tam sağalıb ayağa durdum, söz verdiyiniz kimi indi növbə sizindir. Siz də mənə bəzi şeyləri açmaöa söz vermisiniz.

- Yaşar, inan ki, sənin sağalmağına ən çox sevinənlərdən biri mənəm. Ancaq unutma, mən sənə təkcə ayaq üstə durmağa söz verməmisən, ayaq üstə qalmağa da sən mənə söz verməlisən. Çünki, əgər ayaq üstə qala bilməyəcəksənsə, ayaq üstə durmağının mənası yoxdur. Sən bundan sonra öz səhhətinə daha yaxşı baxmalı və öz sağlamlığının qayğısına qalmalısan. Bir daha ailənə, sevənlərinə bu çətin günləri yaşatmamalısan. Bunun sözünü mənə əsl kişi kimi verirsənmi?

- Bəli, Mehman əmi, mən artıq çox şeyi başa düşmüşəm. Burda fikirləşməyə çox vaxtım olub. Bir daha kiminsə mənə görə əziyyət çəkməsinə razı olmayacağam. Nəyin bahasına olursa olsun. Sanki qəlbimdə bir yüngüllük hiss edirəm. Qaəlbimdən bəzi şeyləri tamamilə çıxarmışam.

- Afərin. Sənə də bu yaraşar. Unutma, sağlam olmasan, ayaqda durmasan heç kəsə xeyrin dəyə bilməz. Özünü yandıra bilməyən başqalarına çıraq ola bilməz. İnsanları sevmək, plkəni sevmək, hətta dünyanı sevmək birinci özünü sevməkdən başlayır.

- Doğrudur, Mehman əmi, doğrudur.

- Unutma, nə olursa olsun, hansı hadisə olursa olsun, kimi, nəyi itirirsənsə itir, sən əl çəkdiyində, oturduğunda uduzmuş sayılırsan, dik durduqda yox.

Yaşar anlayırdı ki, içinə doğan şübhələr getdikcə artırdı. Mehman həkim ona hansısa pis xəbəri verməyə hazırlaşır və onu buna hazırlaşdırır.

- Deyəsən, mənə elə gəlir ki, həkim, siz mənə nəsə pis xəbər verməyə hazırlaşırsınız. Yoxsa yeni xilaskarımın adını deməkdən qorxursunuz, artıq qorxmayın. Mən öyrəşmişəm, fədakar insanların məni xilas etməsinə, yəqin daha bir can borcum artır. Yeni xilaskarlım kimdir?

- Yeni xilaskarın yoxdur – həkim qətiyyət və bir az da üzüntüylə dilləndi.

- Necə yəni, yoxdur. Axı mən bilirəm mənə yeni orqan qoyulub, bunu almağa nə vaxt, nə də imkan var, deməli kimsə verib, yoxsa mən necə sağalardım.

- Düzdür, Yaşar, düzdür. Sənə yeni orqan qoyulub, belə olmasaydı sən heç cür sağala bilməzdin.

- Əla, həkim. Mən də onu deyirəm də. Yeni xilaskarım kimdir? Yoxsa o da adını gizləyəcək?

- Yox, bunu sənə deyəcəyəm, ancaq aramızda qalacaq.

- Əlbəttə, əlbəttə. Bəs deyirdiniz yenisi yoxdur? – birdən Yaşar bir anda sarsılaraq içindən gələn bir üşütməylə, bütün bədəninin titrədiyini hiss etdi. – Yoxsa o? – bir anda özünü ayaq üstə saxlaya bilməyərək çarpayı üstdə oturdu.

- Bəli, Yaşar. Düşündüyün kimidir. Yenə də o. – hər ikisi onun kim olduğunu bir-birlərinin gözünə baxaraq anladılar. Nədənsə ikisi də utandıqlarından gözlərini aşağı saldılar.

- Mehman əmi, sən buna necə icazə verə bildin, bəs onun öz sağlamlığı? Siz məni sağaldaraq vicdan əzabıyla öldürmək istəyirsiniz? – Yaşar çarəsizcə dilləndi.

- Mən məcbur idim, çünki, bu onun son vəsiyyəti idi.

Ağır olan həmişə cümlələr deyil, sözlər olur. Çünki bu cümlənin içində bizə eşitməsi ağır olan bir söz olur.

- Vəsiyyət, necə yəni?

Yaşarın çökmüş ruhunda işlək şüuru dərhal fəaliyyətə keçərək bu sözə aydınlıq gətirdi. Axı belə vəziyyətlərdə şüur sürətlə işləyir. Vəsiyyət. Deməli o, ölmüşdür. Bunu anlayanda Yaşar özünü saxlaya bilməyib, uşaq kimi hönkür-hönkür ağlamağa başladı.

- Axı necə, Mehman əmi, necə? Deməyin ki, məni xilas etmək üçün ölüb – Yaşar ağlayaraq dediyi bu sözlər pis bir söz eşitmək istəməyən insan yalvarış idi.

- Qismət belə imiş, Yaşar. Bizə də ancaq rəhmətliyin vəsiyyətini yerinə yetirmək düşür. Mən öz üzərimə düşəni elədim, səni ayağa qaldırdım. Onun ən böyük arzusu sənin ayağa qalxmağın idi, o da, şükür allaha, yerinə yetdi. Əsas bundan sonra sənin üzərinə düşən hissə onun sənə verdiyi sağlamlığı qorumaq, onun arzularını yerinə yetirməkdir. Burda heç kəs günahkar deyil, nə sən, nə də mən.

Yaşar sakitcə ağlayaraq başa düşürdü ki, artıq olan olub. Mehman həkim onun yanına əyləşərək sakitcə ona bütün olanları danışdı. O, danışdıqca bütün olanlar Yaşara kino kimi gəlirdi və ən pisi o idi ki, o, özünü bu kinonun mənfi qəhrəmanı sayırdı. Axı hər kəs öz kinosunun müsbət qəhrəmanıdır. Ancaq onun kinosunun əsas müsbət qəhrəmanı ölmüş, o isə sağ qalmışdı. O, çox gözəl anlayırdı ki, bundan sonra ediləcək bir şey yoxdur. Ancaq bu cür qəhrəmanın ruhuna hörmət və baş əyməkdən başqa əlindən heç nə gəlməz. Yoxsa başqa yol yenə kiməsə əziyyət vermək olardı. Və indi bu onun istəyəcəyi ən axırıncı şey idi. Ona görə də, kiminsə canının yanmağına bir zərrə də bundan sonra dözə bilməzdi. O, bir daha söz verdi ki, bundan sonrakı həyatında ona içində yaşadacaq bir gözəl insanı, mələyin gözüylə dünyaya, insanlara baxacaq və onun kimi heç kəsi üzməməyə çalışacaq. Bəlkə belə deməklə o, Humayı da yaşada bilər. Yəqin, o da gözlərdən bunu görmək istəyəcək. Sonra Mehman həkim Humayın ona yazdığı məktubu ona verərək onu evə yol saldı.

**...**

Yaşar xəstəxanadan çıxdıqdan sonra evlərinə gəlmiş və onun üçün hazırlanan süfrənin başında ailəsiylə yemək yemişdi. Nigar ailəsi də burda idi. Yaşar qəlbindəki

hüznü boğaraq evdəkilərin və qonaqların üzünə zorla gülümsəməyə çalışırdı. Qonaqları minnətdarlıqla yola salan Yaşar tək qalıb azca xəyallarıyla söhbətləşmək istəyirdi. Evdə bütün gücüylə toy hazırlıqları gedirdi. Arada bir, anası Yaşarın yanına gələrək onun da toyla bağlı istək və təkliflərini soruşurdu. Yaşar bu yorucu işlərdən yaxasını qurtarmaq üçün anasına sadəcə "necə məsləhətdir, elə edin" deməklə kifayətlənirdi. O, axşama yaxın öz otağına keçərək sakitcə pəncərənin qarşısında dayandı. Burdan sağa doğru baxanda Humaygilin binası görünürdü. Birdən o, əlini cibinə salaraq Humayın yazdığı və Mehman həkim tərəfindən ona verilən məktuba toxundu. Nədənsə, o, bu məktubu açmağa cəsarət etməyərək onu cibinə qoymuşdu. Barmaqlarının ucuyla toxunduğu bu kağız parçasını cibindən çıxardıb oxumağa cürət etmirdi. Sanki, o, burada yazılanlarla üzləşməkdən və hər sətirdə Humayla rastlaşmaqdan qorxurdu. Sanki,o, özü də bilmədən bundan qaçmağa çalışırdı.

Birdən o, əlini məktubdan çəkdi, ona elə gəldi ki, o, bu məktubu rahat otağında oxuya bilməz. Buna görə də o, qərara aldı ki, bunu ancaq Humaya yaxın bir yerdə onun bu dünyada son nişan yeri olan məzarı başında oxuya bilər. Bəlkə bu daha asan olar. O, hələ xəstəxanada olarkən Mehman həkim ona Humayın onun vasitəsiylə yaxınlıqdakı qəbirstanlıqlarının birində basdırılmasını ona demişdi. Bu işdə bu fədakar qızın və öz addımının vasitəsiylə bir neçə insanın qurtuluşuna vəsilə olacaq qəhrəman qızın dəfnində onunla birgə bu işi bilən bəzi xəstəxana həkimləri və rəhbərləri kömək olmuşdular. Humayın nəşi xəstəxanaya gətirildikdən və üzərində cərrahi əməliyyatlar keçirildikdən sonra, orqan götürmələri başa çatdıqdan sonra öz istəyinə uyğun olaraq nənəsinin yanında dəfn olunmuşdu. Bu adsız qəhrəmanın dəfnində iştirak edən insanlar az olsa da, onun qəhrəmanlığının danışılacağı illər çox olacaqdır. Yaşar qərara aldı ki, dərhal qəbirstanlığa gedərək Humayın məzarını ziyarət etsin. O, evdən hava almaq adıyla çıxaraq bir taksiyə oturaraq qəbirstanlığa gəldi. Humayın məzarını tapmaq elə də çətin olmadı. O, nənəsinin məzarının yanında onun üçün ayrılmış yerdə sakitcə uyuyurdu. Yaşar yolda aldığı qərənfilləri onun məzarı üstünə qoydu. Nədənsə o, içindən gələn bir hisslə gül dükanından qərənfillərlə birgə bir qızılgül də almışdı. Yəqin hər qadının ən böyük arzularından biri həyatında sevdiyi kişi tərəfindən heç olmasa bir dəfə tək qızılgüllə mükafatlandırılması idi. Yaşar düşündü ki, Humayı bu haqdan məhrum etmək olmaz. Axı bir tək qızılgüllər sevgi rəmzidir. Yəqin ona bu dünyada bu gülü hədiyyə edən olmayıb. Qərənfilləri məzarın ətrafına düzdükdən sonra Yaşar ortaya bir tək qızılgülü qoydu. Qeyri-adi mənzərəydi. Qərənfillər arasında qızılgül, elə Humayın öz taleyi də qeyri-adi idi. Nə qədər solğun tale ilə pis baxışlar ətrafında qalsa da, saf ürəyini qorumuşdu. Yaşar məzar başında xeyli dayanıb, düşüncələrə daldı. O, sanki özü də bilmədən burdan hansısa başqa aləmə yönəlmişdi. Birdən o, əlini cibinə uzadaraq ordan məktubu çıxartdı. Ona elə gəlirdi ki, indi məktubu açıb oxumaq ona daha asan olacaq. O, məktubu açaraq oxumağa başladı.

“Yaşar, bilirəm sən bu sətirləri oxuyursansa, mən səni mçox əsəbləşdirəcək hərəkəti artıq etmiş olacağam. Çox güman ki, həyatda da olmayacağam. İnşallah, Mehman həkim ona ünvanladığım məktubu oxuyaraq mənim vəsiyyətimi  və xahişimi yerinə yetirmişdir. Sənin də boynuna düşən vəzifəni vəsiyyətimin sənə düşən hissəsini yerinə yetirəcəyinə şübhəm yoxdur. Bilirəm, bəlkə sən məni çox qınayacaqsan, sənin üzərinə sənə əzab verə biləcək mənəvi borclar yüklədiyim üçün. Amma inan ki, bizim başqa əlacımız yox idi, sənin ayağa qalxmağın üçün başqa variant yox idi. Nə etmək olar? Bəlkə də elədir, ancaq unutma insan dünyaya gəldiyi andan borca batır, çünki yaradanın ona verdiyi can borcu, sonra anasından aldığı süd borcu və s. insanın yaşamağının qayəsi bu borcları ödəməkə bağlı olur. Dünyada insanların bir-birinə olan könül borcları var. Necə ki, sən mənə olan münasibətinlə ətrafdan fərq yaradıb, mənə insan kimi davranıb könlümü alanda, bax, onda mən sənə borclandım və mən həmişə bu borcun əvəzini qaytarmaq istədim. Çünki könül borclarının hesabı olmur, əvəzi olur. Buna görə də, mən borcun əvəzini çıxdığıma görə özümü çox rahat və xoşbəxt hiss edirəm. Əlbəttə, sən deyəcəksən ki, indi sən mənə borclu qaldın. Ancaq sən də borcunun əvəzini çıxa bilərsən. Bunun üçün sən həmişə çalışıb elə bir həyat yaşamalısan ki, bu təkcə sənin istədiklərini həyata keçdiyi həyat yox, mənim arzularımın da reallaşdığı həyat olsun. Mənim arzum səni insanlarla barışıq, içinlə sülh halında görmək, yalnız döyərli şeylərin ardınca qaçmaq, insanları hər kəsin layiq olduğu təmiz hislə sevmək və ancaq xoşbəxt olmaq. Yalnız bununla sən mənə olan borcunu qaytara bilərsən. Arada bir kitab oxuyanda, çat qurtumlayanda, arada nəfəsini sonadək dartıb havanı ciyərlərinə dolduranda, bir uşağın oynamasına maraqla baxanda, bir qocanın yeriməsinə qayğı ilə baxanda, bəzən qaranlıq guşələrdə şirin xəyallara dalıb, ondan zövq alanda, bəzən bir mahnının əvvəlini diqqətlə, sonrasını yaddan çıxaracaq qədər dalarcasına qulaq asanda, inan ki, sən mənim yerimə də yaşamış olacaqsan. İnsanlarda sevilməyəcək cəhətlər axtarmaq yerinə seviləcək cəhətləri kəşf etmək, bir insanı bir dünyanı qucaqlayacaq sevgiylə sevmək, bir yaranın bütün yaraları sağaldacaq şəfqətlə örtməklə sən mənim yerimə də yaşayacaqsan. Qəlbimdə sevgi çiçəkləri böyütməyən insan, sevgi tumurcuqları yaya bilməz. Sevgi tumurcuqları olmayan dünyada nifrət ağaclarıyla dolacaq. Mən insanların nifrət ağacları kölgəsində gəzməsindəndə, sevgi çiçəkləri arasında gəzməyini istəyirəm. Və məni yaşadacaq sən həm özünün, həm də mənim yerimə ətrafa sevgi tumurcuqları səpəcəksən. Hər tumurcuqda mənim ruhumun bir zərrəsi yaşayacaq. Mən etdiyim hərəkətdən peşman deyiləm. İnanıram ki, sən məni bundan sonrakı həyatında peşman etməzsən, çox xoşbəxt olmağını istəyirəm, yalnız belə mənim ruhum təskinlik tapa bilər. Sevgiylə, Humay”.

Yaşar məktubu oxuduqdan sonra göz yaşlarını saxlaya bilmədi. O, Humayın məzar daşına baxdı. Qəribədir, ona indi elə gəlirdi ki, burda bir insan yox, dünyanı, insanları sevən, qorumağa çalışan bir mələk uyuyub. Və ona nə vaxtsa Şamil kişiyəl

etdiyi söhbət yadına düşdü. Görəsən niyə ilahələr həmişə gözəl təsvir olunur və onlara gözəllik ilahələri adı verilib. Axı onun qarşısında məzarda cəmiyyətdə “eybəcər” sayılan, ancaq insanları ilahi məhəbbətlə sevən bir ilahə uzanıb. Onda yəqin bu da Yaşar bir anlıq düşündü. Eybəcərlik ilahəsidir. Hə, əlbəttə. Tanrı heç nəyi əksi olmadan yaratmaz, gözəllik ilahəsinin əksinə eybəcərlik ilahəsi yaradıb. Bəlkə bu ilahə də indi cismi burada, məzarlıqda, ruhu isə, kim bilir, bəlkə göylərdə qərar tutub.

Yaşar bir anlıq başını qaldırıb göyə baxdı. Bəli, yəqin insanlığı bu cür sevən ilahə onları tək qoya bilməz. Yaşar sanki özünü toparlamağa və onun qarşısında dik görünməyə çalışdı. O, ilahənin göstərişlərini, arzularını yerinə yetirəcək və bundan sonrakı həyatında həm onun, həm də öz yerinə yaşayacaq. Yaşar içində indi bir yüngüllük hiss edirdi. Bura gələrkən onu tutan bədbinlik artıq yoxa çıxmışdı. O, artıq içindəki suallara cavab tapmış və marağını öldürmüş uşaq xoşbəxtliyini gözlərində gəzdirərərk özünü rahat hiss edirdi. O, Humayın məzarı başında ona söz verdi ki, bundan sonra o, Humayın dediyi kimi yaşayacaq, boş şeylərin arxasınca gedib, həm özümü, həm yaxınlarımı incitməyəcək və çox xoşbəxt olacaq. Bunun üçün əlindən gələn hər şeyi edəcək və Humayın arzularını özünün və yəqin ki, başqa insanların da (o, artıq təkcə onun yox, başqalarının da donoru idi) yaşatması üçün tam qüvvəsi ilə çalışacaqdır.

Birdən onun telefonuna gələn zəng onu xəyallardan ayırdı. Telefonu açanda anasının səsi eşidildi.

- Yaşar, hardasan? Gəlmirsən, bala? Yubanma. Sabah Nigarla gəlinlik bəyənməyə getməlisən.
- Yaxşı, ana. Gəlirəm, narahat olma.

Yaşar zəngə son verdikdən sonra məzara və göyə baxdı və ona elə gəlirdi ki, ona kimsə gülümsəyirdi.

**...**

Növbəti bir həftə Yaşar üçün başqarışıqlıqla keçdi. Bütün ailə toy tədarükü edirdi. Yaşar bacardığı qədər işləri özü aparmağa çalışırdı ki, başqalarına az yük olsun. O, bu müddət ərzində Nigarla bir neçə dəfə görüşmüşdü. Nigarın gözəlliyi, savadı, mədəniliyi, ağıllı olması Yaşarı ona daha da bağlanmasına səbəb olmuşdu. Hər şeydən əvvəl Nigar Yaşarı çox sevirdi. Həm də çoxdan sevirmiş. Nigarın məhəbbətlə baxan gözləri Yaşarın qəlbinin isinməsinə səbəb olmuşdu.

Yaşar toya dəvət etdikləri arasında son zamanlar həyatında baş verən pis hadisə və olaylarla bağlı tanış olduğu bir sıra yaxşı hesab etdiyi insanlar da var idi. Yəqin ki, pis hadisələrin gözəl cəhəti onların qarşımıza yaxşı insanlar çıxartması və ya bizə kimin yaxşı olduğunu göstərməsidir. Bəzən qaranlıq otağın zülmətini bağrında bir

balaca işıq lampası yanır. Başımıza gələn və ya qarşımıza çıxan hər şey bizim üçün bir sınaq imtahanıdır. Imtahanlar nə qədər həyəcanlı, çətin olsa da, uğurlar onlardan başlayır. Yaşar Səidəni, müstəntiq Kazımovu, Mehman həkimi bu imtahanlar vaxtı tanımışdı. O, onları toyuna özü şəxsən əziz adamları kimi çağırmışdı. Həyat imtahanlarında səhvlər düzləri aparmır, süzləri səhvə çevirir. Burda səhvlər də bəzən uğur olur. Çünki, o, əsas suallara düz cavab verməkdə bizə təcrübə olur. Təcrübə həyat imtahanlarının ən böyük yardımçısıdır. Deyirlər, həyat dərs vermədən imtahan edir, ancaq həyatın dərsi elə onun imtahanlarıdır. Yaşar da fikirləşirdi ki, onun da yaşadıqları bir həyat imtahanı idi, hansı ki, o, bu imtahanlardan fiziki kəsrlə (axsaq qalmağı və sağlamlığının hər an diqqət tələb etməsi kimi) çıxmışdı. Bəli, o, davam etməli və növbəti həyat imtahanlarını verməli idi. Çünki həyatın hər pis çıxdığınız və verə bilmədiyimiz imtahanları ardınca bir neçəsini gətirir. Hər növbəti imtahan, sınaq özündən qabaqkının təkrarı olmasa da, davamı olur.

Yaşar Səidəni toya dəvət edəndə o, buna çox sevinmiş və Yaşarı sevindirmək üçün Dilarə haqqında nəsə məlumat vermək istəyərkən Yaşar onun sözünü ağzında qoymuş və onun barəsində heç nə eşitmək istəmədiyini bildirmişdir. "Əlbəttə" – Yaşar düşündü. Bitirmək qərarının ürəkdə alınması beyindən alınmasından daha güclü olur. O, sevinirdi ki, beynində, ağlında bir neçə dəfə qəti qərara aldığı bu qərarı neçə dəfə icra etməyə gücü çatmasa da, indi nədənsə ürəyində qəbul etdiyi qərara uymaq ona çox asan gəlirdi. Deməli, keçər dedikləri, öyrəşərsən dedikləri yox, ürəyin qəbullanacaqları imiş. Ürək imtahanların cavablarını qəbul edərək nəticə ilə razılaşdı. Yaşar çox sevinirdi ki, həm beynində, həm də ürəyində Dilarəylə bağlı heç bir hiss qalmayıb. Ümumiyyətlə, müharibəni udmaq üçün bəzi döyüşləri uduzmalıdır insan. Həyat mübarizəsində mübarizə aparan insan bəzi döyüşləri uduza bilir, ancaq bu onun həyat mübarizəsini uduzduğu anlamına gəlməz. Çünki bəzi məğlub döyüşlər qalib sərkərdələr çıxarır. Bu sərkərdələr müharibəni udan sərkərdələr olur.

Səidənin Yaşara Dilarə barəsində deyəcəyi söz onun son görüşdüyü həmin oğlanla da ayrılması idi. Əslində, çox vaxt belə insanlar arasında münasibət bu cür sonluqla bitir. Çünki, Dilarə kimi qızlar güzəşti xoşlayır, onlara güzəşt bitdiyində münasibət də bitir. Güzəştlər çox vaxt acizlikdən yox, istifadə etmək istəyindən yaranır. Yəqin Dilarə həm güzəşt edilə, həm də istifadə etməyən insan axtarır, bu da axtarışı çox sürən bir məsələ idi.

Yaşar bu müddətdə boş qalmayaraq, öz işiylə əlaqədar neçə addım da atmışdı. O, inanırdı ki, beynindəki bəzi ideya ilə işini daha da genişləndirəcək. İnam döyüşdə lazım olan ən güclü silahdır. Çünki, mübarizələrin taleyini çox vaxt döyüşçülərin inamı və qələbəyə görə nəyi gözə aldıqları həll edir. Əlbəttə, Yaşar bu günlərdə daha bir dəfə vaxt taparaq Humayın məzarı başına getmişdi. O, burada oturaraq inunla dərdləşmiş və içindəkiləri boşaltmışdır. Nədənsə, bəzi dirilərə qulaq asan dərdlərini dinləyən ən yaxşı dinləyici ölülər olur. Çünki, məzar daşları sakit və lal olur. Yaşar,

ümumiyyətlə özünə söz verdi ki, həftənin müəyyən günü bura gəlməyi özünə adət etsin. Yaxşı adətlər, gözəl ənənələrə onlarda yaxşı dəyərlərə çevrilir. Ancaq dəyərləri olan insan əsl insan hesab etmək olar. Çünki, dəyərlər içimizdəki vicdan adlı tanrını yaradır və içindəki bu tanrını yaratmayan, üstündəki tanrını da itirir.

Yaşar Mehman həkimin yanına xəstəxanaya da baş çəkmişdi. Burada Mehman həkim ona bildirmişdi ki, Humay orqanları vasitəsiylə daha iki insan sağlamlığına qovuşmuşdular. Əlbəttə, onlar da öz xilaskarlarını öyrənəndə belə bir ilahəyə rast gəldikləri üçün özlərini şanslı hiss etmişlər. Mehman həkim Yaşara bir gözəl təklif edərək gələcəkdə Humayın adına bir xeyriyyə fondu açaraq həm onun adını əbədiləşdirmək, həm də bu gözəl hərəkəti – öldükdən sonra orqanlarını bağışlamaq – təbliğ edərək daha çox insan həyatı xilas etmək uğrunda insanları maarifləndirmək istədiyini bildirdi. Yaşar bu təşəbbüsə çox sevinərək bunun üçün əlindən gələn hər bir köməyi etməyə hazır olduğunu bildirmişdi.

Nəhayət, Yaşarın toy günü gəlib çatdı. Əlbəttə, bəy oğlanın həyəcanı bir başqa idi. Mahir dəfələrlə ona "hər şey qaydasındadır, hazır" desə də, o yenə də dönə-dönə hər şeyi soruşur, maraqlanırdı. Yaşar otağında kostyumunu geyinərkən bir anlıq düşündü. Həyat həqiqətən sənin planların üzərinə qurulan oyun deyil. O, hec vaxt Nigarla ailə quracağını plan etməzdi. Çünki Nigar ondan 2 yaş böyük idi və uşaqlıqdan Yaşar həmişə onu bacısı kimi görürdü. Ancaq bugün onunla ailə qurur. Əslində Nigar yaxşı həyat yoldaşı olacaq qız idi. Onun gülərüzlüyü, diribaş, ailəcanlı, uşaqları sevən qız olması bütün bunları Yaşarı belə düşünməyə məcbur edirdi. Yaşar buna görə onunla ailə həyatını xoş yaşayacağını düşünürdü. Əlbəttə, evliliyin təməlində sevgi olması gözəldir. Ancaq məlumdur ki, bütün evliliklərin təməli bu daşdan olmaya bilər. Əsas məsələ evlilik binasının növbəti daşlarının qayğı, diqqət, hörmət daşıyla tikilib ucaldılmasıdır. Çünki, bu daşlar ailə qalasının kənardan görünən və onu formalaşdıran daşlardır. Bu qalanın çölə qalan tərəfi kişi, içəri qalan tərəfi qadındır. Çöl tərəfin əzəmətlə, vüqarla hər cür şəraitə, yağışa, günəşə, qara dayanması, bərk görsənməsi, içəri tərəfdən – yəni qadından asılıdır. Eyni zamanda içərin tərəfin gözəl, qoruyucu olması çöl tərəfdən asılıdır. Bir-birini sevmədən bir yerdə ola bilən insanlar ola bilər. Ancaq bir-birlərindən olanı sevməyən insanlar yoxdur. Buna görə də körpə kərpicləri qoyulan bütün ailə qalaları daha xoşbəxt, daha davamlı olur. Yaşar, inşallah, gələcəkdə olan uşaqlarına Nigarı çox yaxşı ana kimi görə bilirdi. Bəli, kişi qadını uşaqlarının anası kimi təsəvvür edəndə artıq o qadına qarşı fikirləri daha təmiz, daha ciddi olur, inamı olur. İnam isə hər şeydən önəmlidir. Yaşar kostyumunu geyinib hazır olana qədər bu düşüncələrlə düşündü. Xoşbəxtlik bizdən alınanlar yox, bizə verilənlərdir. Yaşar ona verilənlərə, qismətinə yazılanlara görə özünü xoşbəxt sayırdı. Birdən qapı döyüldü, Mahir içəri girdi. Onun gözündən yağan sevinc, xoşbəxtlik deməyə əsas verirdi ki, o da özünü bu gün azından Yaşar qədər xoşbəxt sayırdı.

- Yaşar, vaxtdır artıq. Gəlin maşını gəlib, çöldə səni gözləyir. Ya Allah, hər şey hazırdır. Gedək gəlini gətirək. İstəyirsən gəlin maşınını özün sür.

- ox, lazım deyil. Bilirsən, mənim maşın sürməkdən xoşum gəlmir. Əlavə həyəcandır. Necə görünürəm?

- Əla, əla. Çox yaraşıqlı görünürsən, qardaşım. – birdən Mahir özünü saxlaya bilməyib onu qucaqladı. - Sonra imkan olmayacaq, qoy səni indidən ilk öpüb, mən təbrik edim. Çox xoşbəxt ol.

Yaşar ona açılan isti dost, qardaş əlləriylə qucaqlaşaraq Mahiri bağrına basdı.

- Sağ ol, qardaşım. Yaxşı ki, varsan. Sən olmasaydın, mən bu problemlərdən necə çıxa bilərdim?! İnşallah, mən də sənə etdiklərinin əvəzini bir gün qaytara bilərəm.

- Hə, artıq vaxtdır. Çıxaq, yoxsa Xavər xala bu dəqiqə girib, ikimizi də süpürgə ilə çölə qovacaq.

Yaşar çölə çıxan kimi artıq klarnetçalanın "Vağzalı" çalmaq üçün sıxıb saxlamağa çalışdığı notu başlamağa səbirsizləndiyini gördü. Yaşar vağzalı sədaları ilə yavaş-yavaş pilləkənlə düşdü. Hər şey hazır idi. Yalnız gəlini götürüb ordan da şadlıq evinə getmək qalırdı. Yaşar blokun ağzından çıxmaq istəyəndə bina uşaqları tərəfindən qapı tutularaq ondan xalat istəndi. Xalatı verən kimi blokdan çıxan Yaşar qarşısında dayanan ağ gəlin maşınını gördü. Musiqiçilər tərəfindən dayanmadan çalınan musiqi, uşaqların səsi, maşının üstünə atılan konfetlər, qışqırıqlar, səslər və onu gözləyən gəlin maşınını gördükdə bir anlıq başını qaldıraraq sağ binaya, ortadakı pəncərəyə baxdı. O, bir anlıq düşüncələrinə hakim ola bilmədi. Ona sanki belə bir fikir gəldi ki, Humay orda pəncərənin ortasından sakitcə həmişəki kimi onu güdür. Ancaq bu səfər sevinir, çünki Yaşarın xoşbəxtliyinə həmişə ən çox sevinənlərdən biri o olub. Bir anlıq onun gözü pəncərədən göylərə boylandı. Sanki ordan pəncərədən bir quş səmaya qalxdı. Sanki o quş yenə Yaşarı izləyəcək, onun xoşbəxtliyinə baxıb sevinəcək və ən əsası onu qoruyacaqdır. Yəqin bu eybəcərlik ilahəsinin ruhunu daşıyan o quş idi. İlahə daim onu qorumağa hazırlaşırdı.